

## Qarabağın işğalı nəticəsində Azərbaycana vurulan ziyan hesablanır

*"Xarici mütəxəssislərin iştirakı ilə torpaqlarımızın bir hissəsini 27 ildən çox işğalda saxlayan Ermənistanın vurduğu ziyanın hesablanması prosesi davam etdirilir. Qiymətləndirmə başa çatdırılandan sonra təzminatın ödənilməsi üçün Ermənistan beynəlxalq məhkəmələrə veriləcək". Bunu "Unikal"a açıqlamasında deputat Vüqar Bayramov bildirib. O qeyd edib ki, işğalçı ölkə uzun müddət...*

Səh.13


# UNİKAL

№15 (2053) 23 aprel 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Nağdəliyevin milyonlarını övladları Rusiya və Avropaya bu cür daşıyıb



## Koronavirus xəstələrindən rüşvət alan şəbəkə ifşa olundu

Səh.8

### Prezident köməkçisinin ailə biznesi ilə bağlı maraqlı faktlar...

*Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri Zeynal Nağdəliyevin ailə biznesi ilə bağlı maraqlı faktlar ortaya çıxıb. "Unikal" qəzetinin əldə etdiyi məlumata görə, bu biznesin başında onun övladları - Nemət və Hikmət Nağdəliyevlər dayanır. Rusiyada təhsil alan qardaşlardan Nemət Nağdəliyev daha əvvəl Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyində attaşe vəzifəsinə təyin olunub. Hazırda isə o, Polşada fəaliyyət göstərir. Belə ki, 2017-ci ilin oktyabr ayında N.Nağdəliyev həmin səfirlikdə yerləşməklə Mərkəzi və Şərqi Avropa ölkələri (Almaniya, Avstriya, İsveçrə, Lixtenşteyn, Polşa, Çex Respublikası, Slovakiya, Macarıstan, Xorvatiya, Sloveniya) üzrə ticarət nümayəndəsi təyin edilib. Z.Nağdəliyevin kiçik oğlu...*

Səh.3

## "Sülhməramlıların" Qarabağdakı hərəkətləri xalqımızda qəzəb doğurur



*Son dövrlər Rusiya sülhməramlılarının Qarabağdakı fəaliyyəti birmənalı qarşılanmır. Xüsusiylə də ermənilərin marağında olan proseslərin baş verməsi, sülhməramlı missiyaya zidd olan addımların atılması bir Azərbaycan tərəfindən ciddi narazılıqla qarşılanır. "Unikal" qəzetinə müsahibə verən...*

Səh.4

## Ziya Məmmədovun həbsinə hazırlıq gedir



*Son vaxtlar Azərbaycanda gündəmin başlıca mövzularından biri də eks məmurların korrupsiya əməlləridir. Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun cinayət məsuliyyətinə cəlb edilərək barəsində həbs qətimkan tədbiri seçilməsindən sonra daha da aktuallaşan...*

Səh.12

## YAP-ın İdarə Heyəti Hüseynbala Mirələmova görə toplanır



*Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının üzvü, partiyanın Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmovun ötən gün sosial şəbəkələrdə yayılmış videogörüntülərdə yol verdiyi qeyri-etik hərəkət cəmiyyətdə ciddi müzakirələrə səbəb olub. Qeyd edək ki, Hüseynbala Mirələmovun bu...*

Səh.2

# Rəqsanə müğənniləri sərt tənqid etdi: "Oturun yerinizdə..."



***Müğənni Rəqsanə İsmayılova bir müddət öncə Moskvada çıxış edən azərbaycanlı müğənnilərlə bağlı növbəti açıqlama verib.***

İfaçı bu dəfə həmkarlarını sərt tənqid edib: "Bəsdirin, dincəlin. Yaxşı mövzu verdim, tema tutublar. O ki qaldı mənə, nəyi necə və harada danışmaq və demək lazımdır bilirəm. Hamı ağıllı olub, mənə ağıl verən çıxıb. Hamı çıxıb deyir ki, mən deyiləm. Bunu deməyə nə ehtiyac var? Sən deyilsən, lap yaxşı, otur yerində. Söhbətin kimlərdən getdiyini özləri də yaxşı bilirlər.

Hər birimizin həyatında səhvi olub, mənim də olub. Deyirəm ki, daha olmasın, ayıbdır, daha nə deyirəm ki... İnşallah, yəqin gedib qayıdarlar, deport olunmazlar".

Qeyd edək ki, Rəqsanə bundan öncəki açıqlamasında bu sözləri demişdi: "Gəlmisiz məclis oxuyasınız, başqa hərəkətlər etməyə gəlməmisiniz. Sözüm kimədirsə, götürəcək. Üç-dörd gün əvvəl eşitdiyim sözə görə bunları deyirəm. Əgər yenə eşitsəm, həmin insanların adını açıqlayacam, deyəcəm, yiyələri gəlib onları buradan aparsın. Pulu sevməyin, hər zaman olacaq, ruzini Allah verəcək. Mən 10-15 il oxumasam, acından ölməsi biri deyiləm. Bəlkə tək olsam gəlib kafedə oxuyardım, amma sizin oxuduğunuz kafelərə baxanda adam utanır.

İndi elə xalq artistləri var ki, bir toy idarə edə bilmir. Ad almaq o demək deyil ki, sənəti var. İndi heç bir toydan qıtlıq çəkmirəm. Gedib 50-60 min rubla konsert vermirəm. Konsert kafedə yox, sarayda olar. Burada konsert verən müğənnilərdən əvvəl o təklif mənə gəlib. Nə övladıma imkan vermişəm, nə də özüm etmişəm.

Bilirəm, bir ildən çoxdur toy, iş yoxdur. Bura pul qazanmağa gəlirsiz. Ömrüboyu pul qazanan musiqiçi puldan ötrü bir-birini qırır. Bəs, fəhlə nə etsin? Bakıda toy üstündə bir-biri ilə dalaşanlar, hamısın gətirib Rusiyaya çıxarmısınız. Burada dava yox idi, indi Bakıda olanları burada yaşayırsınız. Pul üstündə bir-birilərini qırırlar. Bilirəm, hamınızın övladı, ailəsi, krediti var. Amma gəlin qazanın, ağılla-başla. Damağınızda siqaret, oturursuz kişilərin içində. Siqareti kişi çəkər. Mən də musiqiçilərlə çalışıram. Hamısını gəlib danışırlar. Yoldaşınıza kənardan kimsə baxıb ələ salmasın".

# Nazənin dəblə ayaqlaşmaq istədi, tənqid olundu

***Müğənni Nazənin Salayevanın sosial şəbəkədə yayımladığı fotosu müzakirələrə səbəb olub.***

Axşam.az xəbər verir ki, sənətçinin geyindiyi enliətək şalvarını son dəbə uyğunlaşdırmağa çalışması uğursuz alınıb. Belə ki, ifaçı adi qara iplə şalvarının ətəyini bağlayıb.

Yeni dəb şalvarlardan etmək istəyən Nazənini izləyiciləri tənqid edib. Sənətçinin ünvanına "Hələ görməmişdim ki, ayaqqabının ipini şalvarın üstündən bağlasınlar", "Şalvarın ətəyi niyə belədir? Yeni tərzdi?" kimi sözlər yazılıb.

Nazənin eyni zamanda idman tərzli kofta ilə hündürdaban geyinməsi də tənqid olunub.





# "Məni təhqir edən tapıldı və izahatı alındı" - "Azəri qızı" Günel

***"Məni günahlandırmadan əvvəl öz həyatınızı dəyərləndirin. Səbrimi ölçməyin, qalib ola bilməyəcəksiniz, mən ağrılardan, haqsızlıqlardan güclənmişəm, bacarmayacaqsınız".***

Bu sözləri Türkiyədə fəaliyyət göstərən müğənni Günel Zeynalova İnstaqram səhifəsində yazıb. Sənətçi sosial şəbəkələrdə ona mənfi rəy yazanlara qəzəblənib:

"Mənasız şərhlər yazıb, fikir sahibi olanlar. Hamı öz evinin qarşısını təmizləsin. Nə gözəl gəncləşirəm, gözəlləşirəm, bəzilərinə görə isə eybəcərləşirəm. Sənə nə? Kimə nə? Baxımlarımı edirəm, özümü sevirəm, mahnı oxumağı, alqışları, səhnəni sevirəm. Heç kimlə işim yoxdur. Öz işimlə məşğulam. Elə bil heç kimin işi yoxdur. Başqalarının həyatına klaviatura başında şərh yazmaqla məşğuldurlar. Nə vaxt alqışladınız məni və musiqimi? Amma məni çox sevirsiniz. Qısqanclıqdan başqa bir şey deyil. Mənim səsimi, sənətimi sevin. Gözəllik gəlib keçir, vacib olan qəlb gözəlliyidir. O da məndə kifayət qədər var. Sevənlərim səhifəmdə hiss olunur. Saxtakarlıq edib izləyicilərimin sayını milyon etməyi bilirəm, edənləri də bilirəm. Ancaq yavaş-yavaş artmasının tərəfdarıyam. Tez yanan tez də kül olur. Pərəstişkarlarım məni sevir, söhbət edirik, sevgimizi paylaşırıq.

Keçən dəfə sosial şəbəkədə biri məni təhqir etdi. Tapıldı və izahatı alındı. Heç kimə böhtan atmamağı öyrəndi. Ya bunu etməyəcəksən, ya da qışqıra-qışqıra üzr istəməyəcəksən".

# "Kimin nəyinə lazımsan ki, sənə çip taxsınlar" - Dilarə

***"Hazırda vaksinasiya ilə bağlı müəyyən vəziyyət yaranıb. Bunu faciəyə çevirmək yerinə həll yolunu tapmaq lazımdır. Yaşlı adamlar, hər kəs vaksin vurdurur".***



Bu sözləri Əməkdar artist Dilarə Əliyeva "ATV Səhər" verilişinin qonağı olarkən deyib. Aktrisa insanların min bir bəhanə ilə vaksindən yaxa qurtarmağa çalışdığını bildirib: "İnsanları bir sual düşündürür: Doğrudan ona o vaksindən vurdular? Bəziləri deyir ki, yəqin onlara C vitamini vururlar. Niyə belə edirlər? Biz bu bəladan tez qurtulmaq istəyirik. Məsələn, elələri var peyvənd elətdirir deyir ki, o vaksin deyil, çipdir. Bizi güdəcəklər. Sən kimin nəyinə lazımsan? İnsan özünü necə bu qədər böyüdə bilər? Özümüz özümüzü belə böyütməsək, şübhələndiyimiz məqamlara aydınlıq gətirsək, hər şey yaxşı olar. Həyatda hər şeyə gülüb keçənlər digərləri ilə nisbətdə daha rahat yaşayır".



## “Böyük qayıdış dövlətimizin strateji siyasətidir” - Komitə sədri

***”Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində Zəngəzur dəhlizinin yaradılmasının bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verdiyini, bu dəhlizin gələcəkdə ölkəmizin qlobal logistik-tranzit qovşağı ilə bağlı mövqeyini daha da möhkəmləndirəcəyindən əminliyini ifadə edərək bildirdi ki, Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır”.***

Unikal.org xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov deyib:

”Dövlətimizin başçısı regionun social-iqtisadi inkişafı, sabitlik və təhlükəsizliyi üçün bütün tərəflərlə Azərbaycanın konstruktiv əməkdaşlığa hazır olduğunu diqqətə çatdırdı. Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanat regiondakı bütün ölkələr üçün real əməkdaşlıq imkanları yaradıb. Üçtərəfli bəyannamənin 9-cu maddəsi bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasını nəzərdə tutur. Elə həmin maddəyə əsasən, Ermənistan Azərbaycanın qərb bölgəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizi vasitəsilə nəqliyyat əlaqəsinə zəmanət verir.

Zəngəzur dəhlizi uzun illər blokadada olan Naxçıvan Muxtar Respublikasını bu vəziyyətdən çıxarmaqla yanaşı, qədim Zəngəzurun qapılarını da uzun həsrətdən sonra böyük türk dünyasının üzünə açır. Zəngəzur dəhlizinin yaradılması əməkdaşlıq və nəqliyyat baxımından Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanmış sənədlər arasında ən mühüm element hesab edilir və bu, Ermənistan da daxil olmaqla, bütün region ölkələrinin maraqlarına xidmət edir. Azərbaycan da öz növbəsində, bu dəhlizin yaradılması və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı öhdəliklərinə sadiqdir. Zəngəzur dəhlizinin bölgə dövlətləri üçün təqdim etdiyi bütün imkanlar onu göstərir ki, bu layihənin reallaşması regional nəqliyyat şəbəkələrinin genişlənməsinə səbəb olacaq və bölgə ölkələri arasında qarşılıqlı iqtisadi əlaqələri stimullaşdıracaq. Yeni reallıqlar Azərbaycanın geosiyasi və geostrateji mövqeyini daha da möhkəmləndirir. Artıq Azərbaycanın və regionun inkişafında yeni dövr, yeni era başlayır. Bu layihələrin gerçəkləşməsi isə regional inkişaf, əməkdaşlıq, bağlılıq üçün daha əlverişli imkanlar yaradacaq. Tezliklə xarici investorların da azad edilmiş torpaqlarımızda yeni layihələrə sərmayə yatırmaları, əlbəttə ki, iqtisadiyyatımızın daha da yüksəlişini təmin edəcək. Azərbaycan həm Qarabağın şöhrətini özünə qaytaracaq, həm də iqtisadi dividendlər qazanacaq. Bütün bunlar isə Azərbaycanın Cənubi Qafqaz regionunda ən sabit, ən qüdrətli və lider ölkə statusunun, mövqeyinin daha da möhkəmlənməsini şərtləndirəcək”.

***Hüseyn***

# Ziya Məmmədovun həbsinə hazırlıq gedir

## Keçmiş "nəqliyyat şefi" də cəzalandırılan sabiqlərin karvanına qoşulur

***Son vaxtlar Azərbaycanda gündəmin başlıca mövzularından biri də eks məmurların korrupsiya əməlləridir. Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun cinayət məsuliyyətinə cəlb edilərək barəsində həbs qətimkan tədbiri seçilməsindən sonra daha da aktuallaşan bu mövzu digər keçmiş nazirlərin, komitə sədrlərinin və başqa iri vəzifə sahiblərinin adını yenidən ön plana çıxarıb.***

Məlumatlı mənbələrdən əldə etdiyimiz xəbərə görə, yaxın vaxtlarda həmin qəbildən olan daha bir oxşar qərarın şahidi ola bilərik. Söhbət uzun illər Nəqliyyat Nazirliyinə rəhbərlik etmiş və bu müddətdə adı böyük məbləğlərlə ifadə olunan korrupsiya əməliyyatlarında hallanmış Ziya Məmmədovdan gedir.



Əslində S.Müslümovun həbsindən qısa müddət sonra Z.Məmmədovun da istintaqa cəlb edildiyi barədə məlumat yayıldı. Ardınca isə onun Bakıdakı tunellərdən birinin inşasına fantastik məbləğdə - yarım milyon manatdan çox vəsait xərclədiyinə dair iddia gündəmə gəldi. Proses bununla da bitmədi: eks ”nəqliyyat şefi”nin bir zamanlar deputat olmuş qardaşı Elton Məmmədova Ramiz Mehdiyev tərəfindən Milli Elmlər Akademiyasında (AMEA) yüksək vəzifə verilsə də, sonradan o həmin postdan kənarlaşdırıldı. Bildirildiyinə görə, buna səbəb ictimai təpkilərlə yanaşı, Ziya Məmmədov barəsində hər an cinayət işi açıla biləcəyi ehtimalı dayanıb.

Ümumiyyətlə isə bütün bunlardan belə anlamaq olar ki, eks məmurlarla bağlı anti-korrupsiya əməliyyatlarında sıra doğrudan da Ziya müəllimə də çatacaq. Hərçənd onun həftələr öncə unikal.org-a verdiyi və ölkədə böyük rezonans doğuran açıqlamasından elə anlamaq olar ki, sabiq nazir vəzifədə olduğu müddətdə dövlətin bir qəpiyinə belə yan gözlə baxmayıb. Hazırda doğulduğu rayonda, Ucarda yaşadığını, kənd təsərrüfatı ilə məşğul olduğunu, arpa, buğda, yonca əkib mal-qara saxladığını deyən Məmmədov ardınca əlavə edirdi: ”... dolanmaq lazımdır. İndiki dövrdə dolanmaq asan deyil”.

Həmin açıqlama verilərkən də vurğuladığımız kimi, sabiq nazirin fəaliyyətindən xəbərsiz olanlar bu sözləri oxuduqdan sonra düşünə bilər ki, o, artıq ləğv edilmiş Nəqliyyat Nazirliyinə rəhbərlik edərkən büdcədən bir qəpik belə mənimsəməyib, tam şəffaf fəaliyyət göstərib, indi isə dolana bilmək üçün kənd təsərrüfatına baş vurub! Halbuki reallıq tamamilə başqadır: Ziya müəllim nazir olarkən fantastik dərəcədə böyük büdcə pullarını xərcləmək səlahiyyətinə malik idi və xərcləyirdi! Lakin həmin pulların böyük hissəsinin korrupsiya predmetinə çevrildiyi, vəsaitlərin yönəldildiyi layihələrin keyfiyyətsiz icrasından hamı yaxşı məlumatlıdır. Məsələn, onmilyonlarla manata başa gələn və 25-30 illik istismar müddəti qoyulan yolların cəmi bir neçə ay sonra dağılmağa başladığını, təmirə dayandığını xatırlamaq kifayətdir.

Əldə elədiyimiz məlumatlarda keçmiş nazirin qardaşının da cinayət məsuliyyətinə cəlb edilməsinin mümkünlüyündən bəhs olunur. Buna əsas səbəb kimi isə Bakı Beynəlxalq Avtovağzalı kompleksinin tikintisində yol verilən ciddi maliyyə nöqsanları göstərilir. Xatırladaq ki, həmin kompleksi Elton Məmmədovun şirkəti kimi tanınan “Bakı XXI Əsr” MMC inşa edib. Daha maraqlısı isə odur ki, həmin MMC bu yaxınlarda ləğv olunub. Bundan sonra Elton Məmmədov fəaliyyəti dayandırılan şirkətin ona bağlılığını inkar edib. O unikal.org-a açıqlamasında bildirib ki: ”Bu şirkətin mənimlə və ailəmizlə heç bir əlaqəsi yoxdur...” Halbuki bu ağ yalandan başqa bir şey deyildi. ”Bakı XXI Əsr” MMC-nin təsisçisi Böyük Britaniyanın Vircin adalarındakı “Trans European Leasing Group” LTD idi, Azərbaycanda 2004-cü ilin martında qeydiyyatdan keçmişdi. Bundan cəmi iki ay sonra, yəni 2004-cü ilin mayında avtovağzalın inşasına başlamışdı! Səbəbi də tezliklə aydınlaşmışdı: məlum olmuşdu ki, ”Bakı XXI Əsr” MMC-ni Ziya Məmmədovun qardaşı Elton Məmmədov təsis edib. Avtovağzalın inşa edildiyi ərazi ilə bağlı məhkəmə çəkişmələrində də cavabdeh qismində Elton Məmmədovun adı dəfələrlə hallanmışdı. Bunu dəqiqləşdirmək üçün Elton Məmmədovla əlaqə saxladıqda isə o jurnalistlərə bildirmişdi: ”Mən bir millət vəkili kimi kommersiya fəaliyyəti ilə məşğul ola bilmərəm. Amma mənim hansısa bir şirkət təsis etməyimdə heç bir problem yoxdur.

- Bəs, niyə bu şirkəti xaricdə, özü də Vircin adalarında qeydiyyatdan keçirmisiniz?

- Burda heç bir problem yoxdur. Beynəlxalq hüquq çərçivəsində şirkət qeydiyyata alınıb.

- Sizdən başqa təsisçilər varmı? Əgər varsa kimlərdir?

- Bəli var, amma bu kommersiya sirri olduğundan bu barədə heç bir məlumat verə bilmərəm...”

Bəs Elton müəllim illər sonra adıçəkilən MMC-nin ona aid olmadığı barədə ağ yalan danışmaq ehtiyacını niyə hiss edib? Ehtimallar çox ola bilər, lakin ən ağlabatanı isə odur ki, Məmmədov qardaşları ətrafında həlqənin daralması keçmiş deputatı inkar yolu tutmaq məcburiyyəti qarşısında qoyub. O, adıçəkilən şirkətlə bağlılığını inkar edərək Bakı Beynəlxalq Avtovağzalı kompleksinin inşası zamanı yol verilən yeyintilərdə əli olmadığına dair ictimai rəy yaratmaq istəyir.

Ancaq görünən odur ki, istər Z.Məmmədovun ”mal-qara ilə dolanışığını təmin elədiyi”, istərsə də E.Məmmədovun ofşor şirkətlə əlaqəsini yalanladığı barədə açıqlamaları işə yaramayacaq. Proseslərin gedişi Məmmədovların korrupsiya əməlləri barədə cinayət işi açılmasının qaçılmazlığına işarədir. Bunun konkret nə vaxt baş verəcəyini isə zaman göstərəcək, ona görə də gözləyək...

***Toğrul Əliyev***

# Qarabağın işğalı nəticəsində Azərbaycana vurulan ziyan hesablanır

## Vüqar Bayramov: "Ziyanın qiymətləndirilməsi prosesinə beynəlxalq ekspertlərin də cəlb edilməsi daha dəqiq məbləğin hesablanmasına imkan yaradacaq"

***"Xarici mütəxəssislərin iştirakı ilə torpaqlarımızın bir hissəsini 27 ildən çox işğalda saxlayan Ermənistanın vurduğu ziyanın hesablanması prosesi davam etdirilir. Qiymətləndirmə başa çatdırılandan sonra təzminatın ödənilməsi üçün Ermənistan beynəlxalq məhkəmələrə veriləcək".***

Bunu "Unikal"a açıqlamasında deputat Vüqar Bayramov bildirib. O qeyd edib ki, işğalçı ölkə uzun müddət zəbt etdiyi torpaqlarımızda infrastruktur və ekoloji soyqırım edib: "Demək olar, bütün tikililər dağıdılıb, meşələr məhv edilib. İşğaldan azad olunan yaşayış məntəqələrinin görüntüləri göstərir ki, əksər hallarda nəinki dağıdılmış evlərin yerlərini, hətta kəndlərin tam olaraq harada yerləşdiyini müəyyənləşdirmək çətindir".



V.Bayramov dəymiş ziyanın hesablanması üsullarını da açıqlayıb: "Belə hallarda dəymiş ziyanın hesablanması üçün bir sıra üsullardan istifadə olunur. Aparıcı beynəlxalq qurumların bu sahədə bir sıra metodoloji tövsiyyələri var. Dünya Bankının metodologiyasına görə, 4 mühüm istiqamət üzrə ziyanın hesablanması həyata keçirilir. Əmlak və infrastruktura dəyən ziyan, insanların həyatını itirməsi və məcburi köçkün həyatı yaşaması nəticəsində dəyən ziyan, iqtisadi nəticələrdən yaranan ziyan və insan inkişafına vurulan ziyan. Yaxın Şərqdəki münaqişələr zamanı dəyən ziyan qiymətləndirilərkən bəlli olub ki, Ümumi Daxili Məhsula (ÜDM) kumulativ ziyan infrastruktura və əmlaka vurulan ziyandan dəfələrlə çoxdur. Eyni zamanda, həmin ərazilərdə iqtisadi aktivliyin dayanmasının ciddi ziyan olduğu hesablanır. Məsələn, Suriya münaqişəsi zamanı iqtisadi ziyan 226 milyard dollar hesablanıb və bu da həmin ölkənin müharibədən əvvəlki illik ÜDM-dən 4 dəfə çoxdur. Bütün metodoloji dəyərləndirmələrə görə, Ermənistanın işğal altındakı ərazilərimizə vurduğu ziyan sadəcə onun barbarcasına etdiyi dağıntılar ilə məhdudlaşmayacaq. Həmin ərazilərimizin böyük iqtisadi potensialını nəzərə aldıqda Ümumi Daxili Məhsula dəyən ziyanın da ayrıca hesablanması və təzminat məbləğinə daxil edilməsinə ehtiyac var. Artıq bununla bağlı Dünya Bankı, BMT kimi beynəlxalq institutların aydın metodologiyası var. Ziyanın qiymətləndirilməsi prosesinə beynəlxalq ekspertlərin də cəlb edilməsi daha dəqiq məbləğin hesablanmasına imkan yaradacaq".

Deputat onu da bildirib ki, dəymiş ziyanla bağlı fərqli rəqəmlər olsa belə, bu, milyard dollarlar ilə ölçülür: "Gözlənilir ki, konkret rəqəmlər qiymətləndirmə başa çatandan sonra ictimaiyyətə elan olunacaq. Prosesin beynəlxalq ekspertlərin iştirakı ilə aparılması elan olunacaq rəqəmə beynəlxalq yanaşmada pozitiv təsir edəcək. Qeyd edək ki, Birinci və İkinci Dünya müharibələrindən sonra dəymiş ziyana görə kompensasiyaların ödənilməsi faktları qeydə alınıb. Körfəz Müharibəsindən sonra İraqdan Küveytə vurduğu ziyanın ödənilməsini tələb edən BMT-nin 687 saylı qətnaməsi qəbul olunub. O zaman BMT Kompensasiya Komissiyası dəymiş ziyanın məbləğini 52.4 milyard dollar müəyyənləşdirib. Həmin vəsaitin isə 48.7 milyard dollarının ödənilməsinə artıq nail olunub. Bu baxımdan, dəymiş ziyanın məbləği hesablanandan sonra Azərbaycan da beynəlxalq məhkəməyə müraciət edərək işğalçı Ermənistan tərəfindən təzminatın ödənilməsini tələb etmək hüququndan istifadə edəcək. Beləliklə, regionda proseslər yeni mərhələyə qədəm qoyur. İnanırıq ki, bu mərhələ həmçinin işğalçı Ermənistanın hərbi cinayətlərə görə cavab verməsi mərhələsi olacaq".

Onu da qeyd edək ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verdiyini bildirib. Dövlət başçısı bəyan edib: "Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq".

Millət vəkili deyib ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsi postmüharibə dövründə region üçün prioritet məsələlərdəndir: "Bu Azərbaycanın qərb bölgələrinin Naxçıvan Muxtar Respublikası ilə quru nəqliyyatı vasitəsi ilə birləşdirməklə yanaşı həm də regionda davamlı sülhün formalaşması baxımından vacibdir. Zəngəzur dəhlizi 1.1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türkdilli ölkələri iqtisadi baxımdan birləşdirməklə yanaşı ölkəmizin strateji əhəmiyyətini də artıracaq. Dəhliz kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcək. Zəngəzur dəhlizinin istifadəyə verilməsi eyni zamanda Azərbaycanı regionun nəqliyyat qovşaqlarının mərkəzinə çevirəcək. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına, həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də, Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq.

Dəhliz Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri də gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini daha da artıracaq. Ən əsası, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsi ilə birləşəcək".

***Z.Məmmədli***



# Nazirliyin vəzifəli şəxsi həbs edildi

***ƏƏSMN yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 7 nömrəli Tibbi Sosial Ekspert Komissiyasının sədri Oruc Məmmədovun qanunsuz olaraq əlillik dərəcəsinin təyin edilməsi üçün vətəndaşdan 2 min 500 manat məbləğdə pul vəsaitini rüşvət qismində alması faktı ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.***

Bu barədə Unikal.org-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Cinayət işi üzrə aparılmış intensiv istintaq-əməliyyat tədbirləri ilə Oruc Məmmədovun, həmçinin, digər qanunsuz hərəkətlərə yol verməsi faktları da müəyyən edilmişdir.

Belə ki, Oruc Məmmədovun öz həqiqi təsir imkanlarından istifadə edərək koronavirus infeksiyasına (COVİD-19) yoluxmaqla stasionar şəraitdə müalicəyə ehtiyacı olan şəxsin Fövqəladə Hallar Nazirliyinin Zığ qəsəbəsində yerləşən Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalına yerləşdirilməsinə köməklik göstərilməsi müqabilində vətəndaşdan 4 min manat məbləğində pul vəsaitini almasına əsaslı şübhələr yaranmışdır.

Qeyd olunanlarla bağlı Oruc Məmmədova Cinayət Məcəlləsinin 311.2 (vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma) və 312-1.1 (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)) maddələri ilə ittiham elan edilmiş, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda qeyd olunan cinayət işi üzrə cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir.

# "Hüquq-mühafizə orqanları təcili hərəkətə keçməlidir" - AYB-nin katibi

***"Mən düşünürəm ki, şantaj kimi hadisələrin davamlı olması cəmiyyətdə çox pis bir ovqat yaradır. Şantaj adiləşir, insanların içində qəzəb, kin duyğuları qabarır"***

Unikal.org xəbər verir ki, bunu Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid deyib.

O bildirib ki, bu kimi hadisələr insanları qarşı-qarşıya qoyur: "Bilirəm ki, Hüseynbala Mirələmovla bağlı yayılan videonun izinə düşmək asan olacaq. Videodan başa düşülür ki, hansısa bir konfrans öncəsidir və bu görüntülər yalnız həmin konfransın texniki işlərinə baxanda ola bilər. Videogörüntüləri yaymaqda hansı məqsəd olduğunu bilmək üçün jurnalist araşdırması lazımdır. Çünki videoya baxan insanların düşüncəsində "görəsən, bu video şantaj məqsədi ilə Hüseynbala müəllimə çatdırılıbmı, maddi maraq güdülürmü" kimi suallar yaranır. Videogörüntünü yayan şəxs tapılaraq, Cinayət Məcəlləsinin qanunlarına əsasən cinayət məsuliyyətinə cəlb edilməlidir. Hesab edirəm ki, hüquq-mühafizə orqanları kəskin münasibət bildirib, belə məsələlərin sosial şəbəkələrdə yayılmasını sonlandıracaqlar".

# Prezident və birinci xanım təməlqoyma mərasimində iştirak edib

***Aprelin 22-də Abşeron rayonunun Qobustan kəndinin ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin təməli qoyulub.***

“Unikal” xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər. Palçıq Vulkanları Turizm Kompleksi Bakıdan 59 kilometr cənub-qərbdə, Qobustan qəsəbəsindən təxminən 17 kilometr şimal-qərbdə, Şamaxı istiqamətinə gedən əsas yolun üstündə dəniz səviyyəsindən 235 metr hündürlükdə yerləşən ərazidə yaradılacaq. Bura “Qılınc” palçıq vulkanlarının ərazisi kimi tanınır. Bu yerin turizm imkanları qiymətləndirildikdən sonra burada turizm kompleksinin yaradılması qərara alınıb. Beləliklə, “Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində növbəti turizm infrastrukturunun yaradılması layihəsi icra olunur.

Qeyd edək ki, Azərbaycan dünyada palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Yer kürəsindəki məlum 1700-dək palçıq vulkanından 700-ü ölkəmizdə - əsasən Abşeron yarımadası, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelaqındadır. Onlardan 350-si aktiv vulkandır.



Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlətimizin başçısına və birinci xanıma kompleks barədə məlumat verdi.

Prezident İlham Əliyev: Buraya gələn qonaq, turist nə görəcək?

Fuad Nağıyev: Konsepsiya ondan ibarətdir ki, kompleksin binası yuxarıdan krater kimi görünəcək. Eyni zamanda, burada emalatxana da fəaliyyət göstərəcək. Uşaqlar üçün dərslər keçəcəyik. Sərgi zalı və kafe də olacaq.

“Qılınc” palçıq vulkanlarının yerləşdiyi ərazidə turizm kompleksinin yaradılmasının bir sıra üstünlükləri vardır. Yaxınlıqda yerləşən və dünyanın ən böyük vulkanlarından olan “Torağay”a və digər vulkanlara mənzərənin açılması, burada turistlərə gəzinti üçün əlverişli şərait yaradan 3 müxtəlif vulkan qrupunun olması, Qobustan qoruğunun yaxınlığında yerləşməsi kimi amillər buranın turistik önəmini daha da artırır.

Dövlətimizin başçısı Palçıq Vulkanları Turizm Kompleksinin təməlini qoydu.

Sahəsi 12 hektar olan kompleksdə kvadrotsikl ərazisi, piyada yürüş yolları, zipline və baxış qülləsi, avtodayanacaq, suvenir dükanı, eləcə də müalicəvi vannalar nəzərdə tutulur.

Əraziyə gedən yol infrastrukturunun qurulması üçün Qobustan qoruğundan “Qılınc” və ətraf ərazilərdəki vulkanlara gediş-gəlişi təmin edəcək, eləcə də Bakı-Qobustan-Palçıq vulkanları turizm klasterinin yaranması ilə nəticələnəcək 20 kilometrlik yolun çəkilişi planlaşdırılır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva vulkanların yerləşdiyi ərazini gəzdilər.

# YAP-ın İdarə Heyəti Hüseynbala Mirələmova görə toplanır



***Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının üzvü, partiyanın Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmovun ötən gün sosial şəbəkələrdə yayılmış videogörüntülərdə yol verdiyi qeyri-etik hərəkət cəmiyyətdə ciddi müzakirələrə səbəb olub.***

Qeyd edək ki, Hüseynbala Mirələmovun bu hərəkətləri təmsil olunduğu siyasi partiya nümayəndələri tərəfindən də şiddətlə qınanılıb. Lakin YAP tərəfindən sabiq Milli Məclis deputatının bu əxlaqa zidd hərəkətinə münasibətdə hansı konkret qərar qəbul ediləcək, bu məsələ ilə bağlı YAP-ın rəsmi mövqeyi nədən ibarət olacaq?

Cəmiyyəti maraqlandıran mövzu ilə bağlı YAP-ın Mətbuat Xidmətinin rəhbəri Hüseyn Paşayev Unikal.org-a bildirib ki, məsələ partiyanın İdarə Heyətinin aprelin 23-də keçiriləcək iclasının gündəliyinə daxil edilib.

”Məlum videogörüntüdə Hüseynbala Mirələmovun etikadan uzaq hərəkətləri Yeni Azərbaycan Partiyasının hər bir üzvü tərəfindən təəssüf hissi ilə qarşılanıb və şiddətlə qınanılıb. Gün ərzində əksər kütləvi informasiya vasitələrində Yeni Azərbaycan Partiyasının ayrı-ayrı nümayəndələrinin məsələ ilə bağlı kəskin mövqeyi dərc olunub. Hüseynbala Mirələmovun mənəvi-əxlaqi dəyərlərdən uzaq olan bu davranışına qiymət İdarə Heyətinin sabah baş tutacaq iclasında veriləcək”, - deyə H. Paşayev qeyd edib.

# Vətən Müharibəsi iştirakçısına vəzifə verildi



***İsmayıllı Rayon İcra Hakimiyyətində (RİH) yeni təyinatlar olub.***

Unikal.org-un məlumatına görə, icra başçısı Nahid Bağırovun əmri ilə, Səlimov Əfqan Firudin oğlu Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin böyük məsləhətçisi, Kərimov Namiq Hafiz oğlu RİH başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsinə təyin edilib.

Qeyd edək ki, Ə.Səlimov Vətən Müharibəsi iştirakçısıdır.

# Direktor müavinlərinin işə qəbulunun birinci mərhələsi yekunlaşdı



***Peşə təhsili müəssisələrinə direktor müavinlərinin mərkəzləşdirilmiş işə qəbulunun birinci mərhələsi başa çatıb.***

Təhsil Nazirliyindən “Unikal”a verilən məlumata görə, 14-21 aprel tarixlərində respublika üzrə ümumilikdə 31 vakant yerə 416 nəfər tərəfindən 825 müraciət daxil olub.

Müraciət edənlərdən 221 nəfəri kişi, 195 nəfəri qadındır. Onlardan 388 nəfəri ali təhsilli, 28 nəfəri orta ixtisas təhsillidir. Hazırda müraciətlərin yoxlanması həyata keçirilməkdədir. 27 aprelədək sənədləri qaydasında olan şəxslərin ikinci mərhələyə keçməsi barədə məlumat şəxsi kabinetlərinə göndəriləcək. İlk mərhələdən keçən namizədlər üçün test imtahanının 2 may tarixində təşkili nəzərdə tutulur.

Qeyd edək ki, sənədlərin yoxlanması zamanı əsas meyar olaraq vakant yer üzrə tələb olunan təhsil, iş təcrübəsi və sistemə daxil edilən təsdiqedici sənədlərin düzgünlüyü götürüləcək, adıçəkilən meyarlara uyğun olmayan müraciətlərə imtina veriləcək.

# Ermənistanla sərhəddə təxribat: mövqelərimiz atəşə tutuldu

***Ermənistanın Baş naziri Nikol Paşinyanın aprelin 21-də Zəngəzur vilayətinə məlum səfərindən sonra Ermənistan tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədində təxribatlar törədilib.***

Dövlət Sərhəd Xidmətindən (DSX) verilən məlumata görə, həmin gün axşam saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonunun Seyidlər kəndində yerləşən Dövlət Sərhəd Xidmətinin bölmələri, eləcə də bu istiqamətdə Ermənistan tərəfdə xidmət aparan Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin bölmələrinin yerləşdiyi mövqelər Ermənistan hərbi qulluqçuları tərəfindən atəşə tutulub.

Hadisə ilə bağlı, Rusiya sərhədçiləri Azərbaycanlı həmkarlarına müraciət edərək təxribat törədən şəxslərin içkili vəziyyətdə olduqlarını bildirmiş və hadisəyə reaksiya verilməməsini xahiş ediblər.

Rusiya tərəfinin müraciətini nəzərə alaraq, Azərbaycan sərhədçiləri tərəfindən təmkinlik nümayiş etdirilmiş və cavab atəşi açılmayıb. Hadisədən sonra təxribat törədən Ermənistan hərbi qulluqçularının ərazidən uzaqlaşdırılması barədə Azərbaycan tərəfinə məlumat verilib.

Eyni zamanda, həmin gün Qubadlı rayonunun Şurnux kəndi istiqamətində 30-40 avtomobildə dövlət sərhədinə doğru hərəkət edən bir qrup şəxs erməni dilində Azərbaycan əleyhinə şüarlar səsləndiriblər.

Dövlət Sərhəd Xidməti rəsmi olaraq bildirir ki, bu cür təxribat halları gələcəkdə bir daha təkrarlandığı halda tərəfimizdən ən kəskin cavab tədbirləri görüləcək.

# "Aprel ayında da əhəmiyyətli artım gözləyirik" - Mikayıl Cabbarov

***“Qeyri-neft sektorundan daxilolmaların artması iqtisadi fəallığın bərpasının başladığını göstərir”.***

Unikal.org-un məlumatına görə, bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov özünün sosial media hesabında yazıb.

Onun sözlərinə görə, bu ilin birinci rübündə qeyri neft-qaz sektoru üzrə vergi daxilolmalarının ümumi daxilolmalarda xüsusi çəkisi 72,4 faiz olub və bu göstərici ötən ilin müvafiq dövründən 3,7 faiz çoxdur:

“Qeyri neft-qaz sektorunda müsbət dinamika davam edir və aprel ayında da ötən ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli artım gözləyirik”.

Baş redaktor:
Zaur Əhməd

“Turanbank” ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NABO1350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5^A
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Nağdəliyevin milyonlarını övladları Rusiya və Avropaya bu cür daşıyıb

## *Prezident köməkçisinin ailə biznesi ilə bağlı maraqlı faktlar...*

***Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri Zeynal Nağdəliyevin ailə biznesi ilə bağlı maraqlı faktlar ortaya çıxıb.***



"Unikal" qəzetinin əldə etdiyi məlumata görə, bu biznesin başında onun övladları - Nemət və Hikmət Nağdəliyevlər dayanır. Rusiyada təhsil alan qardaşlardan Nemət Nağdəliyev daha əvvəl Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyində attaşe vəzifəsinə təyin olunub. Hazırda isə o, Polşada fəaliyyət göstərir. Belə ki, 2017-ci ilin oktyabr ayında N.Nağdəliyev həmin səfirlikdə yerləşməklə Mərkəzi və Şərqi Avropa ölkələri (Almaniya, Avstriya, İsveçrə, Lixtenşteyn, Polşa, Çex Respublikası, Slovakiya, Macarıstan, Xorvatiya, Sloveniya) üzrə ticarət nümayəndəsi təyin edilib.
Z.Nağdəliyevin kiçik oğlu Hikmət Nağdəliyev isə sırf biznes fəaliyyətilə məşğuldur. Baxmayaraq ki, rəsmi sənədlərdə Bakı Dövlət Universitetinin xarici tələbələrlə iş üzrə dekan müavini və hüquq fakültəsinin müəllimi kimi görünür. Atasının səlahiyyətlərindən geniş şəkildə yararlanan H.Nağdəliyevin nəzarətindəki şirkətlər xüsusilə dövlət satınalmalarından böyük pullar əldə edir. Məlumdur ki, Z.Nağdəliyev rayon (şəhər) icra hakimiyyətlərini və yerli özünüidarəetmə orqanlarını kurasiya edir, bu səbəbdən də onun həmin qurumlar üzərində ciddi təsiri var. Elə ona görə də ələlxüsus yerli icra hakimiyyətləri öz tenderlərinin mühüm hissəsini məhz ata Nağdəliyevin oğlunun şirkətlərinə verirlər. Bununla belə, H.Nağdəliyevin əldə olunan qazancı birgə çalışdığı sahibkarlarla bölüşməkdən boyun qaçırdığı, bu səbəbdən də tərəflər arasında mübahisələrin yarandığı və işin hətta məhkəməyə qədər uzandığı məlumdur.
İddialara görə, müvafiq qanunvericiliyin tələblərinə zidd keçirilən tenderlərdən əldə olunan vəsaitlər - çirkli pullar daha sonra böyük oğul vasitəsilə əsasən Şərqi Avropa ölkələrinə, eləcə də Rusiyaya daşınır. N.Nağdəliyevin hazırda tutduğu vəzifə bu işi xeyli asanlaşdırır. Məhz həmin vəsaitlər hesabına Z.Nağdəliyevin sözügedən regionda böyük tikinti biznesi formalaşıb. Belə ki, onun Macarıstan başda olmaqla Şərqi Avropanın bir çox yerlərində yaşayış binaları və ofislərin inşaatını həyata keçirən şirkətləri var.

***Sənan Mirzə***

# AŞPA-da ermənilərin təxribat cəhdinin qarşısı alındı

***"Erməni tərəfinin başlatdığı debatlar ümidsizlik və çarəsizlikdən başqa bir şey deyil. Onların bu addımı diqqəti Azərbaycanın qələbə faktından yayındırmaq məqsədi daşıyırdı.***



Erməni tərəfinin yenidən müharibə dövrünə, keçmişə qayıtmaq cəhdi reallığı dərk etməmələrindən irəli gəlir və bütün təşəbbüslərinin arxasında bu dayanır. Faktları saxtalaşdıraraq, guya Azərbaycan tərəfinin qanunsuz saxladığı erməni hərbi cinayətkarları, təxribatçıları və terrorçuları əsir kimi təqdim edərək, qurban obrazında göstərməyə çalışdılar. Bu bir çıxışda əks olunan saxta, yalan və ikiüzlülüyün ifadəsi idi".
Bu sözləri Modern.az-a açıqlamasında Azərbaycanın Avropa Şurası Parlament Assamıleyasındakı (AŞPA) nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva deyib. Onun sözlərinə görə, AŞPA-da müzakirələr uzun sürməyib və qeyd olunan məsələ ilə əlaqədar heç bir sənəd və ya qərar qəbul edilmədən sona çatıb.
"Erməni həmkarlarımızın yaddaşsızlığı təəccüb doğurur. Xocalıda törətdikləri vəhşiliklərdən, dinc Azərbaycan əhalisinə etdikləri zülm və həyata keçirdikləri etnik təmizləmə, soyqırımı siyasətindən sonra, hələ də bunlar humanizm və insan haqları barədə danışmağa cəsarət edirlər! Ermənistan deputatları 100-dən çox "hərbi əsir"in Azərbaycanda saxlanıldığını israr edirlər.
Azərbaycan rəsmi səviyyədə müharibədə əsir götürülmüş bütün erməni hərbçilərin "hamının hamıya " prinsipi ilə Ermənistana qaytarıldığını bildirib. Lakin bütün hərbi əməliyyatların dayandırılması barədə üçtərəfli bəyanat imzalandıqdan sonra Azərbaycanın azad edilmiş ərazilərində aşkar edilmiş silahlı hərbçilər qrupu əsir kateqoriyasına aid deyil. Bu insanlar təxribatçı hesab olunurlar".
S.Fətəliyeva deyib ki, erməniləri AŞPA-da yalnız bir neçə parlamentari dəstəkləyib: "Bunlar həmin kəslər idi ki, davam edən proseslərin təfərrüatlarına varmadan erməni yalanlarına istinad edərək, hər zaman onlarla fəal əməkdaşlıq edir və fikirlərini bildirirlər. Bu, bizdə təəccüb doğurmadı. Azərbaycan nümayəndə heyəti real vəziyyəti və həqiqəti auditoriyaya çatdırmaqla, ermənilərin təxribat cəhdinin qarşısını aldı. Azərbaycanın bu gün nəyisə sübut etməyə ehtiyacı yoxdur. Ermənilər tərəfindən işğal olunmuş ərazilər azad edildikdən sonra dünyaya təqdim olunan real görüntülər məsələ barədə öz sözünü deyir. Bu görüntülər Ermənistanın faşist ideologiyasından və insanlıqdan uzaq mövqedə olmasından danışır".

# Daha bir dövlət qurumu məhkəməyə verildi

***"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti məhkəməyə verilib.***
"Bakı Metropoliteni" İnzibati Xətalar Məcəlləsinin 485.2-ci (Gömrük Məcəlləsi ilə müəyyən edilmiş hallarda qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsinə görə) maddəsilə cərimələnib. Bununla bağlı iş Nəsimi rayon Məhkəməsinə göndərilib. İş hakim Elməddin Hüseynovun icraatına verilib. Qeyd edək ki, həmin inzibati xəta üzrə qurumu 1500 manat cərimə gözləyir.

# Rəşad Nəbiyev "Aztelekom"un baş direktorunu işdən çıxardı

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində kadr islahatları davam edir.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Rəşad Nəbiyevin əmri ilə, "Aztelekom" MMC-nin baş direktoru Suat Paşayev vəzifəsindən azad olunub.
Unikal.org-un əldə etdiyi məlumata görə, quruma rəhbərlik Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin aparat rəhbəri Samir Məmmədova həvalə olunub.

# Fransalı hüquqşünaslar Ağdam Cümə məscidində

***Aprelin 22-də fransalı hüquqşünaslar Yasin Yakuti və Eliz Arfi işğaldan azad olunmuş Ağdam rayonunda Cümə məscidini ziyarət ediblər.***
"Unikal" xəbər verir ki, səfər iştirakçılarına məscidin tarixi və erməni barbarlığı barədə məlumat verilib.
Qeyd edilib ki, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib.
Bildirilib ki, Ağdam məscidi də ermənilər tərəfindən dağıntılara məruz qalıb, minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

# DİN-dən əhaliyə müraciət

***Daxili İşlər Nazirliyi kibercinayətkarlıqla bağlı vətəndaşlara müraciət edib.***



Unikal.org-a daxil olan məlumatda qeyd edilir ki, son dövrlər dələduzluqla məşğul olan bəzi şəxslər tərəfindən vətəndaşlara xüsusilə saxta xarici nömrələrdən zənglər edilməklə onların şəxsi bank kart məlumatlarının əldə edilməsi hallarına rast gəlinməkdədir.
Belə ki, həmin dələduzlar tətbiq edilən xüsusi gizli sosial kiberüsullar vasitəsilə məlumatsız əsasən yaşlı nəsli nümayəndələrinə zəng etməklə özlərini hansısa bankın əməkdaşı kimi təqdim edirlər. Daha sonra onlar müxtəlif həvəsləndirici təkliflər vasitəsi ilə vətəndaşların bank kartlarındakı məlumatları, yəni, kart sahibinin adı, soyadı, kartın son istifadə tarixi, CVV nömrəsi və təsdiq kodunu əldə etməyə çalışırlar. Həmin məlumatları əldə edəndən sonra dələduzlar tərəfindən kart sahiblərinin xəbərləri belə olmadan onların hesablarından onlayn ödənişlər həyata keçirilir və vəsaitlər mənimsənilir.
Daxili İşlər Nazirliyi vətəndaşları kibercinayətkarlıq halları ilə üzləşəcəkləri təqdirdə DİN-in "102" Xidməti-Zəng Mərkəzinə məlumat vermələrini xahiş edirik.

# “Sülhməramlıların” Qarabağdakı hərəkətləri xalqımızda qəzəb doğurur

## Mütəllim Rəhimli: “Onların bu məramının adı sülh deyil, bölgədə yeni gərginlik ocağı yaratmaqdır”



“İşğal altındakı torpaqlarımızda Azərbaycan dövlətinin qanunlarının işləməsi, orada rəsmi Bakının təyin etdiyi qurumların və şəxslərin fəaliyyət göstərməsinə çalışmalıyıq”

***Son dövrlər Rusiya sülhməramlılarının Qarabağdakı fəaliyyəti birmənalı qarşılanmır. Xüsusiylə də ermənilərin marağında olan proseslərin baş verməsi, sülhməramlı missiyaya zidd olan addımların atılması bir Azərbaycan tərəfindən ciddi narazılıqla qarşılanır. “Unikal” qəzetinə müsahibə verən Ədalət Partiyasının sədr müavini, politoloq Mütəllim Rəhimli mühüm məqamlara toxunub.***

***-Mütəllim bəy, son dövrlər rus sülhməramlılarının davranışı Azərbaycan tərəfini ciddi narahat etməkdədir. Rusiyanın bu davranışını necə dəyərləndirirsiniz?***

- Azərbaycan tərəfi ifadəsi burada çox ümumi şəkildə işlədilir. Ona görə də bu anlayışa aydınlıq gətirmək lazımdır. Rusiya qoşunlarının Qarabağda yerləşdirilməsi fikrinə qarşı Azərbaycan xalqı olub, Azərbaycan iqtidarı isə buna rəsmi şəkildə icazə verib və həmçinin, bunu qələbə kimi təqdim edib. Ona görə də düşünürəm ki, “sülhməramlıların” Qarabağdakı nəzarət edilməyən hərəkətləri xalqımızda qəzəb doğurur. Hakimiyyətin isə davranışları göstərir ki, baş verənlər onu o qədər də narahat etmir. Əks halda ilkin olaraq “sülhməramlıların” Konstitusiyamıza zidd olaraq ərazimizdə yerləşdirilməsinə icazə verməzdi. Heç olmasa, onların səlahiyyətlərini müəyyən edərdi, fəaliyyətinin Azərbaycan dövlətinin qanunlarının tanıdığı çərçivəyə salınmasını təmin edərdi. Ancaq bunların heç birini etmədi. Ona görə də ruslar bundan daha da ilhamlanaraq özlərini Qarabağın ağası kimi aparırlar. Azərbaycan dövlətinin rəsmilərinin səlahiyyəti çatmır ki, rusların yerləşdiyi ərazilərə onların icazəsi olmadan keçsin. Faktiki olaraq, nə deyilməsindən asılı olmayaraq Qarabağın işğal altında qalan hissəsi Rusiyanın nəzarəti altına düşüb. Orada rəsmi dilin də rus dili elan edilməsi təsadüfi deyil.

***-Xocalı aeroportunda hərbi paradın keçirilməsi məsələsi də ciddi narazılıqla qarşılanıb...***

-Bəli. Xüsusilə, Qarabağda rusların hərbi parad keçirmək niyyəti də Azərbaycana güc nümayişi və mesajıdır. Bundan başqa onlar nə etməlidirlər ki, hakimiyyət başa düşsün ki, Qarabağı öz əli ilə sinidə aparıb ruslara verdi.

Necə ola bilər ki, sülhməramlılar nəzarət etdikləri bölgədə yerləşən separatçı-terrorçularla görüşür, onların hakimiyyətini tanıyır. Bu məramın adı sülh deyil, bölgədə yeni gərginlik ocağı yaratmaqdır.

***-Rəsmi Bakı da bu istiqamətdə narahatlığını bu və ya digər formada ifadə edir. Azərbaycan tərəfinin üzərinə düşən nədir, nə etmək olar?***

- İqtidarın ifadə tərzi Rusiyanın hərəkətlərinə etiraz təəssüratı yaratmır. Bu əslində daxili auditoriyanı sakitləşdirməyə yönəlib. Çünki getdikcə xalqımızda anti-rusiya əhval-ruhiyyəsi güclənir. Cəmiyyət başa düşür ki, ruslar Qarabağa, deyildiyi kimi, xoş məramla gəlməyib.

İsgəndər-M raketlərinin Azərbaycana atılması əvvəllər hətta bizim rəsmi şəxslər tərəfindən təkzib edilsə də, indi bu məsələnin qaldırılması və həm də çox qorxaqcasına Rusiya tərəfindən sorğu edilməsi qınanılmalıdır. Hakimiyyət bütün situasiyalarda və məsələlərdə xalqa güvənməlidir.

Artıq kifayət qədər böyük səhv buraxıldığından Azərbaycan tərəfi ilkin olaraq bunu etiraf etməlidir. Və onun tədricən aradan qaldırılmasına çalışmalıdır. İlk növbədə 10 noyabr razılaşmasının şərtlərinin yerinə yetirilməsi tələb olunmalıdır. İşğal altındakı torpaqlarımızı azad etmək reallığının əlimizdən alınmasına rəğmən heç olmasa, bu razılaşmanın şərtlərinin yerinə yetirilməsinə nail olmalıyıq. Qazaxın işğal altındakı 6 kəndinin azad edilməsi, Kəlbəcərə Ağdərə istiqamətindən gediş-gəlişin təmin olunması, Naxçıvanla avtomobil və qatar yolunun, digər kommunikasiya əlaqələrinin yaradılması reallaşdırılmalıdır. Xüsusilə, sülhməramlıların sayının və səlahiyyətlərinin Azərbaycan tərəfindən nəzarət altına alınmasına nail olunmalıdır. İşğal altındakı torpaqlarımızda Azərbaycan dövlətinin qanunlarının işləməsi, orada rəsmi Bakının təyin etdiyi qurumların və şəxslərin fəaliyyət göstərməsinə çalışmalıyıq. Həm də bunu çox tezliklə etmək lazımdır. Əks halda orada ermənilərin kütləvi şəkildə məskunlaşdırılması, rusların möhkəmlənməsi və idarəçiliyin tamamilə əllərinə alınmasını müşahidə edəcəyik.

Rusların nəzarəti altında Naxçıvanla yaradılacaq kommunikasiya əlaqələri Qarabağla bağlı hər hansı güzəştə getməyə əsas ola bilməz. Bu aldadıcı bir fənddir və rusların hiyləgərliyindən başqa bir şey deyil.

***-Türkiyə ilə münasibətlərin dərinləşməsi istiqamətində hansı addımları atmaq olar?***

- Azərbaycan-Türkiyə xalqları arasındakı əlaqələr iqtidarların rəyinə görə yaranmır. Bu təbii prosesdir. Nə azərbaycanlılar türkləri özlərinə yad hesab etmirlər, nə də türklər azərbaycanlıları. Ortada bir güvən, xalqların qarşılıqlı etimadı var. Lakin iqtidarlar bu əlaqələrə ya müəyyən zaman mane ola, ya da onu sürətləndirə bilər. Hər iki ölkənin indiki təmsilçilərinə baxdıqda mən Azərbaycanla Türkiyənin xalqımızın arzu etdiyi yaxınlaşmanı reallığa çevirəcəyinə o qədər də inanmıram. Çünki hakimiyyətlərin məramı, missiyası, mahiyyətləri arasındakı fərqi görürəm. Bu isə tamamilə nikbin fikir söyləməyə imkan vermir.

Düşünürəm ki, Türkiyə ilə əlaqələrin daha da yaxşılaşdırılması üçün ilk növbədə xalqın fikrini nəzərə almaq lazımdır. Təəssüf ki, indi dövlət siyasəti xalqın düşüncəsinə yaxın deyil. Buna görə də demokratik seçkiləri təmin etmək, partiyaların siyasi proseslərdə həqiqi iştirakını təmin etmək lazımdır.

Hazırda iki ölkə arasında gediş-gəliş kifayət qədər sadələşdirilib. Bu çox yaxşıdır. Lakin bir şəxsin sərhəddən 300 dollardan artıq yük keçirməsinə gömrük rüsumunun tətbiq edilməsi nə deməkdir. Bu faktiki olaraq şəxsiyyət vəsiqələri ilə Türkiyəyə getmək qərarının effektivliyinin üstündən xətt çəkmək deyilmi... Gömrük rüsumunun tətbiq edilməsindənsə, hesab edirəm ki, pasportla gediş-gəlişin qalması bizim vətəndaşları daha çox razı salardı.

Sanki iqtidar Türkiyə ilə əlaqələrin daha da dərinləşməsini istəmir. Üzdə bunu arzuladığını ifadə etsə də, hərəkətlərinin onun əleyhinə yönəldiyi görünür.

***-Reallıq odur ki, Rusiya bəzən hər hansı beynəlxalq hüquq prinsiplərini düşünmədən pozucu addımlar atır. Sizə elə gəlmir ki, Azərbaycan tərəfinin təmkin və ehtiyatlılığı buna görədir?***

- Düşünürəm ki, hakimiyyətin Rusiyaya qarşı susqunluğuna bu amil səbəb deyil. Azərbaycan hakimiyyəti hər zaman Rusiyanı özünün tərəfdaşı, müttəfiqi görüb və bunu da dəfələrlə bəyan edib. Çox güman ki, alınan qərarlar birlikdə qəbul edilir. Çünki indiyədək rəsmi Bakının Rusiyanın əleyhinə yönələn hər hansı addımını müşahidə etməmişik.

Amma bununla belə Rusiya ölkəmizə həmişə yuxarıdan aşağı baxıb, Azərbaycanı özünə bərabər tərəfdaş görməyib. Bunun günahını Rusiyada yox, özümüzdə axtarmalıyıq ki, niyə buna şərait yaratmışıq.

Bir də təhqir və məğlubiyyətə susmaq təmkin və ehtiyatlılıq sayıla bilməz.

***- Məsələ odur ki, Qərbdən də Azərbaycana qarşı hər hansı dəstək hiss olunmur. Özünü demokratik mərkəz kimi qələmə verənlərin istər müharibə dövrü, istər ondan əvvəl və sonrakı dövrdə hər hansı ədalətli mövqeyinin şahidi olmadıq...***

- Bu heç də belə deyil və aparılan təbliğatın yaratdığı görüntüdür. 44 günlük müharibə dövründə BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə qətnamənin qəbul olunmasına qarşı 5 daimi üzvdən yalnız Qərb ölkəsi olan Böyük Britaniya çıxıb. Almaniya demək olar ki, müharibə dövründə müəyyən qədər dəstəyini ifadə edib. Biz bütün günahları başqalarının üzərinə yıxmaqla heç nəyə nail ola bilmərik. Qərb ölkələrindən kifayət qədər dəstək ala bilməməyimizin səbəblərini özümüzdə, xüsusilə aparılan xarici siyasətdə, diaspor və lobbi fəaliyyətində axtarmaq lazımdır. Bir də əksər hallarda Azərbaycan və Ermənistana münasibətdə ölkələrin insan hüquq və azadlıqlarına münasibəti, demokratik mühiti əsas rol oynayıb və diqqət mərkəzində olub. Tənqidlərin hədəfində avtoritar rejimlər, demokratiyaya qarşı qəsdlər və bundan doğan xalqa qarşı münasibət durub.

***Z.Məmmədli***

# Məmurların "tender korrupsiyası"nda "yeni dalğa"

## Belə davam etsə, bizi qarşıda daha bir neçə yüksək vəzifəli şəxsin həbsi gözləyir

***"Xərclərə nəzarət gücləndirilməlidir. Xüsusilə dövlət xətti ilə alınan mallara da çox ciddi nəzarət olmalıdır. Çünki bəzi hallarda orada şişirtmələr də olur. Bəzi hallarda dövlət təşkilatları, necə deyərlər, öz rahatlıqları üçün lazım olmayan bir çox mal-material, əşya alırlar. Belə hallar var. Xaricdən avtomobillər, texnika, mebel alırlar. Buna son qoyulmalıdır. Biz bütün bu yersiz xərclərə son qoymalıyıq". Bunu Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş videoformat müşavirəsində danışarkən demişdi.***



Ölkə başçısı qeyd edilən nöqsanlarla bağlı maliyyə naziri Samir Şərifova tapşırıqlar vermişdi: "Xərclərə nəzarət daha güclü olmalıdır və baxın, bəlkə də hansısa əlavə bir nəzarət mexanizmi də tətbiq edilə bilər".

Prezidentin dövlət satınalmalarında şəffaflıqla bağlı sərt tələbləri ölkədə "tender korrupsiyası"na son qoyulması ilə bağlı məmurlara açıq mesaj kimi qəbul edilmişdi. Düzdür, son zamanlar İqtisadiyyat Nazirliyinin tenderlərlə bağlı nəzarətinin gücləndiyi hiss olunur, lakin bu dövlət satınalmalarında şəffaflığın tam təmin edildiyini söyləmək üçün ciddi əsas yaratmır. Hələ də bir sıra məmurlar bu satınalmalara büdcə vəsaitlərinin havaya sovrulmasının "asan yolu" kimi baxmağa davam edirlər.

Elə bir neçə gün öncə iqtisadçı deputat Vüqar Bayramovun söylədikləri də bunu təsdiqləyir. "Dövlət qurumlarında aparılan araşdırmalarda vəsaitlərin təyinatı üzrə işlədilməməsi və ya xərclərin şişirdilməsi hallarına rast gəlinir" deyən Bayramov əlavə etmişdi ki, vəsaitlərin qeyri-səmərəli işlənməsinin qarşısını almaq üçün yeni qanun layihəsi işlənilməlidir: "Əksər hallarda dövlət qurumlarının keçirdiyi tenderlərin rəqabətsiz olması müşahidə olunur. Hesablama Palatasının 2019-cu ildəki rəyinə əsasən tenderlərin cəmi 25 faizi rəqabətli olub. Bu, o deməkdir ki, keçirilən tenderlərin hər 4-dən 3-ü rəqabətsiz tenderlərdir. Müşahidələr göstərir ki, bəzi dövlət qurumlarında tenderlərin qalibi eyni şirkətlər olur. Bu səbəbdən dövlət vəsaitinin səmərəli istifadəsi üçün dövlət satınalamalarında və tenderlərin keçirilməsində rəqabətin gücləndirilməsinə ehtiyac var. Satınalmalarla bağlı qanun yenidən işlənilməli və rəqabətli tenderlər həyata keçirilməlidir. Eyni zamanda elektron tender və dövlət satınalmalarının icbari xarakter alması vacibdir. Çünki bir mənbədən satınalma və rəqabətsiz tenderlər bir sıra dövlət qurumlarında vəsaitlərin səmərəli xərclənməməsinə gətirib çıxarır".

Deputatın sözlərindən anlaşılan odur ki, bir sıra məmurlar nə ölkə rəhbərliyinin tövsiyə və xəbərdarlıqlarından nəticə çıxarırlar, nə də hüquqmühafizə orqanlarının keçirdiyi əməliyyatlardan... Belə məmurlar hələ də "tender korrupsiyası"ndan ikiəlli yapışıblar, dövlət satınalmalarını özlərinin, yaxınlarının zənginləşməsi üçün vasitə olaraq görməkdə davam edirlər. Bu isə o deməkdir ki, biz qarşıdakı dövrdə daha bir neçə yüksək vəzifəli şəxslərin "qara maskalılar" tərəfindən elə kabinetlərindəcə qandallanmasının şahidi ola bilərik. Çünki indiyədək ayrı-ayrı icra hakimiyyətlərində, nazirliklərdə həyata keçirilən xüsusi əməliyyatlara rəvac verən başlıca amillərdən biri məhz "tender korrupsiyası" idi.

"Unikal" qəzeti olaraq indiyədək dövlət satınalmalarındakı qaranlıq məqamlarla bağlı dəfələrlə ətraflı bəhs etmiş və ölkədə korrupsiyanın kökünün kəsilməsinə həm də dövlət satınalmalarından başlamağın zəruriliyinə toxunmuşuq. Bildirmişik ki, Azərbaycanda faktiki olaraq "tender korrupsiyası" formalaşıb. Bu isə məmurların büdcə vəsaitlərinə xalqın və dövlətin malı kimi yox, "dədə malı" kimi baxmasının nişanəsidir. Onlar üçün büdcə pullarının bircə təyinatı var: talançılıq! Nəyin bahasına olur olsun, həmin pulları havaya sovurmaq, öz ciblərinə yönəltmək istəyirlər, nəticədə isə bunun fərqli hiylələrini fikirləşib tapırlar. Həmin hiylələrin bir çoxu elə müəmmalı, şübhəli tenderlər vasitəsilə həyata keçirilir. Bu günədək həbs olunan icra başçılarının, ayrı-ayrı nazirliklərini rəhbər şəxslərinin cinayət dosyelərindən çıxan nəticə budur.

Bir halda ki, bəziləri hələ də belə qanunsuz əməlləri davam etdirirlər, deməli, onda yeni məmur həbsləri də qaçılmazdır. Bizdən söyləmək, gerisini qoy dövlət satınalmalarını korrupsiya predmetinə çevirən vəzifəlilər düşünsün!

***Sənan Mirzə***

# Gömrük Komitəsi narkotik əməliyyatı ilə bağlı məlumat yaydı

***Gömrükçülər daha bir uğurlu əməliyyat nəticəsində 122 kiloqramdan artıq narkotik vasitə - heroinin ölkənin gömrük sərhədindən qaçaqmalçılıq yolu ilə keçirilməsinə cəhdin qarşısını alıblar.***




DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən Unikal.org-a verilən məlumata görə, Cənub Ərazi Baş Gömrük İdarəsi Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında Astara gömrük postunda Azərbaycan ərazisindən tranzit keçməklə Rusiya Federasiyasına alma yükü aparan İran İslam Respublikası vətəndaşı Nasiri Sadaghiani Peymanın idarə etdiyi "Scania" markalı "39AA901/39AA902" dövlət qeydiyyat nişanlı yük avtomobili saxlanılıb və gömrük yoxlaması tətbiq edilib.

Baxış zamanı kinoloji xidmət iti yük nəqliyyat vasitəsinin müxtəlif hissələrinə, eləcə də dartıcının kabinəsinə reaksiya verib. Yoxlama zamanı nəqliyyat vasitəsinin gizli saxlanc yerlərindən müxtəlif rəngli 153 kapsula aşkar edilib.

Xidməti it xüsusi işarə və hərəkətlərlə yük maşının qoşqusunun arxa hissəsinə, iki taylı qapısına da reaksiya verib. Bundan sonra yük nəqliyyat vasitəsi Astara gömrük postunun inzibati ərazisində olan stasionar rentgen qurğusundan keçirilib. Bu zaman qapıların hər iki divarının arasında yerləşən, qoşqunun temperaturunun tənzimlənməsi məqsədi ilə zavod konstruksiyasında nəzərdə tutulmuş penoplast kütləsinin çıxarıldığı və yerinə qapının hündürlüyü boyunca qara rəngli parçaya bükülən 12 ədəd bağlamada hər birində 17-21 ədəd olmaqla, ümumilikdə 240 ədəd yapışqanlı lentlə sarınmış, düzbucaqlı formalı bağlamalar aşkarlanıb. Baxış zamanı bağlamalarda 122 kq 480 qram açıq-qəhvəyi rəngli narkotik vasitə-heroinin qablaşdırıldığı məlum olub.

Faktla bağlı araşdırma aparılır.



# "Zəngəzur bizim üçün tarixi Vətəndir" - Deputat

***"Azərbaycan Prezidenti Zəngəzur dəhlizi haqqında danışarkən istər tarixi, istərsə də indiki strateji maraqlarımız kontekstində mühüm fikirlər səsləndirdi. Bir daha aydın oldu ki, bu dəhliz bizim üçün mühüm siyasi-iqtisadi əhəmiyyət daşımaqla bütövlükdə regionda inteqrasiya proseslərini stimullaşdıracaq".***

Bunu Azvision.az -a açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib. Deputat deyib ki, əgər Ermənistan bunu istəsə, daha asan həll edəcəyik, istəməsə zorla həll etməli olacağıq.

"Ermənistan buna mane olmaq fikrinə düşəcəksə, Azərbaycan bu strateji kommunikasiyanın bərpa edilməsi üçün istənilən vasitədən, o cümlədən zor tətbiqetmə vasitəsindən də istifadə edəcək. Bu qətiyyətli fikir Ermənistanda mövcud olan revanşist və radikal qruplara verilən mesaj olmaqla həm də onları bu və ya digər platformada dəstəkəyən ayrı-ayrı güc mərkəzlərinə verilən mesaj idi. Çünki bəzi regional və regiondankənar güclər var ki, onlar Cənubi Qafqazda sabitiliyin və əməkdaşlığın bərqərar olunmasında maraqlı deyillər. Hər kəsə aydındır ki, Zəngəzur bizim üçün sadəcə kommunikasiyaların keçəcəyi dəhliz deyil, həm də tarixi Vətəndir. Belə olduqda bu coğrafiyanın milli və tarixi yaddaşımızda mühüm mənəvi tərəfi də var. Məhz bu tarixi reallıqdan çıxış edərək Prezident İlham Əliyev bildirdi ki, Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Yəni Zəngəzur hər nə qədər bizim dünənimizdirsə, bir o qədər də sabahımızdır. Sadəcə 101 il əvvəl ermənilərə verilib. Nə üçün və necə verildiyi də hamıya bəllidir".

Hikmət Babaoğlunun sözlərinə görə, biz 101 il bundan əvvəlki tariximizə qayıdaraq tarixi yaddaşımızı yeniləməli və Zəngəzurun nə üçün ermənilərə verildiyini bütün dünyaya çatdırmalıyıq: "Qoy hamı bilsin ki, ölkəmiz öz milli davasında nə qədər haqlıdır və Azərbaycan Prezidenti həmişə öz çıxışlarında "biz Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına izin verməyəcəyik" deyəndə nəyi nəzərdə tuturdu. Yəni indiki Ermənistan 101 il əvvəl elə Zəngəzur da daxil olmaqla İrəvan, Göyçə, Zəngibasar, Vedibasar, Lori-Pəmbək (Ağbaba-Şörəyil), Dərələyəz və s. kimi tarixi Azərbaycan torpaqlarında yaradılıb. Doğrudan da, Prezident Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına izin vermədi. Qarabağımız işğaldan qurtarıldı. Ancaq birinci erməni dövlətinə münasibətdə tarixi gerçəklik fakt olaraq qalmaqdadır. Ona görə də, Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaq. Bu milli tarixi yaddaşımıza səsləniş və mövcud reallığın obyektiv əsaslarda ədalətli qiymətləndirilməsi idi".

## Hüseynbala Mirələmov bu vəzifəsindən azad edildi

***"Biz də bu hadisə barədə görüntüləri əksəriyyət kimi sosial şəbəkələrdə gördük və izlədik".***

Unikal.org xəbər verir ki, bunu "Report"a açıqlamasında Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) İctimaiyyətlə Əlaqələr və Marketinq Departamentinin direktoru Bəhruz Nəzərov ADNSU-nun kafedra müdiri Hüseynbala Mirələmovla bağlı yayılan görüntülərə münasibət bildirərkən deyib.

Sözçü bildirib ki, görüntülər yayıldıqdan sonra Hüseynbala Mirələmov ADNSU-nun Qaz Neft Mühəndisliyi fakültəsinin kafedra müdiri vəzifəsindən azad edilib:

"O, bu gün səhər öz ərizəsi ilə işdən azad olunub".

Qeyd edək ki, ötən gün sabiq deputat H.Mirələmovun sosial şəbəkələrdə qeyri-etik videosu yayılıb. O, ADNSU-da Qaz Neft Mühəndisliyi fakültəsinin kafedra müdiri idi. Həmin görüntülərin də ADNSU-nun Elmi Şurasının onlayn iclası zamanı çəkildiyi bildirilir.

## Nazir şəhid qardaşlarına vəzifə verdi

***Daxili işlər orqanlarında yeni kadr təyinatları olub.***

Unikal.org xəbər verir ki, bu barədə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Əmrə əsasən, vətən müharibəsi şəhidlərinin ailə üzvləri Toğrul Xosrovzadə, Elvin Məmmədov və Əli Şirəliyev Abşeron Rayon Polis İdarəsi Post-Patrul Xidmətinin polis nəfəri vəzifələrinə təyinat alıblar.

## Bu deputatlar YAP-dakı vəzifələrini itirəcəklər

***Yeni Azərbaycan Partiyasının son qurultayında nizamnaməyə və strukturlarında edilən dəyişikliklərdən sonra bir sıra şəxslər də vəzifələrini itirəcəklər.***

Unikal.org-un əldə etdiyi məlumata görə, dəyişiklikdən sonra YAP-da iki vəzifə daşımaq mümkün olmayacaq. Bu səbəbdən də yaxın günlərdə YAP Gəncə şəhər təşkilatının sədri Naqif Həmzəyev, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı və Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov buradakı vəzifələrindən azad olunacaqlar.

Belə ki, adıçəkilən şəxslər qurultayda Təftiş komissiyasının üzvləri seçildikləri üçün ikinci vəzifə daşıya bilməzlər. Ona görə də üç deputat YAP təşkilat sədri vəzifələrindən çıxarılırlar.

***Murad İbrahimli***

## Vaksinasiya ilə bağlı daha 2 nəfər işdən çıxarıldı

***Vaksinasiya prosesində yol verilən neqativ halların qarşısını almaq məqsədi ilə aidiyyəti qurumlar tərəfindən araşdırmalar davam etdirilib. Araşdırmaların nəticəsi olaraq Bakı şəhəri üzrə 14 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında çalışan 2 nəfər işdən kənarlaşdırılıb və onların əmək müqavilələrinə xitam verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb. Qeyd edilib ki, faktla bağlı hüquq-mühafizə orqanlarına müraciət edilib. Xatırladaq ki, bundan əvvəl vaksinasiya prosesini pozan ümumilikdə 12 nəfər işdən kənarlaşdırılıb və onların əmək müqavilələrinə xitam verilib. Göstərilmiş halların qarşısını almaq məqsədi ilə araşdırmalar davam edir və hüquq pozuntusuna yol verən tibb işçiləri haqqında müvafiq tədbirlər görüləcək.

## Həbs olunan sədr ötən il vəzifəsindən azad olunub

***"Məmmədov Oruc Nüsrət oğlunun həbs edilməsi ilə bağlı yayılan məlumatlarda onun 7 saylı Tibbi-Sosial Ekspert Komissiyasının sədri kimi qeyd edilməsi doğru deyil".***

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyindən məlumat verilib. "Çünki Oruc Məmmədov əmək funksiyalarının icrasında yol verdiyi kobud nöqsanlara görə hələ 26 oktyabr 2020-ci il tarixində Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndi ilə həmin komissiyanın sədri vəzifəsindən azad edilib. 6 ay əvvəl vəzifəsindən azad edilmiş şəxsin yenə də həmin vəzifədə olması kimi qələmə verilməsi əsassızdır və yolverilməzdir", - məlumatda bildirilib.

# Fazil Məmmədova bəd sürpriz

### Sabiq nazirin ətrafında nə baş verir?

***Son günlər Azərbaycanın sabiq vergilər naziri Fazil Məmmədovun adı yenidən ilginc xəbərlərin "baş qəhrəmanına" çevrilməkdədir. Son olaraq sabiq nazirin kürəkəni Əbdül Əliyevin İngiltərənin paytaxtı Londondakı çoxmilyonluq maliyyə əməliyyatları gündəmə gəlib.***



Həmin məlumatlarda qeyd olunur ki, bu ilin əvvəlində o, adıçəkilən şəhərdə dəyəri milyonlarla funt-sterlinq olan daha 4 bahalı əmlak müqaviləsi bağlayıb". Müqavilələr Britaniya paytaxtının işgüzar səmtlərindən olan Windmill Streetdəki 37, 38, 39 və 40 saylı binaları əhatə edir.

Bildirildiyinə görə, Əbdül Əliyev hələ ötən ilin iyulunda Nottinqem şəhərinin mərkəzində də dəyəri 1.5 milyon funt sterlinq (3,3 milyon manat) olan binanı (Long Row küçəsi 50, 51 və 52) satın alıb. Ötən ilin sentyabrında isə o, Britaniya paytaxtının Ladbroke Grove 131 və Ladbroke Crescent 25A ünvanlarında 1 milyon funt-sterlinq dəyərləndirilən iki binanı, eləcə də Croydon, Thornton Heath, Parchmore Road 84a ünvanında keçmiş əyləncə mərkəzinin (Leisure Centre) ərazisinə sahib olub.

Bu məlumatın ardından F.Məmmədovun hüquqi məsuliyyətə cəlb edilməsinin mümkünlüyü barədə fikirlər səslənməyə başlanıb. Məsələn, hüquqşünas Əkrəm Həsənov mətbuata açıqlamasında deyib ki, keçmiş "vergilər şefi" və onun kimi məmurlar mövqeyindən sui-istifadə edərək, dövlət vəsaitləri, korrupsiya hesabına böyük miqdarda pul toplayıblar. Sitat: "Fazil Məmmədovun vergilər naziri postunda olduğu dönəmdə ölkədəki vergi sistemi onun varlanmasına xidmət edirdi. Bu da öz növbəsində iqtisadiyyatda passivlik yaratmışdı. Azərbaycanda toplanan ilkin kapitalın böyük bir qismi xarici ölkələrə aparılıb... İndi bu şəxslərin qarşısında iki yol var: ya mənşəyini sübut edə bilmədikləri əmlakların əllərindən alınması ilə razılaşmaq, ya da Azərbaycana dövləti ilə razılığa gələrək, müəyyən hissəsini dövlətə verməklə varidatını ölkəyə gətirmək. Bu zaman Azərbaycan dövləti həmin vardövlətin mənşəyini təsdiqləyən sənəd verir, sahibləri isə onun bir hissəsini dövlətə verməklə, qalanını gətirib burada müxtəlif sahələrə yatırırlar". Hüquqşünas deyib ki, sabiq nazirlərin oğurladıqlarını geri qaytarmaq üçün seçilən alternativ yollardan biri də onların həbsindən keçir.

"Unikal"ın əldə etdiyi məlumata görə isə F.Məmmədov hazırda dəmir barmaqlıqlar ardına məhkum edilən yüksək vəzifəli şəxslərdən biri olmalı imiş. Lakin sabiq "vergilər şefi"nin postundan kənarlaşdırıldıqdan az sonra səhhəti kəskin pisləşib və bu da onun barəsində sərt qərarların qəbul edilməsini əngəlləyib. "Yadınızdadırsa, ötən ilin yayında adı Fazil Məmmədovun pullarını ofşorlara daşımaqda hallanan Qafar Qurbanovla bağlı ilginc iddialar yayılmışdı. Həmin vaxt bildirilirdi ki, o, Azərbaycan hüquq mühafizə orqanlarının ölkəyə gəlib ifadə verməsi ilə bağlı tələbini pozur. Sabiq nazirə məxsus "Atabank"ın Müşahidə Şurasının üzvü postunu tutmuş Qurbanov öz dəbdəbəli həyatı ilə Fazil Məmmədovdan geri qalmırdı. Bu qədər sərvətə necə yiyələndiyi isə müzakirə mövzusudur. Belə görünür o, keçmiş "vergilər şefi"nin pullarını yalnız ofşorlara yox, xeyli dərəcədə də öz cibinə daşıyıb" deyən qaynaqların sözlərinə görə "Atabank"ın bağlanmasına gətirib çıxaran başlıca səbəb də ortada ciddi maliyyə oyunlarının yaşanmasıdır: "Bir sözlə, sabiq Vergilər nazirini də cinayət məsuliyyətinə cəlb etmək üçün kifayət qədər səbəblər var. Lakin onun sağlamlığındakı problemlər həmin səbəbləri müəyyən dərəcədə arxa plana keçirib. Ancaq Fazil müəllimin adının son vaxtlar yenidən gündəmə gəlməsi təsadüfə bənzəmir. İstisna deyil ki, cənab Məmmədov da bir çox digər sabiqlər kimi hüquq qarşısında cavab verməli məcburiyyətində qalsın".

Qaynaqlarımız daha bir maraqlı məqama da diqqət çəkiblər. Onlar keçmiş "vergilər şefi"nin öz müavini Namiq Əliyevlə qudalığını da xatırladırlar: "Namiq Əliyev bu ilin əvvəllərində Londonda çoxmilyonluq əməliyyatlar aparan Əbdül Əliyevin atasıdır. Yəni mümkündür ki, Fazil Məmmədovla bərabər, onun qudası barədə də müəyyən addımların atılmasına şahidlik edək. Hətta sağlamlığı səbəbindən sabiq nazirin adı arxa plana keçsə, müavininin adı ön plana çıxa bilər".

İstənilən halda qarşıdakı dövrdə F.Məmmədov və yaxın ətrafı barədə digər sabiqlər kimi hansısa hüquqi addımlar atılsa, bu, heç kimi şübhələndirməməlidir.

***Toğrul Əliyev***

# Sahil Babayevdan narazılıqlar güclənir

## Əmək və Əhalinin Sosial Müdafiəsi naziri niyə hədəfdədir?

***Son vaxtlar mətbuatda və sosial şəbəkələrdə adı neqativ mənada ən çox hallanan nazir Sahil Babayevdir desək, yanılmarıq. Əmək və Əhalinin Sosial müdafiəsi nazirini ictimai tənqid hədəfinə çevirən səbəblər isə kifayət qədər müxtəlifdir.***

Bu sırada ilk pilləni əlillik dərəcəsinin verilməsi ilə bağlı yaranmış xaotik vəziyyət dayanır. Daha doğrusu, Babayevin nazirliyi bir tərəfdən əlillikləri ucdantutma ləğv edir, digər tərəfdən yeni əlilliklərin təyin edilməsində ədalətsizliyə yol verir. Məsələn, bir gözünü tamamilə itirmiş, digər gözü isə 70-80 faiz görmədən məhrum olan vətəndaşa üçüncü qrup əlillik təyin olunur. Yaxud, bir ayağını itirmiş vətəndaş ikinci qrup əlillik imkanından məhrum edilir. Xüsusilə sosial şəbəkələrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) nəzdindəki TSEK-lərin absurd qərarları barədə ilginc nümunələrə rast gəlmək mümkündür. Və açığı, həmin nümunələrlə tanış olduqda cənab Babayevin tənqid hədəfinə çevrilməsinin səbəbini anlamaq elə də çətin deyil.



Son zamanlar ƏƏSMN və onun rəhbərliyi ilə bağlı artan narazılıqların başqa bir səbəbi isə Vətən müharibəsi qazilərinə göstərilən münasibətdir. Məsələn, bir neçə gün öncə qolundan amputasiya olunan, aldığı zədələrdən gözünü itirmək üzrə olan qazi Saleh Həsənli ona təyin edilən əlillik dərəcəsinin adekvat olmadığını demişdi. S.Həsənli həmçinin ona mənzil verilmədiyini və işlə təmin olunmadığını bildirmişdi. İddia etmişdi ki, əslində müharibədə aldığı zədələr sənədlərində qeyd olunandan daha artıqdır.

Qazinin şikayəti ictimailəşəndən sonra cəmiyyətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə qarşı qınaqlar bir az da gücləndi. Görünən odur ki, həm qazinin narazılığını ictimailəşdirməsi, həm də bundan sonra ƏƏSMN-lə bağlı kəskin tənqidlərin səslənməsi Sahil Babayevin nazirliyini hərəkətə keçirib. Və nazirlik qazinin problemini həll etmək qərarına gəlib. Halbuki elə etmək olardı ki, başından bəri belə problem yaşanmasın, böyüyüb ictimai narazılıq səviyyəsinə qalxmasın. Lakin təəssüf ki, biz ƏƏSMN ilə bağlı oxşar hallara son zamanlar mütəmadi rast gəlirik və bu az qala həmin qurum üçün neqativ ənənəyə çevrilib. Babayevin nazirliyi yanlış qərarlarla gərəksiz yerə cəmiyyətdə, mətbuatda müzakirələrə, mübahisələrə səbəb olur. Halbuki başından bəri məsələlərdə ədalətli mövqe sərgiləmək mümkündür. Belədə əbəs yerə dartışmalar da yaranmaz, cəmiyyətin onsuz da gərgin olan əsəbləri tarıma çəkilməz, hətta kimlərinsə eks nazir, hazırda həbsdə olan Səlim Müslümova "rəhmət oxumasına" rəvac verilməz...

Unutmayaq ki, xüsusilə əlilliyin verilməsində yaranan vəziyyət hətta deputatlar tərəfindən də gündəmə gətirilib. Məsələn, ötən ilin payızında millət vəkili Vüqar Bayramov demişdi ki, əlilliyin təyinatındakı çətinliklərlə bağlı ünvanlanan sorğular bizə ən çox edilən müraciətlər sırasındadır. Prosesin elektronlaşmasına baxmayaraq, müraciətlərin böyük əksəriyyətinə imtina cavabı verilir. O bildirmişdi ki,poliklinka vətəndaşın forma 88 adlı göndərişini elektron sistemə daxil edir və maraqlıdır ki, əksər hallarda vətəndaşın təqdim etdiyi məlumatların doğru olmaması barədə ona bildiriş göndərilir. Bayramov əlillikdən imtina ilə bağlı parlamentdə təmsil etdiyi Füzuli rayonundan konkret rəqəmlər göstərmiş, ardınca isə əlavə eləmişdi: "Demək olar ki, bütün digər rayonlarımızda da oxşar vəziyyətdir. Əslində, əlilliyin verilməsi ilə bağlı elektron müraciət heç də kütləvi imtina üzərində qurulmamalıdır. Bizə olan müraciətlər də göstərir ki, əlillik almaq hüququ olan xeyli sayda vətəndaşlarımız, təəssüf ki, süni maneələr səbəbindən əlillik dərəcəsi ala bilmirlər. Tibbi-sosial ekspert komissiyaları tərəfindən qiymətləndirmənin və eləcə də kütləvi imtinanın hansı meyarlar ilə həyata keçirildiyi bəlli deyil. O baxımdan, bizə ünvanlanan soğuları nəzərə alaraq, bu məsələnin araşdırılması və əlillik almaq hüququ olan vətəndaşlarımıza bu imkanların verilməsini təmin edəcək şəffaf və ədalətli mexanizmin formalaşdırılması ilə bağlı Nazirlər Kabinetinə müraciət edirəm".

Lakin belə görünür, deputatın həmin müraciəti bir növ "havada qalıb". Çünki son aylarda əlillikdən imtina prosesinin daha da güclən-diyi barədə məlumatlar gəlir. Yuxarıda da vurğuladığımız kimi, bu sıraya Vətən müharibəsi qazi-ləri barədə ədalətsiz qərarların əlavə edilməsi Sahil Babayevin nazirliyinə yönəlik tənqidlərin, irad və ittihamların rəngini bir az da tündləşdirib.

Ən qəribəsi isə odur ki, ƏƏSMN-nin bu irad və ittihamlara cavabı ümumi sözlərdən ibarətdir, qurumun özünü haqlı çıxarmaq üçün göstərdiyi "əsaslar" çoxluq tərəfindən inandırıcı qəbul edilmir. Belədə Babayev və komandası dərindən düşünməlidir: "Biz harada, nədə səhvə yol veririk?"

Bir maraqlı məqamı da vurğulamaqda fayda var. ƏƏSMN-nin adı uzun illər mətbuatda, ictimaiyyətdə rüşvət və korrupsiya sözlərinin sinonimi kimi səslənib. Nəticədə nazirliyin nüfuzu ciddi şəkildə zədələnib. Ədalət naminə qeyd edək ki, Sahil Babayevin təyinatından sonra bu qurumun imicində pozitiv dəyişikliklər baş verdi. Lakin son zamanlar ƏƏSMN-lə bağlı artan narazılıqlar, giley-güzarlar, şikayətlər, tənqidlər, irad və ittihamlar "keçmişə qayıdış" kimi dəyərləndirilə bilər. Belə davam etsə, biz ƏƏSMN haqqında yenə də yalnız neqativ fikirlər eşidəcək, mənfi rəylər oxuyacağıq.

Fikrimizcə, Sahil müəllim və ətrafı bu məqam üzərində də dərindən düşünməlidir...

*Sənan Mirzə*



# Mikayıl Cabbarov Müşahidə Şurasının ikinci iclasını keçirdi

***Aprelin 21-də Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının (MŞ) ikinci iclası keçirilib.***

Fonddan Unikal.org-a bildiriblər ki, onlayn formatda keçirilən iclasda Müşahidə Şurasının sədri, Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov, Şuranın üzvləri - ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin sədri Tural Gəncəliyev, Milli Məclisin deputatı Fatma Yıldırım, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla və Azərbaycanın Xalq artisti Alim Qasımov, həmçinin Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev iştirak ediblər.

Prezident İlham Əliyevin Fondun qarşısında qoyduğu vəzifələri müzakirə edən tədbir iştirakçıları işğaldan azad olunmuş ərazilərin dirçəlişinə töhfə verə biləcək dayanıqlı bir təşkilatın yaradılmasının zəruriliyini xüsusilə vurğulayıblar.

Fondun aparatının təşkilati strukturunun və ştat cədvəlinin layihələri, habelə Fondun Fəaliyyət Planı, Əməliyyat büdcəsi və 2021-ci il üçün İnvestisiya Siyasəti Müşahidə Şurasının üzvlərinin diqqətinə çatdırılıb.

Bu sənədlərin əsasını dövlətimizin başçısının fərmanlarından irəli gələn tapşırıqlar, eləcə də qarşıya qoyulan vəzifələrin öhdəsindən gələ biləcək dayanıqlı bir təşkilatın yaradılması məqsədilə istifadə edilən müasir korporativ idarəetmə prinsipləri təşkil edib.

Sonra Müşahidə Şurası üzvlərinin səsverməsi keçirilib və təqdim olunan sənədlərin layihələri təsdiqlənib.

Müşahidə Şurasının üzvlərinə, həmçinin Qarabağın erməni işğalı nəticəsində dəymiş ziyana dair 10 mindən çox fotosübutun yer aldığı "Karabakh Center" portalının layihəsi də təqdim edilib.

Burada dağıdılmış yüzlərlə binanın, Azərbaycan xalqının tarixi, memarlıq, dini, mədəni abidələrinin fotoşəkilləri, eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin tarixi və səbəbləri ilə bağlı eksklüziv materiallar yerləşdirilib. Portala mütəmadi olaraq yeni materiallar əlavə ediləcək.

Portal Azərbaycan və rus dillərində hazırlanıb, ingilisdilli versiyası üzərində iş isə yaxın zamanda yekunlaşdırılacaq. Gələcəkdə bütün materialların bir neçə digər dilə tərcüməsi və internetdə, xüsusilə də sosial şəbəkələrdə fəal şəkildə təbliği planlaşdırılır.

Portal yaxın vaxtlarda ictimaiyyətə təqdim ediləcək.

"Karabakh Center" portalı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondu tərəfindən yaradılıb.

İclas iştirakçıları Prezident İlham Əliyevin Fərmanına əsasən Qarabağ Dirçəliş Fondunun yaradılmasının xüsusi əhəmiyyətini bir daha vurğulayıb və Fondun qarşısında qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcəyinə əminliklərini ifadə ediblər.

*Famil*



## “Bu il Ramazan ayı bizim üçün Zəfər ayıdır” - Allahşükür Paşazadə

***“Bu il Ramazan ayı bizim üçün həm də Qarabağ torpaqlarımızın azad olunması ilə əlaqədar Zəfər ayıdır. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə əsgərlərimizin, hərbçilərimizin şücaəti ilə torpaqlarımızı işğaldan azad etdik”.***

Unikal.org xəbər verir ki, bu fikirləri Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə QMİ-nin ”114 TV” internet televiziyasına müsahibəsində deyib.

Şeyxülislam vurğulayıb ki, torpaqlarımız 30 illik əsarətdən azad olunub: “Baxmayaraq ki, həmin ərazilərdə olan bir çox məbədlərimiz, məscidlərimiz, hətta sinaqoq və kilsələr dağıdılaraq yerlə-yeksan edilib. Bu da erməni vandalizminin bizim torpaqlarımızda yaratdığı mənzərədir. Biz əlbəttə, həmin yerləri başqa dinin nümayəndləri ilə birlikdə ziyarət etdik. Dini məbədlərimizdə haram heyvanların saxlanılması islamofobiyaya, islama və İslam dininə və azərbaycanlılara olan münasibət idi. Dünya ictimaiyyəti bütün bunları bilməli və həqiqətləri dünya ictiamiyyətinə çatdırmağı bacarmalıyıq”.

## Təhsil nazirin müşaviri Mirələmovun müdafiəsinə qalxdı

***Ötən gün sosial şəbəkələrdə Yeni Azərbaycan Partiyasının Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmovun biabırçı görüntüləri yayılıb.***



Görüntülər sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Əksər istifadəçilər sabiq millət vəkilinin bu hərəkətini qınayıb.

“Unikal” xəbər verir ki, sözügedən görüntülərin yayılmasına Təhsil nazirinin müşaviri də münasibət bildirib. O, sosial şəbəkə hesabında sabiq deputatın bu çirkin əməlinə haqq qazandırıb: “Ölkədə hamı əxlaqlı imiş, bir o kişidən başqa”.

# Koronavirus xəstələrindən rüşvət alan şəbəkə ifşa olundu

## “Yeni klinika”nın direktoru, FHN-nin Tibb Mərkəzinin Modul Tipli Hospitalının baş həkimi həbs olundu

***“Yeni klinika” tibb müəssisənin direktorunun qanunsuz əməlləri ifşa edilib. Bu barədə “Unikal”a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.***

Koronavirus pandemiyasının qlobal problem olaraq davam etdiyi hazırki dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən çevik və sistemli tədbirlər nəticəsində əhalinin bu infeksiyanın törətdiyi fəsadlardan qorunması ən üst səviyyədə təmin olunmaqla, qısa zaman kəsiyində çoxsaylı ixtisaslaşmış səhiyyə ocaqları, laboratoriya və tibbi istehsal müəssisələri istifadəyə verilmiş, əksər dünya ölkələrindən fərqli olaraq müxtəlif növ effektiv vaksinasiya vasitələri idxal edilərək əhalinin vaksinasiya prosesininin uğurla tətbiqinə başlanılmış, habelə digər bu kimi insan sağlamlığının qorunmasına xidmət edən proqram xarakterli addımlar atılıb.

Eyni zamanda yoluxucu xəstəliyin geniş yayıldığı dövrdə yaranmış təbii narahatlıq və çaşqınlıqdan sui-istifadə edərək vətəndaşların haqlı narazılığına səbəb olan, bununla da dövlətin pandemiyaya qarşı geniş mübarizə siyasətinə kölgə salan bəzi vəzifəli şəxslərə, habelə onların yaratdıqları korrupsiya şəbəkələrinə də rast gəlinir ki, bu cür neqativ hallara qarşı da prokurorluq orqanları tərəfindən kompleks mübarizə tədbirləri görülməkdədir.

Belə ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumat əsasında həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Yeni klinika Publik Hüquqi Şəxsin direktoru Abbasov Pərviz Akif oğlunun qurumun digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olub koronavirus xəstələrinin özünün rəhbəri olduğu tibb müəssisəsində yerləşdirilməsi müqabilində onların yaxınlarından müxtəlif məbləğlərdə pul vəsaitinin rüşvət qismində yığılaraq sonradan öz aralarında bölünməsinə dair əvvəlcədən ümumi razılaşma əldə etməsinə, həmin razılaşmaya uyğun olaraq öz tanışları olan Hüseynov Əvəz Ənvər oğlu, Mirzəyev Samir Qənaət oğlu və Əliyeva Vüsalə Firidun qızı vasitəsi ilə ayrı-ayrı koronavirus xəstələrinin “Yeni klinika” tibb müəssisəsində stasionar müalicə alması üçün yerləşdirilməsi müqabilində onların yaxınlarından hər xəstənin yerləşdirilməsi üçün 3000-3500 manat məbləğində pul vəsaitini alaraq aralarında bölüb şəxsi ehtiyaclarına sərf etməsinə, pul vəsaitlərini aldıqdan sonra verdiyi göstərişlə xəstələrin sözügedən tibb müəssisəsinə qəbul edilməsini təmin etməsinə əsaslı şübhələr müəyyən olunmuşdur.

Cinayət işi üzrə toplanmış sübutlarla Pərviz Abbasova Cinayət Məcəlləsinin 311.3.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələri ilə ittiham elan olunmuş, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Habelə, qeyd edilən qanunsuz əməllərin törədilməsində Pərviz Abbasova köməkçilik etmələrinə əsaslı şübhələr müəyyən olunmuş Əvəz Hüseynov və Vüsalə Əliyeva həmin məcəllənin 32.5,311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət almada köməkçilik) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə, barələrində həbslə bağlı olmayan başqa qətimkan tədbiri seçilmiş, Samir Mirzəyev isə eyni qanunsuz əməllərin törədilməsinə görə şübhəli şəxs qismində tutulmuşdur.



Hazırda cinayət işi üzrə qeyd olunan eyni xarakterli digər qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan pozuntularla üzləşən vətəndaşlara Baş Prokurorluğun 961 nömrəli “Çağrı Mərkəzi”nə və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin “161-Qaynar xətt” əlaqə mərkəzinə məlumat vermələrini tövsiyə edir.

Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin Modul Tipli Hospitalının baş həkiminin qanunsuz əməlləri ifşa edilib. Bu barədə Unikal.org-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, dünyada və ölkəmizdə koronavirus xəstəliyinin geniş yayıldığı dövrdə əhalinin pandemiyaya qarşı mübarizə istiqamətində həyata keçirilən müfəssəl dövlət siyasətinə və bu sahədə mövcud olan qanunvericiliyə zidd olaraq öz qanunsuz əməlləri ilə əhalinin sağlamlığını təhdid altına alan vəzifəli şəxslərə, habelə onların yaratdıqları korrupsiya şəbəkələrinə qarşı prokurorluq orqanları tərəfindən təxirəsalınmaz hüquqi tədbirlərin görülməsi davam etdirilir.

Belə ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumat əsasında həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin Modul Tipli Hospitalının baş həkimi Ağayev İmran Əli Ağa oğlunun qeyri-rəsmi olaraq köməkçiləri olan həmin müəssisənin qeydiyyatçıları Orucov Qulu İlqar oğlu və İmanlı Taleh Mövlamerdi oğlu ilə qabaqcadan əlbir olub koronavirus xəstələrinin rəhbəri olduğu tibb müəssisəsində yerləşdirilməsi, eləcə də, müalicə alan xəstələrin daha yüksək səviyyəli tibbi və sair təminatla təchiz edilmələri müqabilində müxtəlif məbləğlərdə pul vəsaitinin rüşvət qismində yığılaraq sonradan öz aralarında bölünməsinə dair əvvəlcədən qarşılıqlı şəkildə ümumi razılıq əldə etməsinə, həmin razılaşmaya uyğun olaraq xəstələrin həmin hospitala salınması, hospitalın “VİP korpus”u hesab edilən 15-ci korpusunda qəbul edilməklə yerləşdirilməsi və digər bu kimi üstünlüklər əldə etmələrinə görə hər xəstədən sonuncular vasitəsilə müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində alıb aralarında bölməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Həmin faktlarla əlaqədar başlanmış cinayət işi üzrə toplanmış sübutlarla İmran Ağayev və Taleh İmanlıya Cinayət Məcəlləsinin 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) və digər maddələri ilə ittiham elan edilməklə, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmiş, Qulu Orucov isə eyni qanunsuz əməllərin törədilməsinə görə şübhəli şəxs qismində tutulmuşdur.

Hazırda cinayət işi üzrə qeyd olunan eyni xarakterli digər qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu pandemiyanın davam etdiyi bu mürəkkəb şəraitdə yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə və profilaktika tədbirlərində iştirak edən tibb işçilərinin gərgin və fədakar əməyini yüksək qiymətləndirməklə, xidməti səlahiyyətlərinin icrası zamanı ölkə rəhbərliyi və aidiyyəti qurumlar tərəfindən bu sahədə həyata keçirilən tədbirlərə kölgə salmamağa və qanunsuz əməllərə yol verməməyə çağırır.

Unikal.org-un isə əldə etdiyi məlumata görə, İmran Ağayev Fövqəladə Hallar nazirinin müavini general-leytenant Faiq Tağızadənin qohumudur.

***H.İsgəndərov***

# Azərbaycandakı“5-ci kalon”nun nümayəndələri neytrallaşdırılmalıdır

## Partiya sədri hesab edir ki, bunun üçün Türkiyənin FETO əməliyyatında həyata keçrdiyi təcrübədən istifadə edilməlidir

***Özünün təcavüzkar, qəsbkar siyasəti müqabilində beynəlxalq aləmdən güclü əks tədbirlər görməyən Rusiya, beynəlxalq hüquq normalarının əksinə olaraq Ukraynaya, eləcə də "sülhməramlı " adı altında Azərbaycana, qarşı misli görünməmiş demarşını davam etdirməkdədir.***

Hələ 7 il bundan əvvəl V.Putinin Avrasiya layihəsinin təşəbbüskarlarından və ilhamvericilərindən biri olan, Rusiya Federasiyası Dövlət Dumasının yanında ekspert şurasının üzvü Aleksandr Dudin dövlətlərarası münasibətlərdə yol verilməz hesab edilə biləcək sensasion bəyanatla çıxış edib Krım hadisələrində Azərbaycanın tutduğu mövqeyə görə onu hədələyərək demişdi ki: "Azərbaycan Saakaşvili və Kiyev xuntası kimi hərəkət edib, Rusiyanın əleyhinə çıxıb və biz bunun nə ilə nəticələndiyini görmüşükgAzərbaycan gözlənilmədən bizi satıb və bu bizim tərəfimizdən qiymətləndirilibg Biz susacağıqmı? Əlbətdə yox. Onlar özlərini məhv etmək yolu ilə gedirlərg Azərbaycanda talış, ləzgi və digər amillər var də və Azərbaycan onların ciddiliyini təsəvvürünə gətirmir".

Bu barədə fikirlərini "Unikal" qəzeti ilə bölüşən Təkamül Partiyasının sədri Teyyub Qənioğlu deyib ki, Rusiyada müstəqil siyasət yürüdən Azərbaycanı cəzalandırmaq planı cızan, onu reallaşdırmaq üçün fürsət gözləyən quzğunlar var və onlar öz planlarını həyata keçirmək üçün fürsət gözləyirlər, ölkəmizdə etnik zəmində qarşıdurmalar yaratmaq istəyindən əl çəkmək istəmirlər: "Bu quzğunlar



"digər amillər də var" deyəndə yəqin Azərbaycanda mövcud olan və son zamanlar fəallaşan "beşinci kalonu" nəzərdə tuturlar. Təəsüf ki, ölkəmizdə "xilaskar XII Qızıl Ordunu" gözləyənlər hələ də var. Azərbaycanda rusiyapərəst siyasi qüvvələrin mövcudluğunu, SSRİ-nin saxlanmasına, müstəqilliyimizin əleyhinə səs verənlərin, 20 yanvarda Sovet Ordusunu ölkəmizə dəvət edənlərin hələ də həyatda olduğunu, onların yüksək vəzifələr tutduğunu, Milli Məclisdə təmsil olunduğunu unutmaq olmaz! "Sülhməramlı" adı altında Azərbaycan ərazisinə soxulub torpaqlarımızın bir hissəsini işğal edən, Azərbaycanın süveren hüquqlarını köbud sürətdə pozaraq və orada faktiki olaraq özünü bu torpaqların sahibi kimi aparan Rusiya, A.Duqinin 7 il bundan əvvəl açıqsaçıq dediyi kimi "susmur", Azərbaycanı cəzalandırmaq üçün "sülhməramlı" adı altinda erməni kartından gün-bol istifadə edir. Rusiya 10 noyabr 2020-ci ildə imzalanmış üçtərfli sazişin müddəaların kobud şəkildə pozaraq nəinki erməni silahlı qüvvələrinin işğal edilmiş ərazilərimizdən çıxarılması istiqamətində heç bir addım atmır, əksinə onların toparlanmasına gen-bol "yardım" edir, işğalın davam etdirlməsi üçün Ermənistanı ruhlandırır! Rusiyanın bu təcavüzkar mövqeyindən ilham alan Paşinyan Ermənistan parlamentində çıxışı zamanı bəyan edib ki: "Ermənistan Dağlıq Qarabağ ərazisinin işğaldan tam azad edilməsi və sərhədlərinin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti daxilində bərpa olunması məsələsini qaldırmalıdır". Paşinyanın bu istəyini "gözündə qoymaq üçün" Rusiyanın "sülhmərmalı" adı altında Azərbaycanın süveren hüquqularının pozulmasına son qoyması, üçtərfli sazişin müddəalarına əməl etməsi qəti şəkildə tələb edilməlidir! Bununla yanaş, Rusiyanın məqsədlərinin reallaşmasına çalışan və Azərbaycanın hakimiyyət strukturlarında geniş təmsil olunan "5-ci kalan"nun neytrallaşması istiqamətində ciddi tədbirlər görülməli, onlar hakimiyyət strukturlarından kənarlaşdırılmalı və layiqli cəzalarını almalıdırlar! Bunun reallaşdırılması üçün Türkiyənin FETO əməliyyatında həyata keçrdiyi təcrübədən istifadə edilməlidir. Azərbaycanımızın dövlət mənfeyi bunu qəti şəkildə tələb edir".

***Z.Məmmədli***

# Azərbaycanda yeni mərkəz yaradıldı - Nazirlər Kabinetindən QƏRAR

***Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi yaradılıb.***

Unikal.org xəbər verir ki, Nazirlər Kabineti bununla bağlı müvafiq qərar verib.

Müəyyən edilib ki, Mərkəz elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılması, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artması və tətbiqi xarakter daşıması üçün texnologiyaların transferini və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılmasını həyata keçirən, innovativ inkişafın, o cümlədən startap layihələrin dəstəklənməsinə xidmət edən, elmi tədqiqatların nəticələrinin kommersiya və qeyri-kommersiya məqsədilə istifadəsi üçün transferinə, həmçinin bu nəticələrdən gəlir əldə etməyə yönəldilən, müştərilərə texnologiyaların və layihələrin hədəf bazarlarına çıxarılması xidmətlərinin göstərilməsində, bu sahədə fəaliyyətin əlaqələndirilməsində iştirak edən publik hüquqi şəxsdir.

Mərkəzin təsisçilərinin səlahiyyətlərinin bölgüsü "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin




yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 aprel tarixli 1308 nömrəli Fərmanının 3-cü hissəsinə uyğun olaraq həyata keçirilir.

Əqli Mülkiyyət Agentliyinə bu qərardan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Yeni sədr ilk videokonfransını keçirdi

***Aprelin 19-da Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılovun rəhbərliyi və tabeli idarələrin iştirakı ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən sahə qarşısında qoyulmuş vəzifələrin icrası və suvarma mövsümünə hazırlıqla bağlı videokonfrans keçirilib.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin nümayəndəsi Dilqəm



Şərifovun Unikal.org-a verdiyi məlumata görə, "Azmelsutəsərrüfat" ASC-nin sədri Zaur Mikayılovun rəhbərliyi və struktur vahidlərinin iştirakı ilə keçirilən iclasda cənab Prezident tərəfindən meliorasiya və su təsərrüfatı ilə bağlı qarşıya qoyulmuş vəzifələrin və tapşırıqların icrası, vegetasiya suvarma mövsümünə başlanılması ilə əlaqədar konkiret tapşırıqlar verilmiş və fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.



# YPX avtomobilləri gizlənərək sürücüləri cərimələyir? - DYP-dən açıqlama

***Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) yol-patrul xidməti əməkdaşlarının patrul avtomobillərini görünməyən yerlərdə dayandıraraq cərimələməsi ilə bağlı yayılan məlumatlara münasibət bildirib.***

BDYPİ-dən Unikal.org-a verilən məlumata görə, son vaxtlar bəzi şəxslər sosial şəbəkələrdə yol-patrul xidməti əməkdaşlarının patrul avtomobillərini görünməyən yerlərdə dayandıraraq qayda pozuntularını aşkar etmələrindən narazılıq edirlər:

"Görünür məsələyə bu şəkildə yanaşanlar DYP-nin əsas funksiyalarından xəbərsizdir.

Belə ki, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununa, eləcə də DYP-nin xidməti fəaliyyətini nizamlayan normativ hüquqi aktların tələblərinə əsasən, yol hərəkətinə nəzarəti həyata keçirən DYP əməkdaşlarının vəzifəsi xidmət apardığı yol sahəsində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər görmək, qayda pozuntularını vaxtında aşkar edib təqsirkar şəxsləri inzibati məsuliyyətə cəlb etmək və bu kimi qabaqlayıcı tədbirlərlə baş verə biləcək ağır yol-nəqliyyat hadisələrinin qarşısını almaqdır.

Odur ki, patrul avtomobillərindəki xüsusi texniki vasitələrin köməyi ilə inzibati xəta hadisələrinin aşkar edilməsi də yol-patrul xidməti əməkdaşlarının vəzifə borcudur. Eyni zamanda, yollarda hərəkətin təhlükəsizliyi baxımından bütün sürücülərin qaydalara riayət etməsi məhz onların özləri və avtomobildə daşıdıqları sərnişinlərin həyat və sağlamlıqlarının qorunması üçün olduqca vacibdir".

# Naxçıvan əhalisinin sayı artdı

***Naxçıvan Muxtar Respublikasında əhalinin sayı artıb.***

"Unikal" xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatında bildirilib.

Qeyd olunub ki, əhalinin sayı bir il öncəyə nisbətdə 1,7 min nəfər artaraq 1 mart 2021-ci il tarixə 461,8 min nəfər olub. Əhali artımının təmin olunmasında yeni doğulanlar və müsbət miqrasiya ilə yanaşı, insanların uzunömürlü yaşaması da mühüm rol oynayır.



## Hulusi Akardan Ermənistana çağırış

***"Tarixə faktlara əsaslanan yanaşma ilə həqiqətən maraqlananlar, ABŞ-ın Vaşinqtondakı Milli Arxivlər və Qeydlər Agentliyində (NARA) general Harbordun məruzəsini tapa bilərlər. Hesabatın surətləri o vaxt Ağ Evə və Senata göndərilib".***

APA-nın xəbərinə görə, bu fikirlər Türkiyənin milli müdafiə naziri Hulusi Akar ABŞ-ın "RealClearDefense" jurnalında 1915-ci il hadisələrinə dair çap olunan məqaləsində bildirib.

Türkiyəli nazir xatırladıb ki, hazırkı Prezident Rəcəb Tayyib Ərdoğan 2005-ci ildə (Ərdoğan 2005-ci ildə Türkiyənin Baş naziri olub-red.) Ermənistan Prezidentinə məktub göndərərək tarixçi-alimlərdən ibarət birgə komissiyanın yaradılmasını təklif edib.

"Bu komissiya tədqiqatlarını Türkiyə, Ermənistan və digər üçüncü ölkələrin arxivlərində aparmalı və nəticələri beynəlxalq ictimaiyyətə təqdim etməli idilər. Məsələni akademik şəkildə araşdırmış biri olaraq bu təklifin hələ də qüvvədə olduğunu söyləməkdən məmnunam. Amma təəssüf ki, Türkiyə bu təklifə hələ bir cavab ala bilməyib və Ermənistan öz arxivlərini açmayıb.

Bəlkə də Ermənistan rəhbərləri Türkiyənin Ermənistana göndərdiyi mesajları dinləyə bilər. Əgər onlar sülhə investisiya qoymağı seçsələr, bütün region üçün siyasi və iqtisadi dividentlər yüksək olacaq. Türkiyə ABŞ kimi müttəfiqləri də daxil olmaqla, üçüncü ölkələrin bu yeni yanaşmanın reallaşmasına kömək etmələrini və ya tarixi bir mübahisəni siyasiləşdirmək cəhdlərindən çəkinmələrini istərdi", - deyə H. Akar vurğulayıb.

## Vaksinasiya ilə bağlı qanunsuzluq edən daha 2 şəxs işdən çıxarıldı

***Vaksinasiya prosesində yol verilən neqativ halların qarşısını almaq məqsədi ilə aidiyyəti qurumlar tərəfindən araşdırmalar davam etdirilib. Araşdırmaların nəticəsi olaraq Bakı şəhəri üzrə 14 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında çalışan 2 nəfər işdən kənarlaşdırılıb və onların əmək müqavilələrinə xitam verilib.***

Unikal.org xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb.

Qeyd edilib ki, faktla bağlı hüquq-mühafizə orqanlarına müraciət edilib.

Xatırladaq ki, bundan əvvəl vaksinasiya prosesini pozan ümumilikdə 12 nəfər işdən kənarlaşdırılıb və onların əmək müqavilələrinə xitam verilib. Göstərilmiş halların qarşısını almaq məqsədi ilə araşdırmalar davam edir və hüquq pozuntusuna yol verən tibb işçiləri haqqında müvafiq tədbirlər görüləcək.

# Evdə müalicə necə aparılmalıdır? - Bilməli olduğumuz vacib məqamlar

***Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının əməkdaşı tibb üzrə fəlsəfə doktoru Vüqar Cavadzadə COVID-19 infeksiyasına qarşı evdə müalicə prosesi ilə bağlı müsahibə verib.***

"Unikal" müsahibəni təqdim edir:

***- Test nəticəsi pozitiv çıxan vətəndaşlar hansı şərtlərdə evdə müalicə oluna bilər?***

- İlk öncə onu qeyd edim ki, PZR testi (polimeraz zəncir reaksiyası) pozitiv olan şəxslər 2 həftə müddətində ev şəraitində özlərini təcrid etməlidirlər. Özünü təcrid etməklə onlar ətrafda olan insanları virusa yoluxdurmur, eyni zamanda xəstəlik inkişaf edərsə onun ağırlaşmasının qarşısını alınır. Xəstəliyi simptomsuz (klinik əlaməti olmayan) keçirən xəstələrdə ev şəraitində həkim nəzarətində olmalıdır. Testi pozitiv çıxan, lakin heç bir yüngül və orta ağır keçirən şəxslər gün ərzində bol maye qəbul etməli, kifayət qədər vitamin və zülalla zəngin qidalarla qidalanmalıdırlar.

Xəstəliyi ağır keçirən şəxslərinin daimi olaraq həkim nəzarəti, laborator müayinələr və oksigenə ehtiyacı olduğu üçün stasionar müalicə olunması zəruridir. Evdə müalicə prinsiplərinə elə riayət olunmalıdır ki, sonradan xəstə ağırlaşıb xəstəxanaya düşməsin.

***- Əgər evdə COVID-19-a yoluxmamış şəxslər varsa onları qorumaq üçün nələrə diqqət etmək lazımdır?***

- Evdə COVID-19-a yoluxmuş şəxs varsa, digər ailə üzvlərini qorumaq məqsədilə yoluxan şəxs digər otaqda yerləşdirilməlidir. Ailə üzvləri hamısı maska taxmalı, yoluxmuş şəxslə kontaktda olmamalı, otaqların havası tez-tez dəyişilməli, ümumi istifadədə olan mətbəx və sanitar qovşağı gündəlik dezinfeksiya edici vasitələrlə təmizlənməlidir. Evdə COVID-19-a yoluxmamış şəxslər varsa onlar qeyd etdiyimiz tədbirlərlə yanaşı, immun sistemin zəifləməsinin qarşısını almaq məqsədilə özlərini soyuqdan qorumalı, kifayət qədər vitaminli və zülalla zəngin olan qidalar qəbul etməlidir.



klinik laborator dəyişikliyi olmayan şəxslərə müalicə təyin edilmir.

***- Evdə müalicə müddəti necə gündür?***

- Hər bir xəstəyə fərdi yanaşılmalıdır. Xəstənin yaşı, yanaşı xəstəliyi, xəstəliyin ağırlıq dərəcəsi və s. kimi şərtlər mütləq nəzərə alınmalıdır. Xəstəliyin ağırlıq dərəcəsindən, yanaşı xəstəliklərdən aslı olaraq müalicə müddəti dəyişilə bilər. Orta hesabla müalicə müddəti 2 həftədir. Ağırlaşmış xəstələrdə bu müddət uzana bilər.

Qeyd etdiyim kimi xəstəliyi simptomsuz keçirən şəxslərə heç bir müalicə təyin edilmir. Bu şəxslər yalnız özlərini ev şəraitində 2 həftə təcrid etməlidir.

Xəstəliyi yüngül keçirənlərə 10-14 gün müddətində yalnız tərkibi vitaminlər və minerallarla zəngin olan polivitaminlər təyin edilə bilər. Xəstəliyi

***- Antibiotik istifadəsi nə zaman təyin edilir?***

- Çox təəssüflə onu qeyd etmək istəyirəm ki, test nəticəsi pozitiv çıxan kimi vətəndaşlarımız müxtəlif qruplardan olan antibiotiklər qəbul edirlər. Bəzi hallarda isə zərurət olmadan ilkin olaraq ehtiyat antibiotiklərdən istifadə edilir. Onu da qeyd edim ki, hər xəstəyə antibiotik təyin edilmir. Ümumiyyətlə antibiotiklər həkim müayinəsindən sonra təyin edilməlidir.

Xəstəliyi simptomsuz və yüngül keçirən şəxslərə antibiotik təyin edilmir. Xəstəliyi orta-ağır keçirənlərə isə antibiotiklər laborator müayinələrin nəticələrinə əsasən təyin edilməlidir. Antibiotiklərin düzgün seçimi üçün antibiotikoqramma aparılmalıdır. Antibiotiklərin gündəlik dozası, təyin olunma müddəti mütləq həkim tərəfindən müəyyən edilməlidir. Bəzən antibiotiklərin təyininə zərurət olmadığı halda xəstələr uzun müddət antibiotiklər qəbul edirlər ki, bu da sonradan ağırlaşmalara səbəb olur.

***- Evdə müalicədə ən çox edilən səhvlər nələrdir? Bəzən xəstələr ağırlaşmış halda xəstəxanaya çatdırılır. Xəstələr niyə ağırlaşır?***

- Əvvəla onu qeyd edim ki, test nəticəsi pozitiv çıxan şəxslər evdə özlərini özbaşına müalicə etməkdənsə, öncə yaşadığı ərazidə yerləşən poliklinika həkimlərinə müraciət etməlidir.

Xəstələrin böyük əksəriyyəti bu gün şablon reseptlərdən istifadə edir, xəstəlikdən sağalan digər şəxslərin istifadə etdikləri dərmanları qəbul edirlər. Həkimə müraciət etmədən ev şəraitində özbaşına ehtiyac olmadan müxtəlif antibiotiklər, antiviral preparatlar, qan durulducu, hormonal və s. kimi preparatlar qəbul edirlər. Bir çox hallarda insanlar ehtiyac olmadığı halda günlərlə vena daxili infuziyalardan istifadə edirlər. Nəticədə xəstəliyin gedişi ev şəraitində ağırlaşır, xəstəni xəstəxanaya köçürməli olurlar.

İnsanların çox hissəsi sanki düşünür ki, virusa yoluxmuş şəxslərin hamısına eyni müalicə aparılır, bütün xəstələrə eyni dərmanlar təyin edilir. Qeyd edim ki, dərmanlar həkim tərəfindən təyin edildə, dərmanların göstəriş və əks-göstərişləri, əlavə təsirləri mütləq nəzərə alınır.

Bəzi hallarda xəstələr həkimlərə yox, tibb bacılarına müraciət edirlər. Tibb bacıları xəstəliyin ağırlıq dərəcəsini qiymətləndirə bilmədən, yanaşı xəstəliklərini nəzərə almadan əsassız yerə göstəriş olmadan müxtəlif preparatları xəstələrə vururlar ki, bu da ağırlaşmalara səbəb olur.

***- Antiviral preparatlar nə dərəcədə effektlidir?***

- Bu gün apteklərdə müxtəlif antiviral preparatlar satılır. İnsanlar bəzən 3-4 antiviral preparatlar alıb qəbul edirlər. Hətta COVID-19 infeksiyasına yoluxmayan insanlar belə bu preparatları alıb qəbul edirlər ki, bu da sonradan müxtəlif fəsadlara yol açır.

Ümumiyyətlə, COVID-19 infeksiyasının müalicəsində effektiv təsir göstərən hər hansı bir antiviral preparat mövcud deyil. Qısaca desək COVID-19 infeksiyasının müalicəsində antiviral preparatların effektivliyi elmi-tədqiqatlarla sübuta yetirilməyib.

COVID-19 infeksiyası dünyada yayılmağa başlayan gündən bir sıra antiviral preparatlar tətbiq edilməyə başladı. Amma zaman keçdikdə klinik laborator nəticələr təhlil edildikdən sonra həmin preparatlar müalicədən çıxarıldı.

# Həkimdən evdə müalicə alan koronavirus xəstələrinə XƏBƏRDARLIQ

***Koronavirusa yoluxmuş şəxslərin çoxu evdə müalicə alır. "Unikal" Baku.ws-ə istinadən xəbər verir ki, Səhiyyə Nazirliyi Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının əməkdaşı tibb üzrə fəlsəfə doktoru Vüqar Cavadzadə həmin şəxslərin necə müalicə olunmasına münasibət bildirib.***

Onun sözlərinə görə, hətta COVID-19 infeksiyasına yoluxmayan insanlar belə antiviral preparatlar alıb qəbul edirlər.

**Həkimin müsahibəsini təqdim edirik:**

Test nəticəsi pozitiv çıxan vətəndaşlar hansı şərtlərdə evdə müalicə oluna bilər?

İlk öncə onu qeyd edim ki, PZR testi (polimeraz zəncir reaksiyası) pozitiv olan şəxslər 2 həftə müddətində ev şəraitində özlərini təcrid etməlidirlər. Özünü təcrid etməklə onlar ətrafda olan insanları virusa yoluxdurmur, eyni zamanda xəstəlik inkişaf edərsə onun ağırlaşmasının qarşısını alınır.

Xəstəliyi simptomsuz (klinik əlaməti olmayan) keçirən xəstələrdə ev şəraitində həkim nəzarətində olmalıdır. Testi pozitiv çıxan, lakin heç bir klinik laborator dəyişikliyi olmayan şəxslərə müalicə təyin edilmir.

Evdə müalicə müddəti neçə gündür?

Hər bir xəstəyə fərdi yanaşılmalıdır. Xəstənin yaşı, yanaşı xəstəliyi, xəstəliyin ağırlıq dərəcəsi və s. kimi şərtlər mütləq nəzərə alınmalıdır. Xəstəliyin ağırlıq dərəcəsindən, yanaşı xəstəliklərdən asılı olaraq müalicə müddəti dəyişilə bilər. Orta hesabla müalicə müddəti 2 həftədir. Ağırlaşmış xəstələrdə bu müddət uzana bilər.

Qeyd etdiyim kimi xəstəliyi simptomsuz keçirən şəxslərə heç bir müalicə təyin edilmir. Bu şəxslər yalnız özlərini ev şəraitində 2 həftə təcrid etməlidir.

Xəstəliyi yüngül keçirənlərə 10-14 gün müddətində yalnız tərkibi vitaminlər və minerallarla zəngin olan polivitaminlər təyin edilə bilər. Xəstəliyi yüngül və orta ağır keçirən şəxslər gün ərzində bol maye qəbul etməli, kifayət qədər vitamin və zülalla zəngin qidalarla qidalanmalıdırlar.

Xəstəliyi ağır keçirən şəxslərinin daimi olaraq həkim nəzarəti, laborator müayinələr və oksigenə ehtiyacı olduğu üçün stasionar müalicə olunması zəruridir.

Evdə müalicə prinsiplərinə elə riayət olunmalıdır ki, sonradan xəstə ağırlaşıb xəstəxanaya düşməsin.

Əgər evdə COVID-19-a yoluxmuş şəxslər varsa onları qorumaq üçün nələrə diqqət etmək lazımdır?

Evdə COVID-19-a yoluxmuş şəxs varsa, digər ailə üzvlərini qorumaq məqsədilə yoluxan şəxs digər otaqda yerləşdirilməlidir.

Ailə üzvləri hamısı maska taxmalı, yoluxmuş şəxslə kontaktda olmamalı, otaqların havası tez-tez dəyişilməli, ümumi istifadədə olan mətbəx və sanitar qovşağı gündəlik dezinfeksiya edici vasitələrlə təmizlənməlidir.

Evdə COVID-19-a yoluxmamış şəxslər varsa onlar qeyd etdiyimiz tədbirlərlə yanaşı, immun sisteminin zəifləməsinin qarşısını almaq məqsədilə özlərini soyuqdan qorumalı, kifayət qədər vitaminli və zülalla zəngin olan qidalar qəbul etməlidir.

Antibiotik istifadəsi nə zaman təyin edilir?

Çox təəssüflə onu qeyd etmək istəyirəm ki, test nəticəsi pozitiv çıxan kimi vətəndaşlarımız müxtəlif qruplardan olan antibiotiklər qəbul edirlər.

Bəzi hallarda isə zərurət olmadan ilkin olaraq ehtiyat antibiotiklərdən istifadə edilir. Onu da qeyd edim ki, hər xəstəyə antibiotik təyin edilmir. Ümumiyyətlə antibiotiklər həkim müayinəsindən sonra təyin edilməlidir.

Xəstəliyi simptomsuz və yüngül keçirən şəxslərə antibiotik təyin edilmir. Xəstəliyi orta-ağır keçirənlərə isə antibiotiklər laborator müayinələrin nəticələrinə əsasən təyin edilməlidir. Antibiotiklərin düzgün seçimi üçün antibiotikoqramma aparılmalıdır.

Antibiotiklərin gündəlik dozası, təyin olunma müddəti mütləq həkim tərəfindən müəyyən edilməlidir. Bəzən antibiotiklərin təyininə zərurət olmadığı halda xəstələr uzun müddət antibiotiklər qəbul edirlər ki, bu da sonradan ağırlaşmalara səbəb olur.

Evdə müalicədə ən çox edilən səhvlər nələrdir? Bəzən xəstələr ağırlaşmış halda xəstəxanaya çatdırılır. Xəstələr niyə ağırlaşır?

Əvvəla onu qeyd edim ki, test nəticəsi pozitiv çıxan şəxslər evdə özlərini özbaşına müalicə etməkdənsə, öncə yaşadığı ərazidə yerləşən poliklinika həkimlərinə müraciət etməlidir.



Xəstələrin böyük əksəriyyəti bu gün şablon reseptlərdən istifadə edir, xəstəlikdən sağalan digər şəxslərin istifadə etdikləri dərmanları qəbul edirlər.

Həkimə müraciət etmədən ev şəraitində özbaşına ehtiyac olmadan müxtəlif antibiotiklər, antiviral preparatlar, qan durulducu, hormonal və s. kimi preparatlar qəbul edirlər.

Bir çox hallarda insanlar ehtiyac olmadığı halda günlərlə vena daxili infuziyalardan istifadə edirlər. Nəticədə xəstəliyin gedişi ev şəraitində ağırlaşır, xəstəni xəstəxanaya köçürməli olurlar.

İnsanların çox hissəsi sanki düşünür ki, virusa yoluxmuş şəxslərin hamısına eyni müalicə aparılır, bütün xəstələrə eyni dərmanlar təyin edilir.

Qeyd edim ki, dərmanlar həkim tərəfindən təyin ediləndə, dərmanların göstəriş və əks-göstərişləri, əlavə təsirləri mütləq nəzərə alınır.

Bəzi hallarda xəstələr həkimlərə yox, tibb bacılarına müraciət edirlər. Tibb bacıları xəstəliyin ağırlıq dərəcəsini qiymətləndirə bilmədən, yanaşı xəstəliklərini nəzərə almadan əsassız yerə göstəriş olmadan müxtəlif preparatları xəstələrə vururlar ki, bu da ağırlaşmalara səbəb olur.

Antiviral preparatlar nə dərəcədə effektlidir?

Bu gün apteklərdə müxtəlif antiviral preparatlar satılır. İnsanlar bəzən 3-4 antiviral preparatlar alıb qəbul edirlər. Hətta COVID-19 infeksiyasına yoluxmayan insanlar belə bu preparatları alıb qəbul edirlər ki, buda sonradan müxtəlif fəsadlara yol açır.

Ümumiyyətlə COVID-19 infeksiyasının müalicəsində effektiv təsir göstərən hər hansı bir antiviral preparat mövcud deyil.

Qısaca desək COVID-19 infeksiyasının müalicəsində antiviral preparatların effektivliyi elmi-tədqiqatlarla sübuta yetirilməyib.

COVID-19 infeksiyası dünyada yayılmağa başlayan gündən bir sıra antiviral preparatlar tətbiq edilməyə başladı. Amma zaman keçdikdə klinik laborator nəticələr təhlil edildikdən sonra həmin preparatlar müalicədən çıxarıldı.

## Hazırkı durum üçüncü dalğanın pik həddidir

***"May ayında ictimai nəqliyyatın fəaliyyətinə qoyulacaq qadağa koronavirusa yoluxma sayına öz təsirini göstərəcək. Bu qadağa effektini tətbiq olunduqdan 15-20 gün sonra göstərəcək".***

"Unikal" xəbər verir ki, bunu "ARB 24"ün "Nə baş verir?" verilişinə açıqlamasında həkim İmran Mirizadə deyib. O bildirib ki, gündəlik yoluxma sayının 2000-3000 civarında olmasını müsbət dinamika kimi dəyərləndirmək olar: "Hazırkı durumu üçüncü dalğanın pik həddi adlandırmaq olar. Ümid edirəm ki, bundan sonrakı rəqəmlər azalmağa doğru gedəcək. Bu dalğada rəqəmlərin belə stabil qalması tətbiq olunan qadağaların nəticəsidir".

Peyvəndlənmə prosesi barədə də danışan həkim qeyd edib ki, bəzi insanlar peyvənd olunmaqdan hansısa səbəblərə görə yayınırlar: "Bəzi vətəndaşların peyvəndə qarşı hələ də fobiyası var. Mən özüm reanimasiyada yatan xəstələrin müalicəsi ilə məşğul oluram. Onlardan ilk soruşduğum məsələ peyvənd olunub-olunmamasıdır. Əksəriyyəti 60 yaşdan yuxarı insanlar olmasına baxmayaraq, onlar peyvəndlərlə bağlı şayiələrə inanaraq vaksinasiya olunmaqdan imtina ediblər".

## Yazlıq əkinlərə görə subsidiya almaq müddəti başa çatır

***Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) yazlıq əkinlərə və meyvə bağlarına görə subsidiya almaq üçün elektron müraciətin formalaşması davam edir. Aprelin 21-dək EKTİS-də 17545 fermer 26161 torpaq sahəsi üzrə yazlıq əkinləri bəyan edib. İndiyədək EKTİS-də ümumilikdə 32828 hektar yazlıq əkin sahəsi bəyan olunub.***

Nazirlikdən Unikal.org-a verilən məlumata görə, yazlıq bitkilərə əsasən pambıq, kartof, şəkər çuğunduru, qarğıdalı, günəbaxan, tərəvəz və bostan bitkiləri daxildir.

Yazlıq əkinlərin və meyvə bağlarının EKTİS-də bəyanı prosesi mayın 31-də başa çatacaq. Pambıq, tütün və şəkər çuğunduru üzrə məhsul subsidiyası almaq istəyən fermerlər də öz əkinlərini bu tarixə kimi mütləq bəyan etməlidir. Meyvə bağı sahibləri 31 mayadək EKTİS-də şəxsi kabinetlərinə daxil olaraq əvvəlki illər bəyan etmiş olduqları bağları barədə məlumatları yeniləməli, yeni bağlar salıblarsa, sistemə daxil etməlidir.

İyun ayından etibarən yazlıq əkinlərlə bağlı monitorinqlərə başlanacaq. Monitorinqlər Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli Fərmanı ilə təsdiqlənmiş Subsidiya qaydalarına uyğun olaraq aparılır. EKTİS-də yerləşdirilmiş məlumatlar bir neçə üsulla monitorinq aparmaqla yoxlanılır. Belə ki, əkin sahələri barədə peykdən alınan məlumatlar, yerində monitorinqlər və elektron sistemdə mövcud olan digər sənədlərin çarpazlaşdırılaraq yoxlanması fermerlərin subsidiya müraciətlərinin doğruluğunu qiymətləndirmək imkanı verir. Məlumatlarda heç bir yanlışlıq olmaması, subsidiya müraciətinin tez təsdiqlənməsinə və ödənişlərin dərhal edilməsinə imkan verir.

Yazlıq əkinlərin monitorinqindən sonra nəticələrə uyğun olaraq iyun-iyul aylarında ödənişlər həyata keçiriləcək.

Xatırladaq ki, 2020-ci ildən başlayaraq kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət subsidiyaları Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi onlayn platforması üzərindən müraciət və təsdiq əsasında, istehsalçıların "Fermer Kartı"na köçürməklə verilir.



## Zelenski iki erməni əsilli iş adamına qarşı sanksiya tətbiq etdi

***Ukrayna Prezidenti Vladimir Zelenskinin imzaladığı fərmanla ölkənin Milli Təhlükəsizlik və Müdafiə Şurasının qaçaqmalçılıqla əlaqəli hüquqi və fiziki şəxslərə dair 15 aprel tarixli qərarı qüvvəyə minib.***

Qərarla 13 ölkə vətəndaşına və 95 şirkətə qarşı qaçaqmalçılığa görə sanksiya tətbiq edilib. Fiziki şəxslərin ikisi Rusiya vətəndaşıdır.

Siyahıya həmçinin, iki erməni əsilli şəxsin də adı daxil edilib. Onlar Araik Amirxanyan və Tiqran Melkonyandır. Ukrayna vətəndaşlığından məhrum edilən Arayik 2019-cu ildə, Ukrayna vətəndaşlarını qanunsuz yollarla Krım üzərindən Rusiyaya keçirdiyi üçün həbs edilmişdi. Eyni zamanda ona qarşı, Ukrayna müəssisələrinin təxminən 20 milyon qrivna (700 min ABŞ dollarından çox) məbləğində əmlakını qanunsuz ələ keçirməsi ittihamı irəli sürülmüşdü.

Digər şəxs - Odessadan olan iş adamı Tiqran Melkonyandır. Onun "Skaylayn" şirkətinə 2018-ci ildə Livandan qaçaqmal yolu ilə siqaret daşınmasına görə cinayət işi açılmışdı. Bir neçə il ərzində Tiqran Melkonyan qaçaqmalçılıq cinayəti üzrə təqib olunub. Fərman Ukrayna Prezidenti Ofisinin rəsmi saytında aprelin 21-də dərc edildiyindən həmin gündən qüvvəyə minib.

## ABŞ dronu Krım səmasında...

***ABŞ Hava Qüvvələrinin "RQ-4B Global Hawk" strateji pilotsuz təyyarəsi Krım üzərində - Rusiya tərəfindən "müvəqqəti təhlükəli" elan olunan hava məkanında kəşfiyyat uçuşu həyata keçirib.***

Bu barədə "İnterfaks" məlumat yayıb. İddiaya görə, Amerika dronu İtaliyanın Siciliya adasındakı hava bazasından qalxıb, Krımın dəniz sərhədinin yaxınlığında - 15 min metr yüksəklikdə və Krasnodar sahilləri boyunca uçub.

Rusiya dünən bu bölgədəki uçuşlara dörd gün məhdudiyyətlər tətbiq edib.

Bundan əvvəl, fevral ayında oxşar bir Amerika pilotsuz təyyarəsinin Donbas yaxınlığında kəşfiyyat apararkən, Rusiya sərhədlərinə doğru uçduğu bildirilmişdi. Pilotsuz təyyarənin həmin ay Donbasa beş dəfə uçduğu deyilmişdi.

## Paşinyana qarşı etiraz aksiyası təşkil edən mer saxlanıldı

***Ermənistan polisi Mehri şəhərinin meri Mxitar Zakaryanı saxlayıb.***

Unikal.org "Sputnik Armeniya"ya istinadən xəbər verir ki, bunu vəkil Qayane Papoyan feysbuk səhifəsində yazıb.

Lakin vəkil merin hansı şəhərdəki polis idarəsinə aparıldığından xəbərsiz olduğunu qeyd edib: "Əvvəlcə Mehridəki polis idarəsinə, sonra Qafana apardıqlarını dedilər. İndi isə onun bir neçə polis avtobusunun müşayiəti ilə Yerevana aparıldığına dair informasiya yayılıb".

Qeyd edək ki, Ermənistan baş naziri Nikol Paşinyan aprelin 21-də Zəngəzur vilayətinin (ermənilər Sünik vilayəti adlandırır) Mehri və Aqarak şəhərlərinə səfər edib. O, yerli tərəfdarları ilə birlikdə həmrəylik yürüşü keçirməyi planlaşdırıbmış. Ancaq tədbirin keçiriləcəyi yerə toplanananlar baş nazirin avtomobilinə və mühafizəçilərə hücum edib, "Nikol rədd ol!", "Nikol satqın!" şüarları səsləndiriblər. Buna görə N.Paşinyan həmin ərazidə çox dayanmadan oranı tərk edib.

# Ukrayna ətrafında mürəkkəb oyun: Azərbaycan nə etməlidir - TƏHLİL

***Rusiya ilə Ukrayna arasında gərginliyin pik həddə olduğu bir məqamda ABŞ prezidenti Co Baydenin Moskva ilə dialoqa həsr olunmuş çıxışı regionda nisbi də olsa, sabitlik yaratdı. Bayden çıxışında rusiyalı həmkarını danışıqlara dəvət etdi və gözləniləndən daha yumşaq sanksiyaları onunla əsaslandırdı ki, Moskva ilə münasibətlərinin yeni səhifədən başlamasını istəyir.***

Bunun ardınca Amerika hərbi gəmilərinin Qara Dənizə girişinin təxirə salınması Ukraynada böyük müharibənin başlanacağı ehtimalını azaltsa da, Ağ evlə Kreml arasında olan fikir ayrılıqlarının tam aradan qalxdığını demək doğru olmaz. Vaşinqton Rusiyada həbs olunan müxalifətçi Aleksey Navalnının taleyindən narahatlığını dilə gətirir və Ukraynaya münasibətdə işğalçı siyasətdən əl çəkməyə çağırırmaqla yanaşı, yeni sanksiyalarla hədələməyi də unutmur. Moskva isə hələ ki, Baydenin Putinlə görüşmək istəyinə müsbət cavab verməyib və öz diplomatlarının Amerikadan çıxarılmasının əvəzində ABŞ səfirini evinə göndərib.

Hadisələrin təhlilindən belə qənaətə gəlmək olar ki, Ukrayna ilə bağlı süni gərginliyin yaradılması əslində Moskvanın Ağ evdəki yeni administrasiya ilə öz maraqlarına uyğun münasibət qurmaq üçün təzyiq vasitəsidir. Baydenin Putini dialoqa dəvət etməsi indiki halda Vaşinqtonun bu təzyiq qarşısında geri çəkildiyinin göstəricisidir, sanksiyalar isə yeni prezidentin seçkiqabağı kampaniya ərzində verdiyi "Rusiyanı cəzalandırmaq" vədini tutduğunu nümayiş etdirmək üçün daxili auditoriyaya hesablanmış addımdır.

Təbii ki, Rusiya bunu anlayır. Amerika səfirinin geri göndərilməsində əsas məqsəd ikitərəfli münasibətlərin yenidən qurulması üçün Moskvanın şərtlərinin Ağ evə çatdırılmasıdır.

Co Baydenin Barak Obama dövründə vitse-prezident vəzifəsində çalışdığını nəzərə alsaq, elə Obama dövrünün siyasi xəttinə sadiq qalacağını ehtimal etmək olar. Bu nöqteyi-nəzərdən, həmçinin, ümumiyyətlə, demokratların xarici siyasətdə aktiv hərbi müdaxilə tərəfdarı olmamalarını əsas gətirərək, deyə bilərik ki, Ukraynada genişmiqyaslı hərbi əməliyyatların başlanacağı az ehtimal olunur.

Ancaq digər tərəfdən, demokratların hakimiyyəti dövrü "məxməri inqilab"larla yadda qaldığı üçün, Putin hökümətinin narahat olmasına kifayət qədər əsas var və müxalifətçi Navalnının həbsi mümkün inqilab ssenarilərinin reallaşmasının qabağını əvvəlcədən almaq məqsədi daşıyır.

Ukraynada müharibə ritorikasının güclənməsində maraqlı olan prezident Zelenski isə Krım və Donbas ərazilərinin azad edilcəyi ilə bağlı bəyanatlar səsləndirməklə, bir tərəfdən düşməkdə olan siyasi reytinqini bərpa edir, digər tərəfdən Rusiyanın mümkün hərbi müdaxiləsindən sığortalanmaq üçün beynəlxalq koalisiyanın yaradılmasına çalışır. Türkiyə prezidenti ilə görüş və Ərdoğanın "Krım platforması"nı dəstəkləməsi Zelenski üçün Rusiyaya qarşı növbəti güclü dəstəkçi qazanması anlamına gəlir.

Təbii ki, Ankara Ukraynanın "ərazi bütövlüyü uğrunda" Rusiya ilə münasibətlərini korlamaq niyyətində deyil və əsas məqsəd yeni geosiyasi oyunda iştirakçı olmaq, Vaşinqtonun özü ilə heblaşmasını təmin etməkdir. Ukrayna ilə imzalanmış sazişlər, Rusiya ilə mövcud münasibət Ankaraya imkan verir ki, mümkün gərginlik yaranacağı halda Kiyevlə Moskva arasında vasitəçilik etsin. "Krım tatarlarının hüquqlarının bərpa edilməsi" istəyi isə Türkiyənin regiona müdaxiləsinə "mənəvi legitimlik" qazandıracaq faktordur.

Azərbaycana gəldikdə isə, prezident İlham Əliyev ölkəmizin Ukrayna kimi ABŞ, Rusiya və Türkiyə arasında çəkişmə predmetinə çevrilməsinə imkan verməmək üçün bütün gərəkli siyasi gedişləri həyata keçirməkdədir. Bu mənada, Azərbaycan üçün ən təhlükəli vəziyyət Moskvanın ABŞ-a təzyiq vasitəsi kimi bölgədəki münaqişəni alovlandırmaq istəyinə düşməsi ola bilər. Rusiya üçün ən təhlükəli məqam isə, Azərbaycanın Ukrayna və Türkiyə ilə birgə ona qarşı hansısa koalisiyada birləşməsi ehtimalıdır.




Prezident İlham Əliyevin Hərbi Qənimətlər Parkının açılışındakı çıxışı zamanı "2005-ci ildə Azərbaycanda "narıncı inqilab" təşkil etmək istəmişdilər. Artıq başlarına narıncı bantlar bağlamışdılar. Narıncı çadırlar gətirilmişdi. Nə idi məqsəd? Satqınları hakimiyyətə gətirmək, onların əli ilə Qarabağı ermənilərə vermək və Azərbaycana rəhbərlik etmək. Mən bunu qoymurdum. Ona görə bəzi xarici paytaxtlarda qərar verildi ki, İlham Əliyevi devirməliyik. O vaxt da "narıncı inqilab" dəbi var idi. Orada-burada inqilablar baş verirdi. Bu inqilabların axırı nə oldu, indi hər kəs görür. Ölkələr bərbad vəziyyətdədir, böhrandan çıxa bilmirlər, artıq 15-17 ildir böhran hökm sürür" fikrini səsləndirməsi, ardınca, ADA universitetində keçirilən beynəlxalq konfransda "Mən ABŞ-ın burada olmalı olduğunu demirəm, lakin yeni administrasiyadan bizə heç bir mesaj daxil olmadı. Administrasiya yanvardan formalaşıb, bu gün apreldir. Cənab Blinken Paşinyana zəng edib, onların nə haqqında danışdıqlarını bilmirəm. Yenə də tarazlıq qorunmamışdır",- deyə çıxışlar etməsi heç də təsadüfi deyildi.

Bu, ilk növbədə Rusiyaya mesajdır. Prezident "xarici paytaxtlarda inqilab ssenarilərinin" hazırlanmasını pisləməklə, bir tərəfdən Rusiya ilə eyni mövqedə olduğunu və Moskvaya qarşı hər hansı koalisiyaya qoşulmayacağını bəyan etməklə yanaşı, eyni zamanda, ABŞ-ın yeni dövlət katibi Blinkenin onunla deyil, Paşinyanla məsləhətləşdiyini dilə gətirməklə, dolayı yolla məhz Yerevanın Vaşinqtonla birlikdə mümkün anti-Rusiya kampaniyalarında iştirakına işarə edir.

***Tofiq Vahid***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Dağlıq Qarabağda saxta "erməni izi"...

## Faiq İsmaylov: "Dağlıq Qarabağ həqiqətlərini dünyaya çatdırarkən bütün bu məqamlar diqqətdə saxlanılmalıdır"

***İşğaldan azad olunmuş şəhər və rayonların, kəndlərin xarabalığa çevrilməsi Ermənistanın işğalçı simasının bariz nümunəsidir. 28 il işğal altında saxladığı torpaqlarda daşı-daş üstündə qoymayan düşmən, bu ərazilərdə yerləşən tarixi abidələrimizə, məscidlərimizə, mədəni abidələrimizə divan tutub.***

Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı ictimai birliyinin sədri Faiq İsmayılov "Unikal"qəzetinə deyib ki, düşmən tarixi abidələrimizə qarşı amansız davranıb. Həmsöhbətimizin sözlərinə görə, Şuşa şəhərində abidələrin monitoringində iştirak edərkən tarixi abidələrimizin aqibəti onu dərindən sarsıdıb. F.İsmayılov bildirir ki, işğal dövründə erməni əsarətində qalmış abidələrin hazırkı vəziyyəti ilə bağlı komissiya yaradılıb. Cenevrə İnsan hüquqları Akademiyasının Beynəlxalq humanitar hüquq və insan hüquqları üzrə elmlər namizədi Azad Məhyəddin oğlu Cəfərli - Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi, komissiyanın sədri təyin edilib. F. İsmayılov düşmənin tarixi abidələrimizə qarşı davranışını vandalizm aktı adlandırır. Deyir ki, əgər bir ölkədə abidələr və tarixi yerlər dağıdılırsa, bu xalqın, millətin varlığını məhv etmə deməkdir: "28 il erməni işğalı və vandalizmi tarixi abidələrimizin məhvini reallaşdırıb. İslam dini və orta əsr Azərbaycan tarixinə aid abidələrin hamısı tamamilə yararsız hala salınıb. Amma Alban tarixinə məxsus olan monastr və abidələr daha acınacaqlı durumdadır. Ermənistan hökuməti, azərbaycanlıların torpaqlarını erməni milləti üçün əbədiləşdirmək və eyni zamanda bu torpaqların erməni millətinə məxsusluğunu "sübut" etmək üçün alban dövrü abidələrin forma və məzmununda dəyişiklik edərək şəkillərini çəkib, beynəlxalq təşkilatları inandırmaq üçün məqsədli şəkildə davamlı təbliğat kampaniyası aparırlar. Azərbaycanın tarixi qələbəsindən sonra, ermənilər Azərbaycan ərazilərində yaratdıqları bu saxta "sübut və dəlillər"in dağıdılacağından qorxuya düşərək, YUNESKO-ya müraciət ünvanlayıblar ki, Azərbaycandakı tarixi xristian dövrü abidələrinin "dağıdılması"nın "qarşısını alın". Əslində



heç bir tarixi dövdə keçmiş Dağlıq Qarabağ və ətraf ərazilərində erməni mədəni- irsinə aid abidə olmayıb".

F. İsmayılovun sözlərinə görə, Ermənilər Azərbaycan xalqına məxsus islam dini dəyərlərini -türbələri, məscidləri, pirləri, ziyarətgahları, qəbirüstü abidələri, qəbristanlıqları dağıdaraq tamamilə məhv ediblər. Birlik sədri deyir ki, 1868-1870-ci illərdə Qarabağ memarlığının aparıcı sənətkarı memar Kərbəlayi Səfi Xan Qarabağinin ucaltdığı Ağdamın cümə məscidi işğaldan sonra çox ciddi dağıntılara məruz qalıb: "Ermənilər məscidin üzərinə benzin tökərək yandırıb, minarələri daxildən tamamilə söküb, tavanı bir neçə yerdən uçurdub, daxili tərtibatı, dizayn və divar yazılarını pozub, hücrələri və yardımçı otaqları dağıdıb, tamamilə yararsız hala salıb. Bəzək əşyaları, texniki avadanlıqları, qurğuları, bərk və yumuşaq avadanlıqları qarət edərək Ermənistana daşıyıblar. Məscidin daxili və xarici divarları üzərində erməni və rus dillərində Azərbaycan xalqına və millətinə qarşı alçaldıcı və təhqiredici ifadələr və sözlər yazılıb. Ermənilər 10 ildən çox bir müddət ərzində məscidin ibadət zalında və yardımçı otaqlarında mal-qara və donuz saxlayıblar, yəni məsciddən uzun illər tövlə kimi istifadə ediblər. Bu ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən çox qəddar bir vəhşilikdir".

F. İsmayılov onu da bildirir ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı itki və təlefatların sırasına memarlıq abidələri, tarixi abidələr, arxeoloji abidələr, incəsənət abidələri, muzeylər, kitablar, əlyazmalar, arxiv fondları da var.

Həmsöhbətimizin sözlərinə görə, düşmən tariximizə divan tutmaqla yanaşı saxtalaşdırma işləri də aparıb. Xocavənd rayonunun, Tuğ kəndinin mərkəzində Qafqaz Albaniyası dövrü memarlığına uyğun IX-X əsrlərdə inşa edilməsi güman edilən məbəd kompleksi erməni mətbuatında erməni kilsəsi kimi təqdim olunur. Ermənilər onlarla belə abidələrimizi öz adlarına çıxmağa çalışıblar: "Xocavənd rayonunun Tuğ kəndindəki Dizaq Məlikliyin binası, Susanlıq (Saruşen) kəndində VII əsrdə inşa edilən bina, yenə həmin kəndin yaxınlığında Qafqaz Albaniyası dövrü abidəsi, (XII-XIII əsrdə inşa edilib), rayonun Hünərli (Sakuri) kəndində XVI əsrdə inşa edilmiş Qafqaz Albaniyası Memarlığı üslubuna uyğun unikal görkəmi ilə diqqət çəkən məbəd saxtalaşdırılıb. Ziyarət dağında XVII əsr Qafqaz Albaniyası dövrü abidəsi, Kəlbəcər rayonunun VIII-IX əsrə aid edilən Xudavəng monastırı və Vəngli kəndi ərazisindəki XIII əsrdə inşa edilmiş Gəncəsər Monastırı, Laçın rayonunun Kosalar kəndindəki Ağoğlan məbədi, Xocalı rayonunun Əsgəran qəsəbəsi yaxınlığında XII əsr Alban dövrü abidəsi də erməni kilsəsi adlandırılır. Şuşa şəhərində 1868-1887-ci illərdə inşa edilmiş , "Qazançı" adlandırılan Rus Provaslav kilsəsi də İşğal dövründə forması dəyişdirilərək erməni kilsəsi kimi təqdim edilir".

Onun sözlərinə görə, ermənilər Qarabağda etnik təmizləmə nəticəsində boş qalan kənd və şəhərlərin ərazilərindəki İslam dini abidələrin xarabalıqları üzərində erməni kilsələri inşa ediblər: "İşğaldan sonra ermənilər Şuşa şəhərində 3, Şuşa- Laçın yolunda, Fətiş bulağı deyilən ərazidə 1, Laçın şəhərində 2, Laçın rayonunun Zabux kəndində 1, Şuşa- Xankəndi yolunun üzərində 2, Xankəndi şəhərində 4, Əsgəran qəsəbəsində 2, Ağdam rayonunun Şahbulaq qəsrinin yanında 1 erməni kilsəsi inşa ediblər. Bundan başqa Laçın rayonu ərazisində 10, Kəlbəcər rayonu ərazisində 7, Qubadlı rayonu ərazisində 3, Zəngilan rayonu ərazisində 2, Cəbrayıl rayonu ərazisində 3, Füzuli rayonu ərazisində 2, Ağdərə, Əsgəran, Hadrut və Xocavənd rayonlarının ərazilərində isə 15 Alban dövrü məbədi təmir edilərək erməni kilsəsi statusu verilib. Beləliklə, Ermənistan hökuməti doğma yurdlarımızda erməni kilsələrinin sayını 58-ə çatdırıb. Bu faktiki olaraq hal-hazırda indiki Ermənistan ərazisində istifadə olunan kilsələrin sayından iki dəfə çoxdur. Bu misli görünməmiş vəhşilik Qarabağın bütün görkəmini dəyişdirir".

Birlik sədri onu da bildirir ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, işğal dövründə inşa edilmiş bütün erməni kilsələri sökülməlidir. Bununla bağlı beynəlxalq ictimaiyyət məlumatlandırılmalı, saxta tarix yaratmaq cəhdi göstərən düşmənin əməlləri ifşa olunmalıdır: "Dağlıq Qarabağ həqiqətlərini dünyaya çatdırarkən bütün bu məqamlar diqqətdə saxlanılmalıdır" deyə F. İsmayılov söyləyir.

Tarixi saxtalaşdırmaqda mahir olan düşmən, Qarabağın onlara məxsus olduğuna beynəlxalq ictimaiyyəti inandırmaq üçün hər yola əl atıb. F. İsmayılovun sözlərinə görə, ermənilər işğal altında saxladıqları ərazilərə üzərində ermənicə yazılar yazılmış daşlar qoyublar. Bu cür daşlar Cəbrayılın işğaldan azad olunan Horovlu kəndində və digər ərazilərdə də aşkarlanıb. Məqsəd isə hər zamankı kimi tarixi saxtalaşdırmaq və bu ərazilərdə ermənilərin yaşadığına dair saxta izlər qoymaq olub. Birlik sədri bildirir ki, emənilər həmişə Azərbaycanın milli, mədəni dəyərləri üzərində saxtakarlıqlar ediblər. Həmsöhbətimiz bildirir ki, tarixi-mədəniyyət abidələri və memarlıq abidələrinin quruluşu erməni memarlığına uyğun gəlmir. Bu səbəbdən də həmin tikililərin formalarını və orijinal görkəmini dəyişidirərək erməni abidələri kimi təqdim etməyə çalışıblar. "Onlar həmçinin, bədii daşlar və xaçlar hazırlayır, həmin hissələri müxtəlif maddələrə salaraq daşın rəngini dəyişir, köhnə göstərməyə çalışırlar. Hazırlanmış bu maketləri Azərbaycanın işğal altında saxladıqları bütün ərazilərində - qəsəbə, bulaq, turizm üçün əhəmiyyətli olan sahələrimizdə yerləşdiriblər".

F. İsmayılov deyir ki, Kəlbəcərdə və digər ərazilərdə Alban xaç daşları hazırlayan bir neçə sex aşkarlanıb. Faiq İsmayılovun sözlərinə görə, saxta xaç və baş daşları hazırlamaq üçün hər il may ayında Şuşada festival da keçirilib və oraya dünyanın bir çox ölkələrindən memarlar dəvət olunub. "Bu müsabiqədə xaç daşları, erməni mədəniyyətinə uyğun müxtəlif daşlar, dekorativ bədii sənət nümunələri hazırlanırdı. Bunların sayları çox olurdu. Hər il təkcə Şuşa şəhərində 300-500 sayda bu cür monumental qurğular, bədii daş nümunələri hazırlanırdı".

Həmsöhbətimiz bildirir ki, sonra hazırlanmış materiallar işğal altındakı ərazilərə yerləşdirilib. Ermənilərin orada yaşaması ilə bağlı saxta izlər qoymaq üçün isə əsasən qəbiristanlıqlar hədəf seçilib: " Festivaldan sonra, yəni bu müsabiqədən sonra bütün bunları maşınlara yığaraq Cəbrayıl, Laçın, Qubadlı, Zəngilan, Ağdam və işğal altında saxlanan digər şəhər və rayonlarda, oradakı kənd ərazilərində, qəbiristanlıqlarda, inzibati yaşayış yerinin xarabalıqlarında qoyurlar".

F. İsmayılov onu da qeyd edir ki, yaşayış məntəqələrinin sakinləri də bildiriblər ki, işğaldan əvvəl həmin qəbiristanlıqlarda o cür baş daşları olmayıb. F. İsmayılov düşmənin iç üzünü açmaq, bu barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmalı olduğunu söyləyir. Onun sözlərinə görə, Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində işlərə bu saxtakarlıqları ifşa etməklə davam edilməlidir.

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Fərhad Əhmədovun oğlu anasına 100 milyon dollar ödəməlidir

***Rusiyada yaşayan azərbaycanlı iş adamı Fərhad Əhmədovun oğlu Teymur məhkəmənin qərarı ilə anası Tatyana Əhmədovaya 100 milyon dollar ödəməli olacaq. Məhkəmə onu həm də "atasına kömək etmək üçün hər şey edəcək vicdansız bir adam" adlandırıb.***

Bu barədə "Qafqazinfo" "Bloomberg"ə istinadən xəbər verir. Hakim Qvinnet Noulz belə bir qənaətə gəlib ki, kiçik Əhmədov atasına kömək edib və əmlak bölgüsünə əsasən anası üçün nəzərdə tutulan 453 milyon funt (600 milyon dollardan çox) vəsaiti almasına mane olmaq üçün "əlindən gələni" edib. Noulz deyib ki, indi o, anasına 100 milyon dollardan çox pul ödəməli olacaq.

Xatırladaq ki, 2016-cı ildə London Ali Məhkəməsi Fərhad Əhmədovun üzərinə keçmiş həyat yoldaşı Tatyanaya 453 milyon funt-sterlinq (varidatının 41,5%) ödəməsi barədə öhdəlik qoyub. Qadının payına saraylar, yaxta, vertolyot, şəxsi təyyarə və incəsənət əsərləri daxildir. Bu boşanma prosesi Londonun ən bahalı boşanma proseslərindən biri kimi qiymətləndirilir.

Dinləmələr 2020-ci ilin sonunda yenidən başlamışdı. Elə həmin vaxt məlum olmuşdu ki, Britaniya vətəndaşlığı olan Teymur anasının iddiasından sonra Rusiyaya qaçıb. Qadın boşanma prosesi zamanı onun üçün nəzərdə tutulan vəsaiti gizlətməkdə atasına kömək etdiyini iddia edərək öz oğlunu məhkəməyə verməşdi.

Ötən ilin sonunda Teymur Əhmədov danışırdı ki, onun London İqtisadiyyat Məktəbində oxuyarkən atası tərəfindən ona bağışlanan 50 milyon dolları fond bazarında riskli əməliyyatlarda itirdiyindən anasının da xəbəri var idi. O qeyd edib ki, anası hətta buna görə onu təsəlli də edib.

## Bakıda qadın ərini öldürdü

***Bakının Qaradağ rayonunda qadın ərini bıçaqlayaraq öldürüb.***

Qaradağ rayon prokurorluğundan verilən məlumata görə, aprelin 21-də saat 20 radələrində Qaradağ rayonu, Lökbatan qəsəbəsi ərazisində Əskərzadə Elvin Pənah oğlu yaşadığı evdə bıçaqlanaraq öldürülüb.

Aparılmış ilkin araşdırmalarla zərərçəkmişin arvadı Babayeva Sevda Rasim qızının şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla Elvin Əskərzadənin sol sinə nahiyəsinə xəsarət yetirərək sonuncunu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Qaradağ rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Sevda Babayeva şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

## Cəlilabadda ev külə döndü

***Cəlilabad rayonunun Boyxanlı kəndində ev tamamilə yanıb.***

"Unikal" FHN-ə istinadən xəbər verir ki, ümumi sahəsi 128 m? olan birmərtəbəli evin yanar konstruksiyaları yanıb.

Yaxınlıqdakı tikililər yanğından mühafizə olunub.

Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

# Kürdəmirin icra başçısının cinayət işi hakim icraatına verildi

***Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı olmuş Ceyhun Cəfərov, birinci müavini Tacəddin Novruzov, İcra Hakimiyyəti Başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Natiq Kərimov, Kürdəmir rayonunun Yaşıllaşdırma idarəsinin rəisi Emin Sadıqov, Mənzil İstismar sahəsinin rəisi Sərvər Məmmədov, Kommunal Müəssisələr kombinatının direktoru Məhəmmədəli Surxayev, rayon Mərkəzi Xəstəxanasının direktoru Eynulla Novruzov, həmin tibb müəssisəsinin baş həkimi Məhəmməd Musayev, eləcə də rayonun Təhsil şöbəsinin müdiri Mətləb Allahverdiyev və baş mühasibi Rəcəb Hüseynovun barəsində olna cinayət işi araşdırılması üçün hakim icraatına verilib.***



Bu barədə Lənkəran Ağır Cinayətlər Məhkəməsindən bildirilib. Məlumata görə, cinayət işi araşdırılması üçün hakim Cavid Səfərlinin icraatına verilib. Məhkəmənin hazırlıq iclası hələki müəyyən olunmayıb. İttihama görə, Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı olmuş Ceyhun Cəfərov və digər vəzifəli şəxsləri tərəfindən qanunsuz əməllərə yol verilməsi faktları ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində ibtidai istintaqı aparılıb.

Aparılmış istintaq-əməliyyat tədbirləri ilə müəyyən olunmuşdur ki, Ceyhun Cəfərov 16 aprel 2014-cü il tarixdən 20 avqust 2020-ci il tarixədək həmin vəzifədə işləyərkən birinci müavini Tacəddin Novruzov, İcra Hakimiyyəti Başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Natiq Kərimov və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında təkrarən öz qulluq mövqeyindən istifadə etməklə müxtəlif tabe qurumlara məxsus olan külli miqdarda pul vəsaitlərini mənimsəmiş, rayon ərazisində fəaliyyət göstərən səhiyyə, təhsil və digər dövlət qurumlarından, bir sıra özəl müəssisələrdən külli miqdar təşkil edən pul vəsaitlərini rüşvət qismində almış, habelə həyata keçirilmiş tikinti işləri ilə bağlı verdiyi qanunsuz sərəncamlar nəticəsində torpağın üst münbit qatına ağır nəticəli ziyan vurulmasına səbəb olub.

İş üzrə toplanmış sübutlar əsasında Ceyhun Cəfərov, Tacəddin Novruzov və Natiq Kərimova Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 311.3.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma), 311.3.2 (rüşvət alma təkrar törədildikdə) və digər maddələri ilə ittiham elan edilmiş və barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

İstintaq zamanı, həmçinin, yol verdikləri korrupsiya hüquqpozmaları ilə bağlı cinayətkar qruplaşmanın digər üzvləri - Kürdəmir rayonunun Yaşıllaşdırma idarəsinin rəisi Emin Sadıqov, Mənzil İstismar sahəsinin rəisi Sərvər Məmmədov, Kommunal Müəssisələr kombinatının direktoru Məhəmmədəli Surxayev, rayon Mərkəzi Xəstəxanasının direktoru Eynulla Novruzov, həmin tibb müəssisəsinin baş həkimi Məhəmməd Musayev, eləcə də rayonun Təhsil şöbəsinin müdiri Mətləb Allahverdiyev və baş mühasibi Rəcəb Hüseynova 179.3.2 (mənimsəmə külli miqdarda törədildikdə), 313-cü (vəzifə saxtakarlığı) və digər maddələri ilə ittiham elan edilməklə barələrində həbslə bağlı olmayan qətimkan tədbirləri seçilib.

Cinayət işinin ibtidai istintaqı zamanı vurulmuş maddi ziyanın bir hissəsinin ödənilməsi təmin edilib, xüsusi müsadirəni təmin etmək məqsədilə məhkəmənin qərarı ilə təqsirləndirilən şəxslərə məxsus olan daşınmaz əmlak üzərinə həbs qoyulub.

# Bakıda evə basqın anı - Qadını yataq otağına aparanda...

***Bakı şəhəri, Xətai rayonu ərazisində yerləşən evlərdən birində qadına qarşı quldurluq edilib.***



Daxili İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, zərərçəkən şəxs Xətai Rayon Polis İdarəsinin 35-ci Polis Bölməsinə müraciət edərək bildirib ki, 19 aprel 2021-ci il tarixində gecə saat 03 radələrində yaşadığı mənzildə tək olan zaman üzlərində maska olan naməlum şəxslər evin giriş qapısının açıq olmasından istifadə edərək mənzilə daxil olublar. Daha sonra həmin şəxslər onun boğazından tutaraq həyat və sağlamlığı üçün təhlükəli zorakılıq tətbiq edəcəyi ilə hədələyib pul və qızıl-zinət əşyaları tələb ediblər. Bu zaman qadın yataq otağında pulun yerini göstərəcəyi bildirərək orada quraşdırılan siqnalizasiya sistemini işə salıb. Yaranan səsdən sonra həmin şəxslər qaçaraq mənzili tərk ediblər. Hadisə yerindən uzaqlaşan zaman onlar qadının 1500 manat pulunu da götürüblər.

Məlumat daxil olan kimi Xətai Rayon Polis İdarəsinin və 35-ci Polis Bölməsinin əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib. Evin yerləşdiyi ünvanda zəruri əməliyyat-istintaq hərəkətləri icra edilib. Həyata keçirilən təxirəsalınmaz axtarış tədbirləri nəticəsində qeyd edilən hadisəni törətməkdə şübhəli bilinən Elman Şahmuradov Sumqayıt şəhəri, Kənan İsmayılov isə Ceyranbatan qəsəbəsi ərazisində saxlanılaraq istintaqa təqdim ediliblər. Hər iki şəxs ifadələrində törətdikləri cinayəti etiraf ediblər.

Araşdırma zamanı həmçinin müəyyən edilib ki, Kənan İsmayılov zərərçəkən qadının yaxın qohumudur və onun təklifindən sonra hər iki şəxs qeyd edilən hadisəni törədiblər

Faktla bağlı Xətai Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 181.2.3-cü (Quldurluq, yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə törədildikdə) maddəsi ilə cinayət işi başlanılıb, istintaq tədbirləri davam etdirilir.

# Elektron ticarətdə ƏDV-nin tətbiqinə dair açıqlama




***Rəqəmsal ödəniş ekosistemi inkişaf edərək əhatə dairəsi genişləndikcə müxtəlif ödəniş alətlərindən istifadə edilməsi, bank-müştəri münasibətlərində yarana biləcək ziddiyyətli hallar, aparılan ödəniş əməliyyatları üzrə vergilərin tutulması və digər sahələrdə mütəmadi əsasda cəmiyyətin məlumatlandırılması mühüm əhəmiyyət kəsb edir. Qlobal pandemiya dövründə elektron ticarət əməliyyatlarının dövriyyəsində müşahidə edilən sıçrayışlı artım bankları bu sahədə daha diqqətli və həssas olmağa sövq edir.***

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə 2017-ci ildə edilmiş dəyişikliklər nəticəsində ödəniş kartları ilə aparılan bəzi əməliyyatlar üzrə vergi dərəcələri müəyyən edilmişdir. Belə ki, Vergilər Məcəlləsinin 169-cu maddəsinə əsasən ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə görə vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən bu maddə ilə müəyyən edilmiş qaydada qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı və ödənilməlidir.

Elektron ticarət qaydasında işlərin və xidmətlərin alıcısı, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin iştirakçısı vergi orqanlarında uçotda olmayan şəxs olduqda ödənişi aparan yerli bank və ya xarici bankın Azərbaycan Respublikasındakı filialları tərəfindən hesablanan ƏDV alıcının vəsaiti hesabına büdcəyə ödənilir.

Qeyd edilməlidir ki, ölkədaxilində POS-terminal şəbəkəsi və ya elektron ticarət üzərindən aparılan əməliyyatlarda, eləcə də internet şəbəkəsi üzərindən xarici internet saytlardan məhsul sifarişi edildikdə ƏDV tətbiq edilmir.

Vergilər Məcəlləsinin 101.5-ci maddəsinə əsaən idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyalardan keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlardan (mükafatlardan) iştirakla bağlı ödənilən pul vəsaiti (pul qoyuluşu) çıxılmaqla qalan məbləğdən (Azərbaycan Respublikasının hüdudlarından kənarda təşkil edilən mərc oyunlarından, yarışlardan və müsabiqələrdən əldə edilən nağd pul vəsaiti istisna olmaqla) 10 faiz dərəcə ilə vergi tutulur.

Ödəniş kartları ilə aparılan əməliyyatlarda vergi dərəcələrinin tətbiq edildiyi digər sahə isə elektron pul kisələri ilə bağlıdır. Vergilər Məcəlləsinin 125.1-1-ci maddəsinə əsasən isə Azərbaycan Respublikasının rezidentləri tərəfindən qeyri-rezident şəxslərə məxsus elektron pul kisəsində yaradılan hesaba pul köçürülərkən, əməliyyatı həyata keçirən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru həmin rezidentdən köçürülən məbləğin 10 faizi miqdarında ödəmə mənbəyində vergi tutur.

Yuxarıda qeyd edilən ödəniş əməliyyatları həyata keçirildiyi təqdirdə banklar tərəfindən hər bir ödəniş əməliyyat üzrə vergilər, o cümlədən ƏDV ödənişləri fərdi qaydada hesablanaraq kart istifadəçisinin hesabında olan vəsaitdən ödənilir. Lakin bir sıra hallarda bankın informasiya texnologiyaları infrastrukturunda aparılan təkmilləşmə işləri və digər səbəblərdən fərdi qaydada və ya kütləvi olaraq bir çox kart istifadəçilərinin apardığı ödəniş əməliyyatları üzrə vergi dərəcələrinin hesablanması zamanında mümkün olmaya bilər.

Son zamanlar bir sıra sosial şəbəkələrdə vətəndaşların narazılığına səbəb olan məsələ ilə əlaqədar bildirmək istəyirik ki, bu istisna hal məhz texniki səbəblərdən dolayı baş vermişdir və texniki xətaların olması qaçılmazdır. Hər zaman olduğu kimi, kart istifadəçisi olan müştərilər kart hesablarından vəsaitlərin silinməsi, o cümlədən vergilərin ödənilməsi ilə bağlı banklara birbaşa müraciət edərək əsaslandırılmış formada cavab ala bilərlər.

# “Aqrar Mühəndislər” layihəsinin açılış mərasimi keçirilib

***Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi, “Aqrar İnkişaf Könüllüləri” Təşkilatının təşkilatçılığı, Bakı Mühəndislik Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetinin tərəfdaşlığı ilə “Aqrar Mühəndislər” layihəsinin açılış mərasimi keçirilib.***

Bu barədə Unikal.org-a nazirlikdən məlumat verilib.

Açılış mərasimində çıxış edən “Aqrar İnkişaf Könüllüləri” Təşkilatının sədri Kamran Əliyev “Aqrar Mühəndislər” layihəsi ilə bağlı məlumat verib.

Tədbirdə çıxış edən “Aqroservis” ASC-nin sədrinin müşaviri İsrafil İsmayılov, Bakı Mühəndislik Universitetinin Xarici əlaqələr və layihələrin idarəolunması şöbəsinin rəhbəri Arif Nəcimov gənclərə aqrar sahədə mühəndislik ixtisasının əhəmiyyəti, bu sahədə peşəkar kadrların hazırlanması istiqamətində görülən işlər və perspektivlərlə bağlı fikirlərini bölüşüblər.

”Aqrar Mühəndislər” layihəsinin əsas məqsədi mühəndislik ixtisası üzrə təhsil alan gənclərin aqrar sahəyə cəlb olunması, kənd təsərrüfatı sahəsində kadr potensialının artırılması və daha səmərəli istehsal sistemlərinin təşviq edilməsidir. Layihə müddətində gənclər mühəndislik texnologiyası biliklərinin aqrar sahədə tətbiq edilməsi haqqında geniş nəzəri və praktiki biliklər əldə edəcəklər.

Layihə 5 mərhələdə həyata keçiriləcək. Layihənin ilk mərhələsində aqrar mühəndislik, layihələrin hazırlanması və idarə olunması üzrə təlimlər keçiriləcək. İkinci mərhələdə aqrar sahədə istehsal və emal müəssisələrinə ekskursiyalar təşkil olunacaq. Üçüncü mərhələ aqrar sahədə aktual mövzular üzrə müzakirələrə həsr olunacaq. Dördüncü mərhələdə ideyaların layihə formatında hazırlanması və münsiflər heyətinə təqdim edilməsinin ehtiva edir. Layihənin sonuncu, beşinci mərhələsində isə seçilmiş gənclər üçün özəl və ya dövlət şirkətlərində qısamüddətli təcrübə proqramında iştirak etmək şəraiti yaradılacaq. Layihənin bütün mərhələlərini uğurla bitirən iştirakçılara sertifikatlar və hədiyyələr təqdim olunacaq.







# “Toxum dövlətdən, gübrə şirkətdən” kampaniyasına - start verildi

***Ərazisi 5 hektara qədər olan pambıqçı fermerlər hər 1 hektar pambıq əkini üçün gubre.az-dan dövlət subsidiyası hesabına aldıqları 1 kisə pambıq toxumuna 1 kisə azot gübrəsi hədiyyə alacaqlar. Kampaniyanın başlıca məqsədi kiçik pambıqçı fermerlərin sahələrində məhsuldarlığın artırılmasıdır.***

Kənd təsərrüfatı sektorunun bütün sahələrində olduğu kimi, pambıqçılıqda da fermerlərimizə göstərilən dövlət dəstəyi artmaqda davam edir və bu dəstəyin hesabına pambıq sahələrinin məhsuldarlığı ildən-ilə artır.

Dövlətin kənd təsərrüfatı sahəsində həyata keçirdiyi yeni subsidiya mexanizmlərinin uğurlu icrası nəticəsində kənd təsərrüfatı istehsal vasitələrinin bazarı liberallaşıb və yüksək məhsuldarlıqlı yeni toxum növləri fermerlərimizə daha da əl çatan olub.

Ölkəmizdə kənd təsərrüfatı istehsal vasitələrinin əsas təchizatçılarından biri kimi Aqrar İnnovasiya və Təchizat Şirkəti olaraq, biz də dövlətimizin pambıqçılığa olan həssas yanaşmasına öz töhfəmizi vermək üçün fermerlərimizə hərtərəfli dəstək olmağa çalışırıq.

Respublikamızın bir çox bölgəsində sınaq əkinləri həyata keçirilən Türkiyənin “May Toxum” şirkətinin istehsalı olan pambıq toxumları fermerlərimizi sevindirən nəticələr verib. Digər rəqibləri ilə müqayisədə daha bol və keyfiyyətli pambıq verən “May” toxumlarının ölkəmizin iqlim şəraitində uğurla sınaqdan çıxması pambıqçılıqla məşğul olan təsərrüfatçılarımızda bu toxuma marağı artırıb.

“May” pambıq toxumundan əldə edilən yüksək nəticələr Aqrar İnnovasiya və Təchizat Şirkəti olaraq bizə stimul verdi ki, bu sortun daha təkmilləşdirilmiş variantlarını da ölkəmizə idxal edək və pambıqçılarımızın istifadəsinə verək.

Beləliklə, bu ildən etibarən ilk dəfə olaraq, Türkiyənin “May Toxum” şirkətinin daha yüksək məhsuldarlıq vəd edən və xəstəliklərə davamlı “May-455” sortlu pambıq toxumlarını fermerlərimizə təqdim edirik.

“May-455” pambıq toxumları ortalama 50-60 sentner məhsul verir. Bu göstəriciyə görə “May-455” ən qabaqcıl nəticələrdən birinə sahibdir. “May-455” ən yaxın rəqibindən daha tez yetişdiyi üçün 1 dəfə az suvarma edilir. Bu da ölkəmizin su ehtiyatlarının qorunmasına xüsusi töhfə vermiş olacaq. Sortun yarpaq sayı digər sortlarla müqayisədə daha az olduğu üçün pestisid çilənməsindən daha yaxşı nəticə əldə edilir. Sort az tüklü olduğu üçün məhsul daha təmiz yığılır, bu isə daha yüksək lif keyfiyyəti deməkdir.

Fermerlərimiz “May-455” pambıq toxumlarını respublikanın bütün bölgələrində gubre.az satış nöqtələrindən 100% dövlət subsidiyası hesabına əldə edə bilərlər. Qeyd edək ki, gubre.az “Aqrar İnnovasiya və Təchizat Şirkəti” QSC-yə məxsus kənd təsərrüfatı istehsal vasitələrinin satış şəbəkəsidir.

Aqrar İnnovasiya və Təchizat Şirkətinin mütəxəssisləri pambıqçılıqla məşğul olan fermerlərimizin maarifl ənməsi və bitkiyə düzgün aqrotexniki qulluq edərək, bol məhsul əldə edə bilmələri üçün “Pambıqçılıq üzrə kompleks əkin proqramı” adlı xüsusi kitabça da hazırlayıb. Pambıq becərilməsi prosesinin bütün mərhələlərini əhatə edən kitabçada fermerlərimizə qaranlıq qalan bütün məqamlar ən müasir qaydalar əsas götürülməklə işıqlandırılıb.

Pambıqçılıq sahəsində öndə gedən ölkələrin təcrübələri əsasında hazırlanmış “Pambıqçılıq üzrə kompleks əkin proqramı” kitabçasında fermerlərimiz sahələrindən yüksək keyfiyyətli məhsul götürmək üçün lazım olan hər bir addım barədə detallı məlumatlandırılıb, hər bir addımın elmi izahı verilib, pambıqçılıq sahəsində istifadə edilməli olan ən müasir aqrotexnoloji və aqrokimyəvi vasitələr tövsiyə edilib.

Artıq ölkəmizin bir çox regionunda pambıqçılıqla məşğul olan və olmaq istəyən fermerlərimizə paylanılan bu kitabça təsərrüfatçılarımızın da təqdirini görüb. Kitabçada qeyd olunan bir çox vacib məsləhət bu il pambıqçılarımızın sahələrindən çox yüksək nəticələr əldə etməsinə şərait yaradacaq.




# Sahil Babayev serb həmkarı ilə onlayn formatda görüşdü

***Əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökümətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayevlə Serbiyanın əmək, məşğulluq, veteranlar və sosial işlər naziri Darija Kisiç Tepavçeviçin onlayn formatda görüşü olub.***

"Unikal" xəbər verir ki, S.Babayev Azərbaycanla Serbiya arasında hələ 2013-cü ildə imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamənin, 2018-ci ildə imzalanmış strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının iki ölkə arasında dostluq münasibətlərinə əsaslanan əməkdaşlıq əlaqələrinin xeyli genişlənməsinə imkan yaratdığını vurğulayıb. Keçən il də Serbiya ilə ticarət dövriyyəsinin 6,3 faiz artdığını qeyd edərək, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökümətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyətini diqqətə çatdırıb. S.Babayev Azərbaycanda tikinti, xidmət sahələri üzrə 4 Serbiya şirkətinin fəaliyyət göstərdiyini, Serbiyada Azərbaycanın "Azvirt" şirkətinin uğurlu fəaliyyətini qeyd edib. Ümumilikdə iki ölkənin işgüzar dairələri arasında əlaqələrin inkişafının, biznes sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsinin Hökümətlərarası Komissiyanın fəaliyyətinin prioritetlərindən olduğunu bildirib.

İki nazirlik arasında əlaqələrin inkişaf etdirilməsinin önəmini vurğulayan nazir bunun üçün müqavilə-hüquq bazasının genişləndirilməsinin məqsədəuyğun olduğunu qeyd edib. Bildirib ki, "Azərbaycan Hökuməti ilə Serbiya Hökuməti arasında sosial təminat haqqında Saziş" layihəsi hazırlanıb. Layihə imzalandıqdan sonra sosial sahədə qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əlaqələr, təcrübə mübadilələri genişlənəcək.

# Polisdən pişiyin ayaqlarının kəsilməsi ilə bağlı açıqlama

***Xaçmazda pişiyin üç ayağının kəsilməsi ilə bağlı Rayon Polis Şöbəsində (RPŞ) araşdırmalar aparılır.***

Unikal.org-un xəbərinə görə, hazırda RPŞ-də heyvana qarşı rəhimsiz rəftar göstərən şəxsin müəyyən olunması istiqamətində aktiv əməliyyat-axtarış tədbirləri davam etdirilir. Qeyd edək ki, ötən həftə sosial şəbəkələrdə Xaçmazda pişiyin 3 ayağının kəsilməsi ilə bağlı videogörüntülər yayılıb. Yayılan məlumata görə, bu əməli qəssab pişiyin ona məxsus əti yeməsinə görə törədib.

# Akademik Hətəm Quliyev vəfat edib

***Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, AMEA-nın Geologiya və Geofizika İnstitutunun Tektonofizika və geomexanika şöbəsinin rəhbəri Hətəm Quliyev vəfat edib.***

Akademik ötən gün 74 yaşında dünyasını dəyişib. Qeyd edək ki, H. Quliyev 1947-ci ildə Füzuli rayonunda dünyaya gəlib. Onun əsas nəticələrinə Yerin təkamülünün qeyri-dayanıqsızlıq konsepsiyasının yaradılması, bu təkamülün öyrənilməsi üçün qeyri-klassik xəttiləşdirilmiş yanaşmanın işlənib hazırlanması, Yer təkinin struktur inkişafının riyazi-geodinamik modelinin nəzəri əsasları və bir sıra digər elmi istiqamətlər üzrə mühüm işlər daxildir.

# 28 il sonra evinə getdi, içəri keçə bilmədi - BİR ADDIMLIQ DƏHŞƏT

***"Suqovuşanda, Ağdamda, Füzulidə minanın sayı-hesabı yoxdur. Taxıl kimi səpiblər. Yağış yağandan sonra torpaq yuyulub, bəzi yerlərdə gözlə görünür".***

Bu sözləri Lent.az-a açıqlamasında Füzuli rayonunda doğulub böyüyən, uşaqlığını, gəncliyini burada keçirən Hafiz Səfixanov söyləyib. Hafiz bəy Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyinin rəhbəridir...

**Amma...**

Biz onu sosial şəbəkələrdə yayılan və böyük marağa səbəb olan videonun izinə düşüb tapdıq. İşi minalar əleyhinə kampaniyaya rəhbərlik etmək olsa da, məhz mina təhlükəsi səbəbi ilə 30 ildən sonra işğaldan sonra azad olunan ata yurdunu uzaqdan seyr edir. Bizim zim evə gedən yolun üstündəki sinif yoldaşımgilin evidir. İndi Sankt-Peterburqda yaşayırlar. Quru divarları qalıb. Şəkilini çəkib internetlə atdım. Şəkillərə baxıb yazdı ki, ay qardaş, bu nə vəhşilikdi, biz nə edəcəyik?

**Hafiz bəy qəbiristanlığı da ziyarət edib:**

- Bütün qəbir daşlarını aşırıblar, sındırıblar, qəbirləri açıblar. Qara mərmərdən olan daşları aparıblar. İki yüz illik Füzuli qəbiristanlığında salamat bir qəbir yoxdur.

Hafiz Səfixanov 2005-ci ildə beynəlxalq konfransların birində emosional çıxış edib. Beynəlxalq nümayəndələr onu qınayıb, irad tutublar. Vaxt ötür, zaman keçir belə tədbirlərdən biri Bakıda keçirilir və nümayəndə heyəti ilə bölgələrə səfər edirlər:

- Onlar bizim yanğımızı anlamamışdılar. Nümayəndə heyəti ilə evimiz tamam dağılıb deyə gördüklərini belə nəql edir:

"Orada bir ev görünür. Qonşumuzun evidir. Kubiklə tikilən evlərdən heç biri qalmayıb, hamısını söküblər. Qalan o divar isə çay daşı ilə tikilmişdi. Gözünüzlə görməsəniz inanmazsınız. Prezidentin dediyi kimi, Füzulidə bir bina tapılmayıb ki, ora bayraq sancılsın. Tək-tük divarlar görünür. Bizim evin qarşısında üçmərtəbə mehmanxana var idi. O mehmanxanadan bir çöp də qalmayıb. Videoda mən o mehmanxananın yerində durub danışıram. Elə bil burada əvvəldən heç nə olmayıb. Daşına, kəsəyinəcən hər şeyi aparıblar. Evimizə gedən yolda minalar təmizlənməmişdi. 50 metr aralıdan evimizin uçuq divarlarına, boş torpağına baxdırdım."




Dünyanın istənilən şəhərinə, istənilən ölkəsinə getmək imkanı olan bir insanın ata yurduna getmək üçün 50 addım məsafəni gedə bilməməsi nə deməkdir? Elə Hafiz Səfixanov da bunu deyir:

- Mən olduğum ölkələrin sayını bilmirəm, dünyanın bütün qitələrini gəzmişəm. Xaraba qalmış Yerevanda iki dəfə olmuşam. Əlimi uzadıram, az qala evimə çatır, amma ora gedə bilmirəm. Evimə deyəndə, evdən əsər-əlamət yoxdur. Quru torpağına da ayağımı basa bilmirəm. Mən orada doğulmuşam, orada yaşamışam, mənim orada ömrüm keçib, bütün xatirələrim ora ilə bağlıdır...

Ata evindən çəkdiyi videoları, fotoları qohumlarına göndərib, amma tapşırıb ki, anasına göstərməsinlər. Yaşlı qadındır, birdən halı pisləşər:

- Özüm gələndən sonra onu psixoloji hazırlayıb şəkilləri göstərdim. O, min əziyyətlə tikdiyi evin dağıntılarını görəndə oturub xeyli ağladı... Evi nisbətən salamat olan qonşuya şəkil göndərə bilmədim. Əlaqəmiz var, amma insanlara necə təsir edəcəyini bilmirəm. Birlikdə avtobusda gəldik Alxanlı postuna. Ora sonuncu postdur, o tərəfə keçmək olmaz. Orada dəmir bir "budka" var idi. Sovet vaxtından qalma dayanacaq idi. Həmin dayanacaqdan Füzulinin avtovağzalına 13 km-dir. Avtobusa dedim, burada saxla. Onsuz da o tərəfə keçmək mümkün deyil. Noyabr ayı, hava soyuq. Avtobusdan düşüb, siqareti damağıma qoydum, bir o başa getdim, bir bu başa. Axşamdır, qaranlıq düşür. Axırda birinin səbri çatmadı. Dedi, izah elə görək bura niyə gəlmişik? Dedim, bax buradan mənim evimə 13 km-dir. Kanada, Avstraliya, Yeni Zelandiyaya, hara demisiniz, gəlmişəm, indi bu 13 km-i mənim evimə gedək. Mənə deyirsiniz, emosional çıxış edirsən. Başa düşün ki, bizim dərdimiz nədir? İçində özünü pis olmuş kimi göstərənlər də oldu, həqiqətən bizi anlayan, təəssüf edən də. Bakıya qayıdanda mənə o iradı tutan fransalı qadın onun boynunu qucaqlayır, ağlayır, deyir, mən səni indi başa düşdüm.

**Hafiz bəy əlavə edir:**

- Budəfəki səfərdə o 13 km-i də getdik, amma 50 metri gedə bilmədik. 30 ildir biz camaata deyirik ki, getmək olmaz, toxunmaq olmaz. İndi bunu deyən, təbliğ edən, 30 ildir bu işlə məşğul olan adam başqalarına nümunə olmalıdır. Bəlkə də orada heç nə yoxdur. Amma ola da bilər. Təhlükəlidir.

**Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyinin rəhbəri Hafiz Səfixanov və Nigar Adil**

İşğaldan azad olunan rayonlardakı erməni vəhşiliyini ifadə etməyə söz tapmır Hafiz bəy. Füzulini cəngəlliyə bənzədir:

- Füzuliyə, Cəbrayıla, Ağdama, eləcə də başqa rayonlarımıza gedib öz evini yerini tapa bilməyən insanlar var. Mən heç olmasa tapdım. O boyda Füzuli şəhəri cəngəlliyə bənzəyir. Bircə bataqlığı çatmır. Vəhşiləşmiş ağacdan, koldan addım atıb getmək mümkün deyil. 30 il insan ayağı dəyməyib. Üstəlik minalar. Biz əsil müharibəni udmuşuq, indi minalarla müharibə aparırıq. Hər gün olmasa da, iki gündən bir minaya düşmə xəbəri gəlir. Bu bizim ikinci müharibəmizdir. Çıxış yolu yalnız minalanmış ərazilərin xəritələrinin verilməsidir. Bunsuz o bölgələrin təmizlənməsi çətin olacaq. Hazırda bir qurum olaraq bununla bağlı işlər aparırıq.

**Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyinin rəhbəri Hafiz Səfixanov**

Söhbətimizin sonunda Hafiz bəy rəhbərlik etdiyi qurumun əsas işinin minalanmış ərazilərin xəritələrini əldə etməkdə dövlətimizə kömək etmək və yaxın zamanda bütün Qarabağı minasız gəzməyi arzuladı.

# Minaya düşən minaaxtaran: “Düşmən ağlagəlməz “sürprizlər” hazırlayıb”

***Ötən il Dağlıq Qarabağ münaqişəsi başa çatsa da, işğaldan azad olunmuş ərazilərdə mina təhlükəsi davam edir. Erməni işğalçıları demək olar ki, bütün əraziləri, hətta yaşayış yerlərini, qəbiristanlıqları belə minalayıblar. Müharibənin bitməsindən 6 aydan çox vaxt keçsə də, Ermənistan tərəfi minalı ərazilərin xəritələrini Azərbaycana verməkdən imtina edir. Bununla İrəvan hərbi cinayətlərdən əl çəkmək niyyətində olmadığını nümayiş etdirir.***



Ermənilərin qurduğu mina tələləri 10 noyabr üçtərəfli bəyanatından sonra da hərbçilərimizin və mülki vətəndaşlarımızın ölümünə, ağır xəsarət almasına səbəb olur. Müharibədən sonra erməni vəhşiliyinin qurbanı olanlardan biri Ağdamın işğaldan azad edilmiş ərazisində Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) Təmizləmə Qrupunun Bölmə rəhbəri olmuş 1983-cü il təvəllüdlü Mirzəyev Elməddin Tofiq oğludur.

Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kənd sakini E.Mirzəyev 15 ildən artıq müddətdə minatəmizləmə işi ilə məşğul olub. O, 2021-ci ilin 29 yanvar tarixində Ağdam dəmiryolunun minalardan təmizlənməsi zamanı baş vermiş partlayış nəticəsində gözünü və ayağının birini itirib.

“15 il ərzində minlərlə, bəlkə də daha çox partlamayan hərbi sürsatların zərərsizləşdirilməsi ilə məşğul olmuşam. Torpaqlarımız azad olunandan sonra Ağdamda təmizlənmə əməliyyatları aparan zaman sürpriz mina ilə rastlaşdıq. Partlayış nəticəsində sol ayağımı itirdim, sağ gözüm tamamilə sıradan çıxdı, sol gözümdə isə buynuz qişası dəyişdirilməlidir. Yalnız bu halda bir gözümün görmə qabiliyyəti bərpa olunacaq. Düşmən ərazini elə formada minalayıb ki, sanki yerə mina xalçası salınıb. Hər bir şeydən sürpiriz hazırlayıb. Bir mina partlayışı zamanı minlərlə mina partlaya bilər. Əraziyə partlayıcı sursatlar yerləşdirib və onu mina ilə ələqələndiriblər. Dünya standartında belə minalama formatı yoxdur”.

4 uşaq atası olan E.Mirzəyev vətəndaşlarımıza müraciət edərək, onları səbrli olmağa, işğaldan azad edilmiş ərazilərə qanunsuz səfər etməməyə çağırıb:

”İnsanlarımıza səslənirəm, siz 30 ilə yaxın dözdünüz, daha 5 il də səbr edin. Mən başa düşürəm, yurd, torpaq həsrətindəsiniz, ancaq elə bilin ki, torpaqlarımız 35 ildən sonra azad olunub. Ağlınıza gəlməyən formada minalardan sürprizlər hazırlanıb. 15 ilin mütəxəssisiyəm, amma mən də minanın qurbanı oldum. Bizim digər əməkdaşlarımız da bu vəziyyətlə qarşılaşıblar. İllərin peşəkarları belə halla rastlaşırsa, görün minadan anlayışı olmayanlar nə vəziyyətə düşə bilər. Polisimiz, hərbçilərimiz səsucaldıcılarla insanlara çağırış edir ki, qadağan olunmuş ərazilərə girməyin, düşmən hələ torpağın altındadır.

Ermənilər minalanmış ərazilərin xəritəsini ona görə verə bilmirlər ki, həmin ərazilərdə ağla sığışmayan vəhşiliklə mina döşəyiblər. Bu, insanlığa qarşı ən böyük vandallıqdır.

”Bozena” adlı mina təmizləyən maşınlar var. Ancaq səngərlərdə, dərələrdə, təpələrdə bu texnikalardan istifadə etmək olmur. Yalnız düzənlik relyefdə işləyə bilir. Düşmənin amansızlığı Ağdamda daha çox görünür. Bu rayonda basdırılan minaların sayı-hesabı yoxdur. Ən kiçik səhv insanı ölümə aparır.

Hərbçilərimiz müharibə ilə torpaqlarımızı işğaldan azad etdi. Bizim işimiz ərazilərimizi mina işğalından azad etməkdir. Vətəndaşlar azad edilmiş ərazilərin təhlükəli olduğunu dərk etməlidirlər. Səbrli olmaq lazımdır. Piyada əleyhinə minanın üzərinə tank əleyhinə düzürlər. Onu çəkən vaxt altdakı mina işə düşür. Tələ məftili ilə bir minadan başqa minaya xətlər ayırırlar. Bir minanı zərərsizləşdirən vaxt digər mina partlayır. Adi mərmini qoyub aralıdan ona tələ məftili ilə mina xətti çəkirlər. İnsanlar naməlum əşya əşya görsə, ona toxunmasın, dərhal polisə, ANAMA-ya xəbər versinlər. Elə sursatlar var ki, günə çıxaranda və kölgədə işə düşür. Belə mərmilərə 90 dərəcə bucaq altında yaxınlaşmaq lazımdır”.

Həmsöhbətimiz gözündən əməliyyat edildikdən sonra Türkiyədə ayağından protezlə təmin olunacağını söyləyib.

“Sol ayağım topuqdan yuxarı amputasiya olunub. Gözüm əməliyyatla qaydasına düşəndən sonra bizim idarə tərəfindən Türkiyəyə göndəriləcəyəm və orada ayağıma protez qoyulacaq. Bu ayın axırına kimi ABŞ-dan gözün buynuz qişası gətiriləcək, onu gözləyirik.

İşlədiyim qurum 6 ay ərzində maaşımı ödəyəcək. Bu müddətdən sonra əlillik dərəcəm müəyyənləşəcək və təqaüdlə təmin olunacağam. Mən sizin vasitənizlə “YAŞAT” fonduna təşəkkürümü bildirirəm. Evimin tikintisi yarımçıq qalmışdı, buna görə mənə 10 min manat verdilər”.

*Şahanə Rəhimli*

# Daxil olan və xərclənən məbləğ açıqlandı - “YAŞAT”la bağlı hesabat



***Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - “YAŞAT” Fondunun fəaliyyət istiqamətlərinə dair hesabat açıqlanıb.***

Azərbaycan Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı əsasında yaradılan Fondun hesabına 20 aprel 2021-ci il tarixinədək 31 020 243.38 manat vəsait mədaxil olub. Bu vəsait hesabına ölkə ərazisində 2 881 şəhidin ailə üzvləri, habelə 2 735 yaralı olmaqla, ümumilikdə 14 240 şəxslə görüşülüb, ehtiyacları qeydə alınıb (yashat.gov.az saytında) və 5 775 şəxsin müraciəti icra üçün öhdəliyə götürülüb.

Fondun fəaliyyət istiqamətləri üzrə 19 146 142.77 məbləğində vəsait xərclənib. 1 331 şəhid ailəsi üzvü, 1 605 yaralı və 6 itkin ailəsi üzvünün məişət şəraiti yaxşılaşdırılıb, 33 şəhid ailəsi üzvü və 2 yaralının təhsili nəzarətə götürülüb, bundan başqa, 493 şəhid ailəsi üzvü, 426 yaralı və 4 itkin ailəsi üzvünün istehlak kreditləri ödənilib, eləcə də 621 şəhid ailəsi üzvü və 176 yaralının tibbi ehtiyacları qarşılanıb.

Fon tərəfindən, həmçinin yeni doğulmuş 59 şəhid övladının zəruri tibbi xərcləri qarşılanıb, hər bir uşağın adına bank hesabı açılaraq 5.000 manat depozit qoyulub. Həmin şəhid övladları 18 yaşına çatanda üzərinə faiz gəlmiş depozitini istifadə edə biləcəklər.

Bundan başqa, 63 ağır yaralı müalicə edilməsi məqsədi ilə Türkiyə Respublikasına göndərilib, onlardan 7-si sağalaraq geri qayıdıb. ”YAŞAT” Fondunun dəstəyi ilə ölkəmizə gətirilən türkiyəli həkimlər tərəfindən 150-dən çox yaralı müayinə edilib.

Eyni zamanda, İsrail dövlətindən hərbi xəsarətlərin müalicə edilməsi üzrə ixtisaslaşmış 8 mütəxəssis gətirilib, qeydiyyatı aparılmış ağır göz problemləri olan 30 nəfər əməliyyat edilib, onlardan 5 nəfərin görmə qabiliyyəti bərpa olunub, 1 nəfər göz yaşı kisəsinin bərpası və protez göz qoyulması üçün əməliyyat edilib, 4 nəfər isə göz qapağının bərpası üçün plastik əməliyyat olunub. 51 nəfərə protez göz qoyulub, 4 nəfər üçün protez göz sifariş olunub, 1 nəfər protez qoyulmasından imtina edib, 82 nəfər isə sadəcə müayinə edilib.

10 mart 2021-ci il tarixdə Türkiyə Respublikasından dəvət olunan həkim tərəfindən komada olan ağır yaralılar müayinə edilib.

Həmçinin, 10 - 13 mart 2021-ci il tarixdə Dövlət Agentliyinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasına səfər edib, səfər çərçivəsində Türkiyə Silahlı Qüvvələrinin nəzdində fəaliyyət göstərən “Elele” (Əl-ələ), “Eğitim” (Təhsil), “Dayanışma” (Həmrəylik) və “Mehmetçik” (Əsgər) Fondlarında konkret məsələlər ətrafında səmərəli müzakirələr aparılıb, təcrübə mübadiləsi həyata keçirilib. Eyni zamanda, Türkiyə Respublikasında müalicə alan ağır yaralılar ziyarət olunub.

“YAŞAT” Fondunun təşəbbüsü, “Vətən Ulduzları” Fondunun təşkilatçılığı ilə 17 mart - 18 mart 2021-ci il tarixdə 10 şəhid övladı Ankara şəhərində baş tutan “Övladlarımız Tək Ürək” 18 mart şəhidləri Anma və Çanakkale Dəniz Zəfərinin 106-cı ildönümünə həsr olunmuş proqramda iştirak ediblər.

18 - 21 mart 2021-ci il tarixdə “YAŞAT” Fondunun və “Bravo” marketlər şəbəkəsinin birgə təşkilatçılığı ilə şəhid ailələrinə və tibb müəssisələrində yataq şəraitində müalicə alan ağır yaralılara 368 000.00 AZN dəyərində olan 4000 qutu Novruz sovqatı paylanılıb.

16 aprel 2021-ci il tarixində Dövlət Agentliyinin “YAŞAT” Fondu ilə iş şöbəsi ilə “Tək Millət, Tək Ürək” beynəlxalq-humanitar qardaşlıq platforması və “Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçilər” İctimai Birliyi arasında əməkdaşlıq haqqında niyyət protokolu imzalanıb.

“YAŞAT” Fondu ilə Türk Dünyası Bakı Atatürk Liseyi, XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi ilə Hədəf liseyi, Kaspi Tədris Mərkəzi, Evrika Liseyi arasında şəhidlərin övladlarına ödənişsiz, əlilliyi müəyyən edilmiş şəxslərin övladlarına isə 50% güzəştlə təhsil alması məqsədi ilə niyyət protokolu imzalanıb. Sözügedən təhsil müəssisələrinə şəhid və yaralananların övladlarının qəbul edilməsi üçün imtahanlar davam edir.

Qeyd edək ki, YAŞAT fondunun hesabatlılığını təmin etmək üçün yashat.gov.az saytı fəaliyyət göstərir. Bütün xərclər adlı siyahı şəklində ödənişləri təsdiq edən sənədlər və videolarla birgə saytın hesabat bölməsində göstərilir.

# Şəki rayonunda dünyaya gəlib, Zaqatalada dəfn olunan şəhid, Vətənimizin gənc xilaskarı - Aydın Əhmədli...

***...Haqqında söhbət açacağım növbəti Vətənimizin xilaskarı, şəhidlik zirvəsini fəth etmiş, özü də lap gənc yaşlarında canını qurban vermiş Aydın Mustafa oğlu Əhmədlinin qısa ömrü çox keçməkeşli olub...***

Yeniyetmə yaşlarından ailəsinə kömək etmək üçün işin qulpundan yapışıb. Anasına həm dərd yoldaşı, bacılarına və qardaşına da ayaq olub. Hər bir insanın taleyi müxtəlif olur. Acılı, şirinli, müxtəlif təzahürlərlə dolu...

...Aydın məktəb yaşlarından əziyyətə qatlaşıb, enişli-yoxuşlu yollardan hələ yeniyetmə olarkən keçib. Amma, yaşıdlarının yanında biruzə verməyib. Ona ən çətin məqamlarda istəkli xalaları, rəhmətlik dayısı dayaq olublar. Onun ən böyük arzusu, məqsədi bacılarının ali təhsil alması olub. Bu barədə söhbət düşəndə anası deyərdi ki, "...Bala, Aydın axı sən də yaxşı oxuyursan, hazırlaş ali məktəbə, bir ixtisas seç, gələcəkdə lazım olacaq..!" Aydının cavabı belə olardı: "Ana, qurbanın olum, bilirəm sən istəyirsən ki, mən də ali məktəbə daxil olum, sənin fikrinlə şərikəm, amma, əvvəlcə bacılarım ali təhsil alsınlar, onlara daha çox vacibdir təhsil almaları... Mən hər zaman oxuya bilərəm, gec deyil, narahat olma..."

...Lap gənc ikən şəhidlik zirvəsini fəth edən Aydın Əhmədli barəsində daha ətraflı məlumat toplamaq üçün Zaqatala rayonu Qandax kəndinə getdim, ana yurduna... Artıq onun ən çox sevdiyi bahar gəlmişdi. Onun vaxtilə uşaqlıq, məktəb illərini keçirmiş həyət necə də gözəl görünürdü: zoğal, alça, gilənar, ərik, şaftalı ağacları çiçək açmışdı, həyət-baca yaşıllaşmışdı, həyətdən sanki nərgiz güllərinin ətri gəlirdi... Məni həyət qapısında Aydının xalası Nuriyyə xanım qarşıladı:

- Soruşdum: "Ay bacı, Vətənimizin can fədaisi Aydın Əhmədlinin anası, digər ailə üzvləri və digər əzizləri bu evdəmi yaşayırlar?"

...Arvad əvvəlcə duruxdu, sonra isə doluxsundu, nəhayət özünü ələ alaraq, cavab verdi:

- Qardaş, hələlik bilmirəm hardan gəlmisiniz, nə məqsədlə gəlmisiniz? Deyim ki, şəhid balamızın anası, yəni mənim bacım Bahar və iki qızı ilə birlikdə Bakı şəhərində olurlar. Bacımız orada işləyir, böyük qızı ail həyatı qurub, kiçik qızı isə anasının yanındadır. Ali məktəbi bitirib, iş axtarır. Aydının balaca qardaşı ilə bizim yanımızdadır...

- Axı, mən özümü sizə təqdim etdim, dedim ki, jurnalistəm, gəlişimin məramı da xoşdur, igid, mərd gəncimizin həyat hekayəsini qələmə alacağam və onu elimizə, yurdumuza tanıdacağam...

- Neyləyək, oğlum, Aydının ölümündən sonra özümüzə gələ bilmirik, elə bil əl-ayağımız tutulub, çaş-baş qalmışıq. O, ayrı uşaq idi... Allah, bu müharibəni törədənlərin torpaqlarımızı işğal edən düşmənlərin, hiyləgər tülkülərin cəzasını versin... Müharibə etdilər, bizim 18, 19, 20, 21 yaşları bitmiş, cavanları həlak etdilər, qırdılar... Günahsız balaları. Əlavə etdi: "...Aydın uşaqlıqdan əziyyət çəkmişdi, bacımız 4 balasını böyütmək üçün Bakı şəhərində müxtəlif yerlərdə çalışmışdır, qızların ali məktəbdə oxutdurmuşdur. Aydın isə məktəbi bitirib, işləməklə anasına yardımçı olmuşdur."

Hörmətli oxucum, həyatda talelər var ki, onların ailə sirlərinə vara bilsəm də müəyyən səbəblərdən açıqlaya bilmirik. Yəni, psixoloji, mənəvi detallara və incəliklərə görə... Şəhid Aydın Əhmədlinin taleyində olduğu kimi...

...Xalası Nuriyyə xanımın söylədiyinə görə şəhidimizin özündən savayı daha yeddi - Şahrugül, Əminəxatın, Nəzakət, Firəngiz, Kifayət, Havva, Savat adlı xalaları var. Onun Nurullah dayısı isə erkən dünyasını dəyişib. Mərhumun anası Bahar xanım isə ailənin son beşiyi olub. Aydın Əhmədlinin xalaları Nuriyyə və Firəngiz söylədilər ki, bacıları Bahar Şəki rayonunun Orta Zəyzid kənd sakini Mustafa Əhmədov soyadlı bir şəxslə ailə qurub. Bu izdivacdan 2 qız, 2 oğlan övladı dünyaya gəlib. Aydın Əhmədli bu ailənin 3 -cü övladıdır. O, 12 mart 2002 -ci il tarixində məhz, Şəki rayonunun Orta Zəyzid kəndində dünyaya göz açıb.

Əvvəlcə, Orta Zəyzid kənd 2 saylı tam orta məktəbinin birinci sinfinə gedib. Anası Bahar xanımın




bildirdiyinə görə, qonşu Köbər Zəyziddə ev inşa etdikləri üçün Aydın ikinci sinifdən sonra həmin kənd məktəbində təhsilini davam etdirib. Xalaları söhbət zamanı bildirdilər ki, onun böyük bacısı 1993 -cü il təvəllüdlü Rəqsanə Əhmədova ali məktəbə qəbul olunduğu, anası isə Bakı şəhərində işlədiyi üçün Aydın sonra orta təhsilini Bakı şəhəri, Binəqədi rayonu, Qorxmaz Baxşıyev adına 179 saylı tam orta məktəbində davam etdirib. O, 2017 -ci ildə həmin məktəbin IX sinifini bitirib və ailəsinə kömək etmək üçün həqiqi hərbi xidmətə çağrılanadək ticarət sahəsində çalışıb...

Nuriyyə xalasının bacısı oğlu barəsində dediklərindən:

- Aydın, diribaş, ağıllı, dərrakəli, ailəcanlı uşaq idi. İşləməklə ailəsinə maddi, həm də mənəvi dəstək verirdi. Çünki, bacılarının 2-sidə ali təhsil ocaqlarında oxuyurdular. Bacımın böyük qızı Rəqsanə Azərbaycan Texniki Universitetini 2019 -cu ildə bitirib, ailə həyatı qurub. Bu ailənin 2 -ci qızı 1997 -ci il təvəllüdlü Əfsanə Əhmədova isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Ekologiya fakültəsində təhsil alıb. Aydının balaca qardaşı İlkin, 2004 -cü il təvəllüdlüdür, hal-hazırda Zaqatala rayonu Əliabad qəsəbə 1 saylı tam orta məktəbinin 9 -cu sinfində oxuyur. Bəli, bacım oğlu çox ürəyi açıq, xeyirxah, ağsaqqalın - ağbirçəyinin hörmətini saxlayan, onların qayğısına qalan bir gənc olub. Ailəni dolandırmaqdan ötəri hər cür çətinliyə qatlaşırdı. O, uşaqlıq və məktəb illərində dünyaya göz açdığı kənd dağlıq ərazidə yerləşsə də, bacımın oğlu rayonumuzun, təbiətimizin və Qandax kəndinin vurğunu idi. Aydın kəndə gəlməyəndə biz darıxırdıq, onunla günlərimiz xoş keçirdi... O, bədii və dedektiv kitabları çox oxuyar, futbol oynamağı da xoşlayırdı...

...Digər xalası Firəngiz xanım söhbətimizə qoşularaq, bildirdi ki, Aydın Əhmədli çox tərbiyəli, çox vətənpərvər ruhda böyümüşdü. Azğın düşmənin tarix boyu törətdikləri vəhşiliklərdən, qaniçənlərin torpaqlarımızın işğal altında saxlamasından, onların törətdikləri vandalizmi hərəkətlərindən çox-çox narahat idi, onlara qarşı nifrət, qisas hissi günbə-gün artırdı. Firəngiz xalası deyir ki, "Aydın tez-tez bizi bu barədə suallar verərdi: "Ay xala, bir yığım erməni dığasıdır, bizim Milli Ordumuz onları niyə ərazimizdən çıxarmırlar? Axı, onlar bizim günahsız hərbiçilərimizə müharibə və mülki vətəndaşlarımıza atəş açırlar? Bizim mərd-qorxmaz hərbiçilərimizə əmr verilərsə, o, qorxaq havadarlara arxalanan düşmənləri qısa müddətdə məhv edərlər. Onlar bağışlanmaz düşmənlərdir. Əgər mən əsgərliyə gedəndə hücum əmri verilsə, mən düşməndən azğınlıqlarının qisasını alacağam" deyərdi..."

"...Bacım oğlu elə bil hiss etmişdi ki, o, hərbi xidmətə başlayan bir müddətdən sonra İkinci Qarabağ Savaşı başlayacaq və özü də bu müharibənin iştirakçısı olacaq, neçə illərdən bəri göz dağımız olan torpaqlarımızın işğaldan azad olunmasında erməni dığaları ilə vuruşacağıq. Bu döyüşlərdə mərdlik, şücaət, igidlik göstərəcək gənc qəhrəman kimi xatirələrə dönəcəkdir..." deyə Firəngiz xalası əlavə etdi...

...Aydın Əhmədli anasına, bacılarına, qardaşlarına, xalalarına, əzizlərinə çox bağlı olub. O, Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılanda anası Bahar xanım çox nigaran qalmışdı. Çünki, aprel döyüşlərindən və Tovuz təxribatından sonra Qarabağ torpağına erməni faşistləri dişlərini qıcamış, təxribatların sayını artırmış, təhlükəli düşmənlər xoşluqla zəbt etdikləri torpaqlarımızı tərk etmək istəmirdilər, bölgədən barıt qoxusu gəlirdi...

Şəhid şair Müzəffər Məmməd oğlu demişkən:

Taleyin işidir ayrılmağımız,
Ağlama, ay ana, qurbanın olum.
Bir təsəllisi də ağlamağımız,
Ağlama, ay ana, qurbanın olum.

...Nuriyyə xanım Aydının əsgərliyə yola salınma anlarını xatırladı: "Biz, 3 aprel 2002 -ci il tarixində əzizimizi, sevimlimizi, şirin balamızı Azərbaycanın Milli Ordu sıralarına həqiqi hərbi xidmətə yola saldıq. Yola düşməzdən bir gün əvvəl bütün ailə üzvləri, biz xalaları, dostları və digər əzizləri onun başına toplaşdıq. Aydına təmkinli, iradəli olmağı, can sağlığı, xeyir-dua, Vətənə kişi qeyrətli, başımızı uca edəcək oğul kimi xidmət etməyi arzuladıq." Aydınımız elə ilk günlərdən nümunəvi xidmətə başladı və..."

Əzizlərinin bildirdiklərinə görə Aydın hərbi xidmətə Müdafiə Nazirliyinin Ağcabədi rayonunun Minəxorlu kəndində yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmətə başladı. And içmə mərasimindəki Hərbi Nizamnaməni və Qaydalarını öyrənən Aydın daha sonra mütəmadi olaraq hərbi təlimlərə qatıldı. Bu təlimlərdə fəal iştirak etdi - gənc əsgər.

Nuriyyə xanım bacısı oğlu Aydınla hərbi and içmə mərasimindəki görüşdən də danışdı: "Aydınla and içmə mərasimi bizə təsəlli görüşü oldu. Həmin görüşə anası, qardaşı, xalası oğlu ilə birgə getmişdik. Əsgər balamıza elə bir dünyalar bağışlanmışdı. Aydın sanki böyümüşdü, xeyli dəyişilmişdi, əsil hərbi görkəmi vardı. Hərbi xidmətindən böyük həvəslə danışırdı. Bacı oğlu tez-tez hərbi təlimlərdə iştirak etdiyini desə də, tezliklə başlanacaq müharibə barədə belə bir kəlmə işlətmədi. Ancaq, üz cizgilərindən narahatlıq, nigarançılıqla yanaşı məsuliyyət hiss olunurdu. Görüş zamanı əvvəlcə bacıları Rəqsanə, Əgsanədən, qardaşı İlkindən bacısının uşaqlarının hal əhvalını soruşdu, digəri xalaları, qohum-əqrəba ilə maraqlanardı... Anası Bahar xanıma xüsusilə irək-dirək verdi. Anasının gözlərindən axan göz yaşlarını silə-silə... "Əziz anam, niyə kövrəlirsən, ağlama, sən fəxarətlə öyünməlisən ki, sevimli oğlun mərdlik, sınaq məktəbindədir, Ana Vətənimizin keşiyini çəkir, sabitliyinizi qoruyur. Ana, dözümlü ol, sağlıq-salamlıq olsun. Həqiqi hərbi xidmətimi başa vurub, tezliklə Sizin yanınıza qayıdacağam, yenə də sizinlə birlikdə olacağam... qüssələnmə, təmkinli ol... axı, sən mərd qadınsan..! Təki, bütün analar sənin kimi dözümlü, iradəli olsunlar..."

...Biz, onunla görüşdən ayrılanda arxamızca həsrətlə baxırdı, bir az da kövrəlmişdi... Əslində isə, bizim Aydın balamızla sonuncu görüşümüz oldu... Həmin görüşdən sonra onunla bir neçə dəfə telefon əlaqəsi yaratdıq... Sonra xeyli müddət Aydınla əlaqə saxlaya bilmədik, nigaran qaldıq...

...Aydın Əhmədli 27 sentyabr 2020 -ci il tarixində İkinci Qarabağ Savaşı başlayanda 5 -ci ay idi ki, hərbi xidmətdə idi... Yaxınlarının sözlərinə görə, müharibə başlamazdan əvvəl, Aydınla əlaqə saxlaya bilməyiblər, narahat olduqlarına görə xidmət etdiyi hərbi hissənin komandanlığına, Müdafiə Nazirliyinə müraciət ediblər... Sonra isə Aydının sorağı döyüş meydanından gəlib... 18 yaşlı hərbiçinin döyüş yolu müharibənin ilk günündən - Cəbrayıldan başlayıb. Zəngilan, Qubadlı rayonlarının düşmənlərdən azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş, neçələrlə erməni daşnaklarını gəbərtmiş, sərrast atıcı kimi düşmənin müxtəlif növ silahlarını, texnikasını sıradan çıxartmışdır. O, eyni zamanda dəfələrlə yaralı döyüşçü yoldaşlarını xilas etmişdir. Aydın daha sonra İkinci Vətən Müharibəsinin ən bəlalı qaynar nöqtəsi olan Füzuli bölgəsində döyüşlərə qoşulmuşdu. Düşmənin ən çox canlı qüvvəsi, texnikasının, topladığı istehkamlarının quraşdırdığı cəbhənin bu xəttində ən ağır döyüşlərinin iştirakçısı olmuşdu - Aydın. Vətən xilaskarının son döyüşü də məhz, 6 oktyabr 2020 -ci il tarixində Füzuli istiqamətində olmuşdur. Düşmən mövqelərini darmadağın edən döyüşçülərimiz əks tərəfin güclü müqavimətii ilə rastlaşıblar. Həmin gün biz tərəfdən döyüşlərdə xeyli yaralı və şəhidlərimiz olsa da, düşmən tərəfdən də xeyli itkilər verdilər... Təəssüflər olsun ki, ermənilərin atdıqları minamyot mərmisindən sonra Aydın Əhmədli - döyüşçü yoldaşlarını xilas edərkən, mərmi qəlpəsindən ağır yaralanıb... Xəsarətlər ağır olduğu üçün həyata qaytarması mümkün olmayıb.

Bəli, ömrünün 19 -cu payızında gözlərini əbədi olaraq yuman və qəlbi bulaq kimi çağlayan, arzuları aşıb-daşan, ancaq çin olmayan Aydın Əhmədli şəhadətə qovuşaraq, ən gənc döyüşçü kimi tarix yazdı... Öz hünəri, qorxmazlığı, cəsarəti ilə...

...Vətən cəfakeşi Aydın Əhmədli Şəki rayonunda dünyaya göz açsa da, şirin uşaqlıq, məktəb illərini keçirdiyi anasının doğma yurdu olan Zaqatala rayonunun Qandax kəndində qəbristanlıqda 9 oktyabr 2020 -ci il tarixində izdihamla, al qırmızı əkillərin müşayiəti ilə son mənzilə yola salındı... Aydın son nəfəsində belə demişdi: "Əzizlərimə deyərsiniz ki: "Anamdan, bacılarımdan, qardaşımdan muğayat olsunlar, onlar Sizlərə əmanət, xalalarıma deyərsiz ki, ağlamasınlar, göz yaşlarını tökməsinlər, yerim narahat olar..."

Halal olsun Vətən oğlu. Sən 18 yaşında cəsarətlər cəsarəti oldun... Aydın! Hünərinə min alqış - elimizin fəxri, qüruru...

Ölkə başçısının sərəncamı ilə Aydın Mustafa oğlu Əhmədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

Qeyd: Bildirmək istəyirəm ki, şəhid Aydın Əhmədlinin ailəsi Bakı şəhərində kirayədə yaşayır, yaşamaqları üçün mənzilə ehtiyacları vardır. Digər tərəfdən şəhidin bacısı Əfsanə Əhmədova Azərbaycan Memarlıq və İnşaat Universitetinin Ekologiya fakültəsini bitirsə də iş tapa bilməyib. Yaxşı olardı ki, aidiyyatı təşkilatlar ailənin mənzillə, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə şəhid bacısının işlə təmin olunmasına köməklik göstərsələr bu bir xeyirxahlıq missiyası olardı.

***Elman Maliyev***
***Azərbaycan jurnalistlər Birliyinin üzvü***

# “Xarı bülbül” festivalının iştirakçısı: Həmin gün Şuşa başqa görkəmdə idi...

***“Xarı bülbül” musiqi festivalı III Ümumittifaq festivalı çərçivəsində Azərbaycan Mədəniyyət Nazirliyinin təşəbbüsü, Həmkarlar İttifaqı Şurası və Bəstəkarlar İttifaqının iştirakı ilə 1989-cu ilin mayında Qarabağda keçirilib.***



Festival Ağdamın Abdal Gülablı kəndindən başlayıb, Şuşada davam etdirilib və Ağdamda yekun konsertlə başa çatıb.

Şuşada keçirilən tədbirdə meydan tamaşası estetikasının bütün elementləri ifadə olunub. Cıdır yarışı, pəhləvanlar və kəndirbazların iştirakı ilə səhnələr nümayiş edilib, qurban kəsmə mərasimi əks olunub. Xalqımızın 7 əsas muğamının hər biri ilə əlaqədar hücrə qurulub və həmin hücrələrin içində muğam, musiqiçi dəstələri əyləşib. Üçmıx dağının sinəsindəki min bir dərdin dərmanı rəngbərəng çiçəklər, öz qeyri-adi görünüşü və gözəlliyi ilə insanı məftun edən xarı bülbül gülü əl-əl gəzərək ilk dəfə görənləri heyrətləndirib...

“Xarı bülbül” festivalın iştirakçılarından olan şair-publisist, Əməkdar müəllim Əyyub Şirlanlı AZƏRTAC-ın müxbiri ilə söhbətində həmin günləri belə xatırlayıb: “1989-cu ilin mayın 21-də Şuşa başqa görkəmdə idi. Cıdır düzündə festivalın iştirakçısı olan Şuşa və şuşalılar öz xoşbəxt günlərini yaşayırdılar. Sıldırım qayaların üstündə əsrlərlə qərar tutan, neçə-neçə yadellilərin işğalına məruz qalan, öz məğrurluğunu qoruyub saxlayan, Şuşanın belinə kəmər kimi qurşanan möhtəşəm qala divarları, bürclər qədim Çin səddini xatırladırdı. Qarabağın tacı hər ilməsində tarix çözələnən xalçalarla bəzədilmiş, şəhərin ən görkəmli yerlərinə xarı bülbülün emblemi çəkilmiş pannolar asılmışdı.

Festivala Qazaxıstan, Başqırdıstan, Türkmənistan, Moskva, Pribaltika ölkələri, Ukrayna, Dəmir qapı Dərbənd və Borçalıdan, ölkəmizin ayrı-ayrı bölgələrindən - Bakı, Naxçıvan, Şamaxı, Şəki, Füzuli və Cəbrayıldan musiqiçi və xanəndələr, şairlər, sənətkarlar və pəhləvanlar gəlmişdilər. Tədbirə təşrif gətirən qonaqlar Şuşadakı Şərq Musiqi Alətləri Fabrikinin ustalarının düzəltdikləri tar, kamança, saz, qaval, ud, nağara və digər musiqi alətləri ilə yanaşı, öz mahir sənətkarlığı ilə tanınan şəbəkə ustası Rafiq Allahverdiyevin düzəltdiyi şəbəkə nümunələrinə heyranlıqla tamaşa etdilər.



Onlardan musiqi alətləri və şəbəkə nümunələrindən alıb özləri ilə aparanlar da oldu.

Cıdır düzündə Azərbaycanın məşhur pəhləvanı mərhum Qaçay Hüseynov və oğlanları Təvəkkül, Allahverdi, qız nəvəsi 10 yaşlı Rəşadın atıb-tutduqları ağır çəki daşları, dartıb saxladıqları minik maşınları, xüsusilə pəhləvanın arxası üstə uzanaraq sinəsinin üstündən yük yerində 30-40 nəfər olan “Qaz-53” markalı maşını keçirməsi zamanı alqış səsləri ətrafı bürüdü.

Yeddi rəngdə düzəldilmiş çadırlar qədim oğuz-türk fatehlərinin çadırlarını xatırladırdı. Amfiteatrı xatırladan Cıdır düzündə bir-birindən 30-40 metr aralı qurulmuş çadırların qapısının üstündə ifa ediləcək muğamın adı yazılmışdı. Qazax, türkmən və başqırd musiqiçiləri yerə döşənmiş xalı və gəbələrin üstündə bardaş qurmuşdular.

Festival dahi Üzeyir Hacıbəylinin “Koroğlu” uvertürası səslənişi ilə başlandı. Əvvəlcə Rusiya və Ukraynadan gələn qonaqlar Şuşanın gözəlliyi qarşısında heyranlıqlarını dönə-dönə dilə gətirdilər. Xalq artisti, mərhum professor Vasif Adıgözəlovun çıxışı iştirakçılarda xoş təsir yaratdı. Xalq artisti Sara Qədimova “Qarabağ şikəstəsi” muğamını ifa etdi.

“Segah” çadırında qərar tutan Naxçıvandan gələn musiqiçilər - tarda Elman Əliyev və kamançada Nazim Hüseynovun müşayiəti ilə xanəndə Hünər Əliyevin ifasında səslənən muğam tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı.

“Şur” çadırında Şəkidən gələn musiqiçilər milli geyimdə çıxış etdilər. Xanəndə Əbülfəz Nəcəfovun tarzən Əbdülrəşid Məmmədov və kaman ifaçısı Fərrux Məmmədovun müşayiəti ilə oxuduğu muğam alqışlara səbəb oldu.

Şamaxılılar “Rast”, füzulililər “Şüştər”, Cəbrayıldan gələnlər “Bayatı-Şiraz” çadırında idilər. Onların hər biri ifa etdikləri musiqi nömrələri ilə çox böyük marağa səbəb oldular. “Çahargah” çadırında qərar tutan Bakı Muğam Teatrının nümayəndələri tarda Mirxalid Salayev, kamançada Zahid Rzayev müşayiəti ilə xanəndə Mehman Səmədovun “Göstər ey gül üzünü, bülbülişeyda gülsün” misraları ilə başlanan qəzəllə oxuduğu muğam hamını ovsunlamışdı.

Şuşalıların ansamblına Əməkdar incəsənət xadimi Eldar Əliyev rəhbərlik edirdi, konsertmeyster Rəsul İsmayılov idi. Onların çadırı ağ rəngdə idi. Muğam və mahnı ifaçısı Mehdi Mehdiyev, qarmon və tar ifaçısı mərhum Tapdıq Zeynalov, tarzənlər mərhum Nadir Abbasov, Gülağa Zeynalov və İntiqam Abbasov, nağarada Natiq İbrahimov, kamançada Mərkəz Əliyev, sazda Əli Baxşəliyev öz məharətlərini göstərdilər. Xanəndələrdən İsa Rəhimov “Qarabağ şikəstəsi” və “Heyratı”, Gülnar Tağıyeva, “Qatar”, Hafiz Sədirzadə “Şur”, Hüseyn Məşədiyev “Mənsuriyyə” muğamlarını məharətlə ifa etdilər.

Bu möhtəşəm tədbirdə mən mərhum tarzən Gülağa Zeynalovun ifa etdiyi “Zabul” segahın sədaları altında Şuşa haqqında yazdığım iki şeiri oxudum. Festivala Ağdamda İmarət stadionunda konsert proqramı ilə yekun vuruldu”.



# Bənzərsiz səsin işığında...

***Elə sənətkarlar var ki, onlar həmişə arzuolunandırlar. Belələri üçün efirdə görünmək təkcə şöhrət və şərəf məsələsi deyil. Onlar bunu tamaşaçı zövqü, marağı və alqışı ilə qazanırlar. Azərbaycanın görkəmli qiraət ustası Həsən Əbluc kimi.***

AZƏRTAC xəbər verir ki, bu gün tanınmış aktyoru və rejissor, bədii qiraət ustası, pedaqoq, Əməkdar artist Həsən Əblucun anadan olmasının 79-cu ildönümü tamam olur.

Tanrı ona elə bir böyük məharət, gözəl bir səs bəxş etmişdi ki, bu təkrarolunmaz deyim tərzi yalnız və yalnız ona məxsus idi. Çoxları bu yolda var-gəl etsə də, Həsən Əbluc üslubu daim öz kamilliyi, ustalığı, axarı, qeyri-adi səslənişi ilə ürəklərə qəribə bir rahatlıq, bəlkə də narahatlıq gətirirdi. Sanki dinləyici onu dinləməyə məhkum olurdu. Ona görə ki, onun səsləndirdiyi istər poeziya, istərsə də nəsr nümunələrini başqaları nədənsə dinləyicinin daxilinə, varlığına o cür hakim edə bilmirdi. Bu ləngərli, tutarlı, sanballı üslub Həsən Əblucu zaman baxımından çoxlarından fərqləndirirdi. Sağlığında da, ölümündən sonra da. Elə bil onun öz deyim tərzi vardı. Bu ölçüdə hər şey dözəl səslənirdi. Təkcə səslənmirdi, həm də gözəl dinlənilirdi...

Həsən Əbluc 1942-ci il aprelin 22-də Təbriz şəhərində anadan olub. Uşaq yaşlarında ailəsi ilə birlikdə Bakıya köçüb. Həsən Əbluc hələ uşaq vaxtlarından aktyorluğa böyük həvəs göstərib. Orta məktəbi bitirdikdən sonra o, Azərbaycan Dövlət Politexnik İnstitutuna (indiki Texniki Universitet) daxil olub. Birinci kursdan sonra sənədlərini M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinə verib. Elə həmin il Azərbaycan Dövlət Dram Teatrında rumın yazıçı Sebastyanın “Adsız ulduz” tamaşasına quruluş verib.

H.Əbluc Tofiq Kazımov kimi istedadlı rejissorun Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında hazırladığı tamaşalarda ikinci rejissor işləyib, həm də onun kursunda təhsilini davam etdirib. 3-cü kursda oxuyanda Akademik Dram Teatrına işə dəvət olunub. Ona səhnə danışığından Müxlis Cənizadə dərs deyib. O, Həsənin gözəl danışığına, sənətinə, diksiyasına, savadına görə onu assistent götürüb. Həsən Əbluc 30 il Azərbaycan Dövlət İncəsənət Universitetində bir pedaqoq kimi gənclərə sənətin sirlərini öyrədib.

Vaxtilə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda Azərbaycan qrupu yaradılmışdı. Məşhur aktyor, rejissor Yevgeni Motfeyev həmin qrupun rəhbəri idi. Ayda bir həftə səhnə danışığından dərs demək üçün Həsən Əblucu Moskvaya dəvət edirdilər.

Həsən Əbluc gözəl, ecazkar, cəlbedici, inandırıcı səsi ilə qəlbi sözə bağlı olanların sevimlisinə çevrilmişdi. O, radio tamaşalarında da saysız-hesabsız baş rollarda oynamışdır. Dublyaj filmlərində bütün rejissorlar baş rolları səsləndirməyi H.Əbluca həvalə edirdilər. Çünki o, dublyajda da öz möhürünü vurmuşdu.

Həm müəllim, həm rejissor, həm də aktyor olan Həsən Əbluc, eyni zamanda biri-birindən maraqlı hekayələr, dram əsərləri yazıb.

O, cəmi 52 il yaşadı. Bu işıqlı dünyadan ömrünün kamilliyə yenicə çatdığı bir vaxtda ayrılan Həsən Əbluc yaddaşlarda da öz kamil və ləngərli səsi ilə elə bu yaşda qaldı. Onu səsinin yaşı ilə ömrünün yaşı bəlkə də üst-üstə düşür. Azı ona görə ki, belə qiraət ustasının səsi heç vaxt qocala, titrəyə, öz təravətini itirə bilmədi...

Sənətkarın qardaşı kinorejissor Ənvər Əbluc onun haqqında “Həsən Əbluc” filmini lentə alıb. Bu Həsən Əbluca bir qardaş sevgisi ilə yanaşı, həm də bir tamaşaçı aşiqliyindən irəli gəlmişdir.



# Yerkökünün faydaları

***Yerkökü müxtəlif xəstəliklər zamanı çox faydalıdır. Bunlara misal: qanazlığını, bronxiti, bir sıra dəri problemlərini, ürək-damar xəstəliklərini, yara sağalmasını göstərmək olar.***

Ən çox da gözlər üçün xeyirli hesab olunur. A vitamini catışmazlığı zamanı görmə pozuntuları yaranır, bu zaman hava qaralarkən və gecə vaxtı görmə qabiliyyəti zəifləyir. Nəticədə bu problem "toyuq korluğu" adlanır. Lakin bütün karotin sovrulmur. Vitaminin sintezi qaraciyərin və ödün normal funksiyası zamanı bərpa olunur.

Yerkökünün antispetik, bəlğəmgətirici, ödqovucu, iltihab eleyhinə olan təsiri vardır. O, həmçinin mədə-bağırsaq traktı vəzilərinin fəaliyyətini artırır. Onun şirəsi və ya digər şirələrlə qarışımı yorğunluğu aradan qaldırır, iştahanı artırır, üzün rəngini və görmə qabilliyyətini yaxşılaşdırır, bədəndə antibiotiklərin toksik təsirini azaldır, saç və dırnaqları möhkəmləndirir, xəstəliklərə müqavimət göstərməyə yardımçı olur. Nəzərə almaq da lazımdır ki, böyük miqdarda şirə qəbul etmək yuxu, baş ağrı, qusma və digər xoşagəlməz hallar yaradır.

Yerkökü mətbəxdə də əvəz olunmazdır. Belə ki, minilliklərdir ondan hər növ təamlar hazırlanır və süfrəyə verilir. Bu tərəvəz həm dad baxımından, həm də orqanizmlə rahat "uyğunlaşdığı" üçün uşaq yeməkləri və dietik yeməklərdə də istifadə olunur. Bundan əlavə bir çox yeməklərdə, duru şorbalarda, salatlarda, qarnirlərdə, ədviyyatlarda, souslarda, marinadlarda hətta şirniyyatlarda da istifadə edilir. Eləcə də bir çox ət, balıq və tərəvəz konservlərində istifadəsi geniş yayılıb.

# Bamiyənin xeyri haqqında

***Bamiyə (lat. Abelmoschus esculentus, əvvəlki adı lat. Hibiscus esculentus) - əməköməcikimilər fəsiləsinə aid ekzotik və birillik bitki növüdür. Bu bitkinin kimyəvi tırkibinə görə bir çox faydalı xüsusiyyətləri var. Bamiyə canlandırıcı və cavanlaşdırıcı qida olduğu üçün istifadə etmək məsləhət edilir. Tərkibində fol turşusu yer tutduğu üçün hamilə və südverən qadınların qida rasionuna əlavə olunması tövsiyə olunur.***

Bamiyə tərkibli suyu necə hazırlamalı?

Bunun üçün bamya bütün gecə ərzində suda qalmalı, növbəti səhər isə həmin su içilməlidir. Bamiyə xərçəng inkişafı riskini əsasən də yoğun bağırsaq xərçənginin inkişafını azalda bilir. Bamiyə tərkibli suyun qəbulu depressiyanı yüngülləşdirir. Bu bitki iltihab azaltma tərkibli olduğu üçün bəzi ağciyər xəstəliklərinin, boğaz ağrılarının, mədə xoralarının müalicəsində müsbət təsirini göstərə bilər.

Beləliklə bu kəşf sayəsində bir çox insanlar insulin asılılığından azad olacaq və diabeti keçirmək daha asan olacaq.

# Körpələrin şirin yatması haqqında...

***Bu sualın cavabı çox sadədir, onlar gecə yuxudan oyanmağı sadəcə kəşf edib və bu kəşf onların doğal istəyindən irəli gələn amildir, belə ki, bütün körpələrin anadan olandan sonra xarici mühitə öyrəşməsi müəyyən vaxt istəyir. Körpənin xarici mühitə öyrəşməsi əslində onun valideynlərinə, özəlliklə anasına isinişməsi ilə başlayır. Bütün varlığı ilə anaya bağlı olan körpəni tək yatmağa öyrətmək birdən-birə baş vermir bu tədricən olmalıdır.***

Körpə anadan olarkən onu xarici mühitə öyrətmək üçün özümüzə alışdırırıq. Lakin , elə ilk günlərdən körpənin ana ilə və ananın qucağında yatmaq ehtiyacına baxmayaraq, ana yuxuya gedərkən çağanı qoynunda saxlamamalıdır. Burada ana nə qədər ayıq yatmağa cəhd etsə də, yuxuya getdikdən sonra hələ özünü müdafiə etməyi bacarmayan körpəni yuxu havasına boğmaq ehtimalı var.

Həyatının ilk aylarının valideynlərin özəlliklə intensiv qida vaxtından



asılı olaraq, süd əmərkən ananın qucağında keçirən körpə, təxminən beş aylığından etibarən artıq gecələr özü yatmağı məşq etməli və buna öyrənməlidir.

Uşaq gecələr tək və sərbəst yatmağa öyrənməzsə, dərin yuxuya getmədən ara-sıra oyanıb ağlayacaq və kontakt istəyəcək. Nəticədə, valideynləri oyadaraq gecə yuxusunu onlara da haram edəcək. Valideynlər dərin yuxuya getmədən tez-tez oyanıb uşağın qulluğunda dayanacaqlar.

Uzun müddət dərin yuxuya həsrət qalan valideynlər özləri də bilmədən xroniki yorğunluq keçirəcək. Nəzərə alsaq ki, çağdaş və modern toplumun insanlardan tələbləri xeyli artmışdır, yəni hər kəs işləməli, ictimai kontaktda olmalı, toplumda məsuliyyət qəbul etməlidir. Bütün bunlar insanlardan sosial münasibətdə gülər üz və kifayət qədər aktiv olmağı tələb edir. Gecə yuxusuzluğu və yaxud dərin yuxuya getmədən gecəni səhər etmək valideynlərin həyat tərzinə, iş qabiliyyətinə və sosial münasibətlərinə mənfi təsir etməklə yanaşı körpə ilə münasibətdə də, özünü göstərəcək. Körpə bunu valideynlərin ona yanaşma tərzindən, üzlərinin cizgisindən, səs tonlarından və başqa davranış tərzindən duyacaq. Körpə istər istəməz duyacaq ki, valideynləri " özləri " kimi çıxış etmir, burda bir qeyri adilik var və bu körpənin uşağın yeni başlanmış həyatında ciddi sarsıntıya nədən olub onun inkişafında ciddi mənfi iz buraxa bilər. Bütün bunlar baş verməsin deyə körpənin doğal istəyindən dolayı olsa da, onun tək və sərbəst yatmağa öyrənməsi lazımdır.

Bütün araşdırmalar göstərir ki, uşaq tək yatmağa tez öyrənir və bu iş uşağın həyatına və sağlamlığına heç bir təhlükə yaratmır və zərərli deyil. Uşağın gecələr vaxtsız-vədəsiz və ara-sıra oyanması valideynlərdən əlavə onun öz sağlamlığına da ziyanlıdır. Hər şeydən əvvəl bütün gecəni alsız-qalsız tək və sərbəst yatmağa öyrənən uşağın özünə inamı artır və həyatda özgür yaşamağı məşq edir. Bu uşaqlar utancaq olmur və fikirlərini sərbəst etmək qabiliyyətinə malik olurlar. Tək yatmağa öyrənmiş uşaqların dərin yuxuda müddəti çox olur.

Uşağın hərtərəfli inkişafında və özəlliklə boyunun artmasında əsas rol oynayan boy artımı hormonu yalnız, körpə dərin yuxuya getdikdə ifraz olunur, körpənin dərin yuxuya getməsi bu hormonun ifrazı üçün də önəmlidir. Bunlardan başqa gecəni oyanmadan rahat yatmış uşaq səhər yuxudan qalxarkən şad, hövsələli, gümrah və aktiv olur. Belə uşaqların iştahası da yaxşı olur və yeməklərini müqavimətsiz yeyirlər.

Qeyd edim ki, körpənin gecələr oyanması valideynlərin və yaxud körpənin təqsiri deyildir. Bu hər şeydən əvvəl kültürəl bir problemdir.

Bu problemin aradan qaldırması üçün nə etmək lazımdır?

**Bu mövzuya keçmədən öncə bir neçə kəlmə yuxu haqqında qeyd edək:**

İnsan yatarkən yuxunun ağırlıq dərəcəsi, yatma müddətindən asılı olaraq dəyişir. Dərin yuxuya getmiş insanın orqanizmi tamamilə yuxuya təslim olur və dincəlir. Orqanizmin fəaliyyəti bütün sahələrdə dayanır və hissi duyğu orqanları bütünlüklə qapanmış vəziyyət alır. Səthi və yaxud yüngül yuxu ərəfəsində isə orqanizmin bütün orqanları dincəlsə də, sinir sistemi aktiv olur. Sinir sisteminin aktivliyinin nəticəsindədir ki, misal üçün insan yuxu görür. Buna görə də, dərin yuxuya getmiş insan, yüngül yuxuda olan insandan daha gec ayılır. Yaşlı insanlarda dərin və yüngül yuxu fazaları təxminən 90 dəqiqə çəkir. Bu müddət körpələrdə və azyaşlılarda 1 saata qədərdir.

## Orqanizmin oyadıcı zəngi

Toplum halında yaşayan bütün məməlilərdə olduğu kimi insanların da, dərin və yüngül yuxu anlayışı var. Bu anlam, növlərin o sıradan, insanların həyatında böyük qoruyucu, hətta irqlərin həyatının davamında ciddi rola malikdir. Qeyd edim ki, insanların xarakterindən asılı olaraq, müxtəlif insanlar müxtəlif durumlarda ayıq yatır. Yalnız, bu qoruyucu faktorun fəaliyyətinin nəticəsində, şəraitdən asılı olaraq ailə üzvlərindən, bəziləri ailəyə qarşı hər hansı təhlükə hiss etdikdə, bütün gecəni yüngül yuxu ilə keçirir və yaxud ayıq yatır.

Şəraitdən asılı olaraq ayıq yatan insanlar yuxulu olarkən duyğu orqanları vasitəsi ilə hər hansı təhlükə ehtimalı olan qoxu, səs və başqa siqnalları qeydə alarsa orqanizmin " oyadıcı zəngi " çalır və bütün ailə üzvlərini ehtimal olunan təhlükədən xəbərdar edir və insanların dərin yuxuya getməsinə mane olur. Qeyd etmək lazımdır ki, oyadıcı zəngin çalması həmişə xətər əlaməti ola bilməz. Bu zəng, duyğu orqanlarının hər hansı dəyişikliyi və qeyri adi halları qeydə aldığı zaman aktivləşir. Misal üçün, sakit şəraitdə yuxuya getmiş adam, ətrafında eşidilən səsdən oyana bilər. Bunun əksinə olaraq, gecə qatarı ilə yol gedən müsafir qatar dayandıqdan sonra, baş verən sakitlikdən oyanacaqdır.

Körpə uşaq yuxuya gedərkən valideynlərinin nəvazişini, qoxusunu hiss etsə, hər hansı səs və yaxud yatağının yırğalanmasını duysa yuxuya getdikdən sonra bu sayılanlar onunla olmazsa, ilk yüngül yuxu fazasında oyana bilər. Lakin, əgər uşaq təkbaşına öz yerində yuxuya getməyə adət etmişsə, misal üçün, yanında yatırdığı bir oyuncaqla, yatandan sonra duyğu üzvləri heç bir yenilik qeydə almadığı üçün bütün gecəni eyni vəziyyətdə sakit yatacaq.

Dərin yuxuya getmiş adamın şirin yuxusu qısa müddətli ayılmalarla da, müşayiət oluna bilər. Bu, yuxuya getmiş adamın üzün müddət bir tərəfi üstündə yatması ilə bağlıdır. Adam yüngülvarı oyanır yuxulu ikən yeni vəziyyət alır, balışını düzəldir və bir neçə saniyə ərzində yenidən yatır. Adamlar səhər yuxudan qalxarkən belə oyanma hallarını xatırlamır. Belə oyanma halları körpələrdə də olur. Tək və özbaşına yuxuya getməyə öyrənməmiş körpələr gecələr daha teztez oyanır. Əyər körpə tək və öz xoşuna deyil başqalarının yardımı ilə yuxuya getmişsə, bu məqamda da yuxuya getmək üçün yardım istəyəcək. Bütün bunların qarşısını almaq üçün və bütün gecəni həm özlərinin həmdə uşaqlarının rahat və sakit yatmasını istəyən valideynlər, uşaqlarına tək və özbaşına yuxuya getməyi öyrətməlidirlər.

# "Özümü Avropa çempionu kimi hiss edirəm"- Turan Bayramov



***Polşanın paytaxtı Varşavada keçirilən Avropa çempionatında gümüş medal qazanan Azərbaycanın sərbəst güləşçisi Turan Bayramov açıqlama verib.***

"Unikal" qəzeti xəbər verir ki, 70 kq çəki dərəcəsində çıxış edən idmançı, Azərbaycan Güləş Federasiyasının saytına açıqlamasında özünü Avropa çempionu olmuş kimi hiss etdiyini deyib:

"Bu kateqoriya mənim üçün yenidir. Bildiyiniz kimi, bundan əvvəl 65 kq-da çıxış edib, nəticə vermişəm. Avropa çempionatı kimi nüfuzlu yarışda iştirak etmək məsuliyyətimi daha da artırdı. 70 kq-da belə yüksək nəticə göstərməyimin ən böyük səbəbi yüksək səviyyədə təlim-məşq toplanışı keçməyimiz idi. Göygöldə fiziki hazırlıq üzrə yaxşı məşqlər keçdik. Ona görə də yarışda fiziki cəhətdən çətinlik çəkmədim.

Rəqiblərimə gəlincə, adətən, yarışdan bir gün əvvəl rəqiblərimi analiz edirəm. Qarşılaşdığım güləşçilər nəticə vermiş idmançılar idi. Böyük Britaniyadan olan rəqibim daha öncə bürünc medal uğrunda güləşmiş, dəfələrlə nüfuzlu yarışlarda iştirak etmişdi. Türkiyəli Haydar Yavuz sonuncu Avropa üçüncüsü idi, fərdi dünya kubokunda da gümüş medal qazanmışdı. Onunla görüş gərgin mübarizə şəraitində keçdi. Ancaq yaxşı fiziki hazırlıq keçməyim bu qarşılaşmada mənə çox kömək oldu. Yarımfinalda üz-üzə gəldiyim ukraynalı idmançını 23 yaşadək güləşçilərin dünya çempionatından tanıyırdım. Onun güləşini bilirdim. Ona görə də rahat qalib gəldim.

Finalda məğlubiyyətimin ən böyük səbəbi 70 kq-da yarış təcrübəmin çox olmamasıydı. Ancaq son saniyələrdə yaranan vəziyyətdə ayağımı rəqibin əllərindən qoparıb, onun arxasına keçə bilsəydim, Avropa çempionu olacaqdım. Ancaq eyib etməz. Bu nəticə mənim motivasiyamı daha da artırır. Özümü Avropa çempionu olmuş kimi hiss edirəm".

# Avropa Super Liqasına qoşulan İtaliya klubları cəzalanacaq?

***İtaliya Futbol Federasiyasının prezidenti Qabriel Qravina Avropa Super Liqası layihəsinə qoşulan klublarla bağlı açıqlama verib.***

"Unikal" qəzeti xəbər verir ki, yerli mətbuata danışan Qravina, "Yuventus", "İnter" və "Milan"ın cəzalandırılmayacağını bildirib:

"Biz futbolun dəyərlərini müdafiə etdik. Artıq hər şey normallaşıb. Lakin bu cür hadisələrin qarşısına almaq üçün təkliflərə ehtiyac var.

Super Liqaya qoşulan "Yuventus", "Milan" və "İnter" klublarının rəhbərləri ilə xüsusi görüşüm olmayacaq. Sanksiyalar? Xeyr, reallaşmayan bir fikir sanksiyaya məruz qalmır. Gələcəkdə qanunlara zidd olan nəsə olsa, onda məsələ ədliyyə orqanları tərəfindən araşdırılacaq".




Aprelin 19-da Avropanın 12 klubu Avropa Super Liqasının yaradıldığını bəyan etmişdi. Yeni turnirin ilkin mərhələsində İngiltərənin "Mançester Yunayted", "Mançester Siti", "Tottenhem", "Liverpul", "Çelsi", "Arsenal", İspaniyanın "Barselona", "Atletiko", "Real", İtaliyanın "Milan", "İnter" və "Yuventus" klubları iştirak edəcəkdi.

Futbol ictimaiyyətinin narazılığından və UEFA-nın təzyiqlərindən sonra İspaniyanın "Real" və "Barselona" klubundan başqa, digər bütün iştirakçılar Avropa Super Liqası layihəsindən çıxdıqlarını açıqlayıblar.

# "Mançester Yunayted" azarkeşləri bazanın girişini bağladılar

***"Mançester Yunayted" azarkeşləri uğursuz layihə olan Avropa Superliqasına qoşulduğu üçün rəhbərliyə etirazını fərqli formada edib.***

"Unikal"ın məlumatına görə, bir neçə fanat klubun bazasının hər iki girişini bağlayıb. Onlar bununla "qırmızı şeytanlar"ın səhmlərinə sahib olan qleyzerlər ailəsinə etirazını bildirib. Yalnız baş məşqçi Ole Qunnar Sulşer və onun köməkçiləri ilə söhbət etdikdən sonra azarkeşlər oranı tərk ediblər.

Qeyd edək ki, İngiltərənin digər klubu "Liverpul" azarkeşləri də etiraz kimi "Enfild Roud" stadionun qarşısına plakat asmışdılar.



# Təxirə salınmış oyununun vaxtı açıqlandı

***Futbol üzrə Azərbaycan 1-ci divizionunda 14-cü turdan təxirə salınmış "Sabah-2" - "Keşlə-2" oyununun başlanma saatı müəyyənləşib.***

"Unikal" qəzeti xəbər verir ki, aprelin 28-də keçiriləcək qarşılaşma saat 16:00-da start götürəcək.

"Sabah-2" 1-ci divizionda 4-cü, "Keşlə-2" isə 7-ci sıradadır.

Birinci divizion, 14-cü turdan təxirə salınmış oyun
28 aprel
Sabah-2 - Keşlə-2
Binə qəsəbə stadionu, 16:00

# Messi atasından "Barselona" ilə danışıqlara başlamağı xahiş edib



***Lionel Messi atasından mövsüm başa çatan kimi "Barselona" ilə yeni müqavilə barədə danışıqlara başlamağı xahiş edib.***

"Unikal" qəzeti xarici KİV-ə istinadən xəbər verir ki, futbolçunun atası Xorxe Messi eyni zamanda da onun idman agentidir. Hazırda o, Barselona şəhərindədir.

Qeyd edək ki, Messi bu mövsüm 28 La Liqa matçında iştirak edib və 23 qolla yadda qalıb.

# Almaniya klubları AVRO-2020-yə görə karantinə göndərilir




***Almaniyanın I və II Bundesliqasında çıxış edən futbol klubları Avropa çempionatından əvvəl mövsümü vaxtında bitirmək üçün təcrid olunacaqlar.***

"Unikal" qəzeti Almaniya Futbol Liqasının (DFL) saytına istinadən xəbər verir ki, qurum hər iki yarışda son 3 turun oyunlarının sərt karantin tədbirləri altında keçirilməsinə qərar verib.

Mayın 3-dən oyunçular və məşqçi heyəti yalnız evdə, məşq bazasında və stadionlarda olacaqlar. Onlar koronavirus testindən keçdikdən sonra mayın 12-də karantin düşərgəsinə yollanacaqlar. Orada futbolçu və məşqçilərin yalnız bir-biriləri ilə ünsiyyətdə olmasına icazə veriləcək. Bu müddət mayın 23-də başa çatacaq. Qeyd edək ki, koronavirus pandemiyasına görə təxirə salınmış AVRO-2020-yə Sankt-Peterburq (Rusiya), London (İngiltərə), Münhen (Almaniya), Roma (İtaliya), Buxarest (Rumıniya), Dublin (İrlandiya), Kopenhagen (Danimarka), Bilbao (İspaniya), Qlazqo (Şotlandiya), Budapeşt (Macarıstan) və Amsterdam (Niderland) şəhərləri də ev sahibliyi etməlidir. Oyunlar bu il iyunun 11-dən iyulun 11-dək keçirilməlidir.

# "Futbolçular limon kimi sıxılır və qarşılığında çox az qazanırlar" - Antonio Konte

***"Ənənəni unutmamalı, tarixə hörmət etməliyik. İdmana olan həvəsimizin azalmasına imkan verməк olmaz".***

"Unikal" qəzetinin məlumatına görə, bunu "İnter"in baş məşqçisi Antonio Konte deyib.

Avropa Superliqasının alınmamasına münasibət bildirən təcrübəli mütəxəssis UEFA-nı tənqid etməyi də unutmayıb. O, qitə futbol qurumunun pul bölgüsünü düzgün aparmadığını düşünür: "UEFA turnirlər təşkil edir, bütün hüquqları özündə saxlayır. Lakin gəlirin yalnız minimal hissəsini bu turnirlərdə iştirak edən komandalara verir. Sıx təqvimlər səbəbindən futbolçular limon kimi sıxılır və qarşılığında çox az qazanırlar. Yəni UEFA daha ədalətli mükafat fondu yaratmalıdır". Qeyd edək ki, "İnter" də uğursuz layihə kimi tarixə düşən Superliqada iştiraka icazə verən 12 klubdan biri olub.

Səhifəni hazırladı: Aygün İlqarqızı